Xalqın qəzeti!

# Xalq qəzeti

№ 157 (30273) 28 iyul 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

İkinci Qarabağ müharibəsinin nəticələrinə baxmayaraq, bu gün Ermənistan cəmiyyətinin, hətta hökumətinin tərkibində müəyyən insanlar var ki, hələ də revanşist ideyalarla yaşayır və onlar bunu gizlətmirlər. Ona görə biz hər hansı bir ssenariyə hazır olmalıyıq. Bu gün ordumuz 3 il əvvəlki ordudan daha güclüdür.

# Azərbaycanın energetika sistemi yüksəliş yolunda

**Prezident İlham Əliyevin iyulun 26-da Bakıda "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Şimal" Elektrik Stansiyasının yeni estakadasının, su nasos stansiyalarının və "Şimal" Kiçik Su Elektrik Stansiyasının açılışı mərasimində iştirakı zamanı dövlət başçımıza istifadəyə verilən energetika sistemləri barədə məlumat verildi, son 20 ildə bu istiqamətdə bir sıra mühüm layihələrin reallaşdırıldığı bildirildi.**

Mərasimdə, həmçinin Xəzər dənizində suyun səviyyəsinin iki metrə yaxın aşağı düşməsi ölkənin ikinci böyük elektrik stansiyası olan və Bakının 40 faizdən artıq ərazisini elektrik enerjisi ilə təchiz edən, ümumi gücü 800 MVt olan "Şimal" Elektrik Stansiyasının işində ciddi çətinliklər yaratdığı vurğulanaraq bu problemin əsasən suyun səviyyəsinin gündən-günə aşağı düşməsi ilə bağlı olduğu, nəticədə stansiyanın soyutma suyu ilə təchiz olunmasında ciddi narahatlıq doğurduğu qeyd edildi.

*(ardı 2-ci səhifədə)*



## Diplomatik korpus bölgədəki vəziyyətlə bağlı məlumatlandırılıb

**İyulun 27-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində nazir müavini Araz Əzimov tərəfindən ölkəmizdə akkreditə olunmuş diplomatik korpus üçün brifinq keçirilib.**




Brifinq zamanı iştirakçılar postmünaqişə dövründə regionda mövcud vəziyyət və reallıqlar, Azərbaycan və Ermənistan arasında sülh prosesi barədə məlumatlandırılıb.

Nazir müavini müharibədən sonra Azərbaycanın sülh təşəbbüsü ilə çıxış edən tərəf olduğunu, beynəlxalq hüququn norma və prinsiplərinə, əlxüsus dövlətlərin suveren bərabərliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə uyğun şəkildə ikitərəfli əsasda Ermənistanla münasibətlərin normallaşmasına hazır olduğunu bəyan etdiyini diqqətə çatdırıb.

*(ardı 3-cü səhifədə)*

## Türkiyənin Yaxın Şərq üçün təhlükəsizlik çətiri



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ötən həftə sonu üç Körfəz ölkəsi –Səudiyyə Ərəbistanı, Qətər və Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) rəsmi səfər edərək, ər-Riyad, Doha və Dubayda hərtərəfli, davamlı əməkdaşlıq üçün mühüm sənədlər imzalayıb. Ümumi fikir belədir ki, türk-ərəb birliyinin güclənməsi və regionda real gücə çevrilməsi baş verir.**

Bir çox analitiklər hesab edirlər ki, Türkiyə liderinin son prezident seçkilərində qazandığı parlaq qələbədən cəmi ay yarım sonrakı dönəmə təsadüf edən bu tarixi səfəri böyük bir coğrafi məkanda iqtisadi, hərbi, texnoloji sahələrdə əməkdaşlıq üçün geniş imkanlar açır. Dünya Yaxın Şərqdə yeni güc mərkəzinin yarandığını müşahidə edir. Dostlar və tərəfdaşlar buna sevinir, rəqib və düşmənlər isə narahat olurlar.

*(ardı 14-cü səhifədə)*

## Ermənistanın "tır aksiyası", yaxud sülhün üstünə "maşın sürmək"

**İyulun 25-də Azərbaycan və Ermənistan xarici işər nazirəri – Ceyhun Bayramovla Ararat Mirzoyan arasında Moskvada rusiyalı həmkarları Sergey Lavrovun vasitəçiiyi ilə keçirimiş görüşün heç bir əhəmiyyəti qalmadı.**

Əslində, eyni sözü iyulun 15-də Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə reallaşmış təmasının əhəmiyyəti barədə də söyləmək mümkündür.

*(ardı 3-cü səhifədə)*



## Aqrar sığorta fermerləri təbiətin şıltaqlığından qoruyur



Səhifə ⇨ 7

## Heykəli yandıran bir gün körpülərə də od vuracaq

**Azərbaycanın İkinci Qarabağ müharibəsində əldə etdiyi Qələbə onun təkcə dünya ölkələri ilə olan münasibətinə deyil, regiondakı güclər balansına da öz təsirini göstərdi. Üstəlik, 44 günlük müharibədən sonrakı dövr bölgədə, həmçinin qüvvələr nisbətini üzə çıxarmış oldu. İndi bütün kartların açılıb masa üzərinə düzüldüyü məqam yetişib.**

Azərbaycan kartların üzü çevrilmədən də dostunu və düşməninin kim olduğunu dəqiq bilirdi. İndi sadəcə pərdə qaldırılıb, oyunçuların əsl simaları aydınca görünür. Amma cavabını gözləyən bəzi suallar hələ də qalmaqdadır. Belə suallardan biri Hayastan–Hindistan "qardaşlığıdır". Dehli üçün uzun illər heç bir əhəmiyyət kəsb etməyən Ermənistanın zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra, nədənsə, etibarlı tərəfdaşa, "qardaşa" çevrildi, ölkələrarası əlaqələr güclənməyə başladı. Bir çox beynəlxalq platformalarda Ermənistanın "vəkili" rolunda çıxış etməyi özünə rəva bilən rəsmi Dehli hərdən ölkəmizə qarşı siyasi bəyanatlar səsləndirməkdən də çəkinmədi. Əslində, bu tip davranışları ilə Hindistan İrəvanın Azərbaycana qarşı məkrli siyasətinin, xain əməllərinin ortağına çevrildi. Bakı diplomatik baxımdan belə şübhəli və təxribatçı hərəkətlərin yolverilməzliyini rəsmi Dehlinin nəzərinə çatdırmalı idi.

*(ardı 4-cü səhifədə)*

## "Humanitar yük" adı altında...

### Jozep Borrell hayların təbliğatının təsiri altına düşüb

**"Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrellin erməni tərəfinin yaydığı saxta təbliğat və siyasi manipulyasiyalara əsaslanaraq verdiyi bəyanatda bölgədə vəziyyətə dair sərgilədiyi yanaşma təəssüf doğurur".**



Borrellin bəyanatı ilə bağlı Azərbaycan XİN-in açıqlamasında daha sonra bildirilir ki, Avropa İttifaqının bölgədə sülh və sabitliyin bərqərar olması, Ermənistanla sülh prosesi üzrə danışıqlara verdiyi dəstəyi yüksək qiymətləndirilir. Amma "2020-ci ildə 44 günlük müharibədən sonra ölkəmizin milli təhlükəsizliyinə, ərazi bütövlüyünə və suverenliyinə təhdid olmaqda davam edən erməni silahlı qüvvələrinin ərazilərimizdən tam olaraq çıxarılmaması ilə yanaşı, Laçın yolundan istifadə etməklə Ermənistanın qeyri-qanuni fəaliyyətlə məşğul olmasına, Azərbaycan ərazilərinə silah-sursat, eləcə də mina daşınmasına, Azərbaycanın təbii sərvətlərinin Ermənistana aparılmasına Azərbaycan tərəfinin etirazlarına heç zaman məhəl qoyulmaması və gördüyü legitim tədbirlərin Laçın yolunun bağlanması kimi təqdim edilməsi kökündən yanlışdır". XİN, həmçinin onu da nəzərə çatdırır ki, ötən ilin dekabr ayından etibarən Ermənistanın qeyri-qanuni fəaliyyətinə qarşı etiraz aksiyalarına baxmayaraq, gün ərzində Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) daxil olmaqla, yüzlərlə nəqliyyat vasitəsinin Laçın yolundan keçidi həyata keçirilib. "Azərbaycan tərəfindən Laçın sərhəd-buraxılış məntəqəsinin təsis edilməsindən sonra da gün ərzində məntəqədən tənzimlənən və şəffaf qaydada hər iki istiqamətə keçid təmin olunub. Laçın buraxılış məntəqəsinə qarşı 15 iyun tarixində silahlı hücuma, qaçaqmalçılıq cəhdlərinə, eləcə də 26 iyul tarixində "humanitar yük" adı altında avtomobil konvoylarının göndərilməsi təxribatına baxmayaraq, Azərbaycan tərəfi bölgədə fəaliyyət göstərən BQXK ilə əməkdaşlığını davam etdirərək erməni sakinlərin tibbi məqsədlə keçidini təşkil edib, BQXK vasitəsilə tibbi yüklərin gətirilməsinə imkan yaradıb".

*(ardı 6-cı səhifədə)*

## Bir şəklin tarixçəsi



**Görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin Naxçıvan şəhərindəki ev-muzeyində orijinal bir şəkil var. Bu tarixi fotonu ilk dəfə 2004-cü ildə "Şərq qapısı" qəzetində çap etdirəndən sonra orada təsviri olanların kimliyi ilə bağlı araşdırmalara başladıq.**

İndiyədək bir çox kitablarda, jurnallarda və muzeylərdə maraqla qarşılanan bu şəkildə bir neçə nəfərin şəxsiyyəti dəqiqləşsə də, axtarışlara, araşdırmalara nöqtə qoyulmamışdı. Axtarışlarımızın uğurlu nəticələnməsinə "Avrasiya gündəliyi" portalındakı müsahibə səbəb oldu.

2016-cı ilin iyun ayında Bakıda Dünya Azərbaycanlılarının IV Qurultayı keçirildi. Məclisə gələn nümayəndələrdən biri də İrəvan xanlarının qürbətdə yaşayan varislərindən olan Turhan Turqut idi. Onun "Avrasiya gündəliyi" portalında müsahibəsi çox maraqla qarşılanmışdı.

*(ardı 8-ci səhifədə)*

# M.S.Balakişiyevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə Mövlud Süleyman oğlu Balakişiyev (Mövlud Süleymanlı) "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 iyul 2023-cü il**

# Hikmət Hacıyev Ermənistan parlamentinin sədrinə cavab verdi: Ağdam-Xankəndi yolu açıq və işləkdir!

**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistan parlamentinin sədri Alen Simonyana cavab verib.**

"Xalq qəzeti" xəbər verir ki, Hikmət Hacıyev "Twitter" hesabında Simonyanın ittihamına cavab verib.

"Ermənistanın siyasi rəhbərliyi sözlə oynamaq əvəzinə, Laçın yolu ətrafında beynəlxalq ictimaiyyəti aldatmağa yönəlmiş manipulyasiya, dezinformasiya və yanlış məlumatlandırma oyunlarına, təbliğat kampaniyasına son qoymalıdır! Ağdam-Xankəndi yolu açıq və işləkdir!", – Hikmət Hacıyev paylaşımında qeyd edib.

# Xarici işlər nazirləri arasında telefon danışığı olub

**İyulun 27-də xarici işlər naziri Ceyhun Bayramov ilə İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir-Abdullahian arasında telefon danışığı olub.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, nazirlər ikitərəfli və regional gündəlikdə duran məsələlər, eləcə də postmünaqişə dövründə bölgədə vəziyyət üzrə fikir mübadiləsi aparıblar.

Azərbaycan-İran iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədrləri arasında keçirilmiş son görüşdən irəli gələn məsələlər müzakirə edilib, ümumilikdə son aylarda yüksək səviyyədə keçirilmiş görüşlərin və qurumlararası təmasların münasibətlərin inkişafı istiqamətinə verdiyi töhfə yüksək qiymətləndirilib.

Xüsusilə, İranın xarici işlər naziri Hüseyn Əmir-Abdullahian ölkəmizdə iyul ayının əvvəli keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirici Bürosunun nazirlər iclasında iştirak məqsədilə ölkəmizə səfəri çərçivəsində, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşünü məmnunluqla xatırlayıb.

Telefon danışığı zamanı, iqtisadiyyat və nəqliyyat sahəsində əldə edilmiş ikitərəfli və regional razılıqların icrasının vacib olduğu bildirilib.

Nazir Ceyhun Bayramov Azərbaycanın postmünaqişə dövründə atdığı addımlardan bəhs edib. Bununla yanaşı, son zamanlar Laçın yolu ətrafında və bölgədə humanitar vəziyyət ilə bağlı yayılan iddiaların siyasi manipulyasiyadan başqa bir şey olmadığı diqqətə çatdırılıb. Ermənistan tərəfinin bölgədə təxribatlara son qoymasının, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə sözdə və əməldə hörmət etməsinin zəruri olduğu vurğulanıb.

İslam həmrəyliyi məsələsinə toxunan nazir Ceyhun Bayramov, həmçinin son zamanlar bəzi Skandinaviya ölkələrində "Qurani-Kərim"ə qarşı baş verən nalayiq hərəkətlərin Azərbaycan tərəfindən qətiyyətlə pisləndiyini, bu kimi İslam dinini hədəfləyən addımlardan çəkinmənin vacib olduğunu diqqətə çatdırıb.

# Milli Məclisin Ermənistanın təxribatları ilə bağlı xarici ölkələrin parlamentlərinə müraciəti

**Dünən Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərləri xarici ölkələrin parlamentlərinə müraciət ünvanlayıblar.**

Müraciətdə Azərbaycanın Qarabağ bölgəsində Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi ərazilərdə yaşayan erməni milliyyətli sakinlərin, guya, ərzaq və dərman çatışmazlığı ilə üzləşməsi barədə son dövrdə yayılan məlumatların beynəlxalq ictimaiyyəti çaşdırmağa yönələn, Azərbaycan Respublikasının ərazi bütövlüyünü və suverenliyini hədəf alan siyasi manipulyasiya olduğu bildirilir.

Qeyd olunur ki, Xankəndi şəhərinə və ətraf kəndlərə humanitar yüklərin daşınması üçün Azərbaycanın təklif etdiyi Ağdam-Xankəndi yolunun separatçılar tərəfindən bağlanması bu kampaniyanı başlatmış qüvvələrin həqiqi niyyətlərindən xəbər verir. Bildirilir ki, məqsəd Qarabağın erməni sakinlərinin Azərbaycan cəmiyyətinə yenidən inteqrasiya etməsinin qarşısını almaq və ya bu prosesi mümkün qədər uzatmaqdır.

Müraciətdə vurğulanır ki, Ermənistan rəhbərliyi Qarabağı Azərbaycan ərazisi kimi tanıdığını dəfələrlə bəyan etmişdir, odur ki, etnik ermənilər üçün ərzağın və digər məhsulların Ermənistandan gətirilməsinə zərurət yoxdur. Laçın yolu ilə bağlı vəziyyətə gəlincə, bu yol da Azərbaycanın suveren ərazisinin tərkib hissəsidir və ona görə də Azərbaycan öz ərazisində, öz vətəndaşlarının istifadəsi üçün sərhəd-keçid məntəqəsi təsis etmişdir.

Bildirilir ki, Beynəlxalq Ədalət Məhkəməsinin son qərarında da Azərbaycanın bu hüququ təsbit olunmuşdur. Bunu həzm edə bilməyən Ermənistan tərəfindən Azərbaycan sərhədçisinə atəş açılması, dövlət bayrağımıza qarşı təxribat törədilməsi, Laçın yolundan sui-istifadə hallarının davam etməsi səbəbindən Laçın yolundan istifadəyə məhdudiyyət törədən tərəf məhz Ermənistandır. Ermənistan tərəfi həqiqətən Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirsə, Ağdam-Xankəndi yolundan yüklərin daşınmasına etiraz etməməli və reinteqrasiya prosesinə mane olmamalıdır.

Müraciətin sonunda qeyd olunur ki, şərh edilənlərlə əlaqədar beynəlxalq ictimaiyyət də məsuliyyətli yanaşma nümayiş etdirməli, Ermənistan tərəfinin manipulyasiyalarına aldanmamalı və konstruktiv dialoqa sadiqlik göstərməyin zəruriliyini Ermənistana izah etməlidir.

***"Xalq qəzeti"***

# XİN-in sözçüsü: Azərbaycana qarşı qərəzli çağırışlar Fransanın siyasətinin yanlış olduğunu göstərir

**Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Laçın yolu ilə bağlı 27 iyul tarixli bəyanatında Azərbaycanın Laçın yolunu blokadada saxladığı barədə iddiasını qətiyyətlə rədd edirik.**

Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin həmin bəyanata dair şərhində qeyd olunub.

A.Hacızadə bildirib ki, Azərbaycan tərəfinin sərhəddə nəzarət və şəffaflıq tətbiq etməklə, Laçın yolundan qeyri-qanuni məqsədlərlə istifadənin qarşısının alınması, yoldan sui-istifadə hallarına yol verilməməsi ilə bağlı öhdəliyi və səlahiyyəti mövcuddur.

Bu səylərə baxmayaraq, Ermənistan tərəfi yenə də təxribatlardan əl çəkməyib, buraxılış məntəqəsinə atəş açıb, qaçaqmalçılığa cəhd göstərib və Azərbaycanın icazəsi olmadan əraziyə yük avtomobilləri göndərməyə çalışıb. Azərbaycan tərəfi bu təxribatlara baxmayaraq, yenə də Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə erməni sakinlərin məntəqədən keçidinə şərait yaradıb. Böyük həcmdə yüklərin əraziyə daşınması üçün isə Ağdam-Xankəndi daxil olmaqla alternativ yollar təklif edib.

Bütün bu məsələlər kontekstində, Fransa tərəfinin yenə də Ermənistanın təxribatlarına qarşı susqunluq sərgiləməsi və Azərbaycana qarşı qərəzli şəkildə çağırışlar etməsi Fransa tərəfindən həyata keçirilən siyasətin yanlış olduğunu nümayiş etdirir.

# Sosial müdafiəyə xüsusi ehtiyacı olan bir sıra şəxslərin təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi mexanizminin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 mart tarixli 347 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 mart tarixli 347 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 292; 2016, № 7, maddə 1297; 2019, № 3, maddə 443; 2020, № 8, maddə 1065) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adına "uşaqlarının" sözündən sonra ", həmçinin Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslərin" sözləri əlavə edilsin;

1.2. 1-ci hissədən ", Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın və həmin hissədə "2010-cu il 25 iyun tarixli 120 nömrəli qərarı ilə təsdiq edilmiş" sözləri "təsdiq etdiyi" sözləri ilə əvəz edilsin;

1.3. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) təhsil səviyyələrində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslərin təhsil müddəti ərzində təhsil haqqı 2023/2024-cü tədris ilindən etibarən Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi təhsil xərcləri miqdarında dövlət büdcəsi vəsaiti hesabına ödənilsin.".

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti sosial müdafiəyə xüsusi ehtiyacı olan bir sıra şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi ilə əlaqədar normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**3.** Bu Sərəncam 2023-cü il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 iyul 2023-cü il**

# XIII Qəbələ Beynəlxalq Musiqi Festivalının açılış mərasimi





**Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən XIII Qəbələ Beynəlxalq Musiqi Festivalının iyulun 27-də təntənəli açılış mərasimi olub.Əvvəlcə ölkəmizdə musiqi mədəniyyətinin inkişafında və təbliğində müstəsna xidmətləri olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın festival iştirakçılarına təbrik məktubu oxunub. Məktubda deyilir:**

*"Hörmətli festival iştirakçıları!*

*Xanımlar və cənablar!*

*Sizi – XIII Qəbələ Beynəlxalq Musiqi Festivalının bütün iştirakçılarını və qonaqlarını ürəkdən salamlayır, festivalın işinə uğurlar diləyir, hər birinizə ən xoş arzularımı çatdırıram.*

*Əsrlər boyu mədəniyyətlərarası dialoqun inkişafına öz töhfəsini verən Azərbaycan tarixən müxtəlif millətlərin mədəniyyət və incəsənətinin qarşılıqlı zənginləşməsinə, xalqlar arasında olan birliyin daha da gücləndirilməsinə səy göstərib.*

*Zəngin mədəni-mənəvi irsə, çoxəsrlik tolerantlıq ənənələrinə malik olan və fərqli sivilizasiyaların qovşağında yerləşən ölkəmizdə son illər keçirilən beynəlxalq əhəmiyyətli tədbirlər Azərbaycanın təməl prinsiplərinin sülh və humanizm olduğunu bir daha sübut edərək dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün xalqların nümayəndələrini bir araya toplayır. Vətən müharibəsində qazandığımız şanlı Zəfərdən sonra Qarabağın tacı olan Şuşa şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı əsasında keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, yaxın günlərdə baş tutmuş ənənəvi Beynəlxalq Muğam Festivalı kimi möhtəşəm tədbirlər bunun bariz nümunəsidir. Dünyanın bir çox ölkəsindən çoxsaylı musiqiçilərin iştirak etdiyi bu dostluq və musiqi bayramları mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması ilə yanaşı, müxtəlif ölkələri təmsil edən musiqiçilərə ünsiyyət və əməkdaşlıq üçün geniş imkanlar açır.*

*Mədəni-mənəvi inteqrasiyanın səmərəliliyini artıran belə layihələr bizim üçün çox dəyərlidir. Bu baxımdan, 2009-cu ildən etibarən təşkil olunan Qəbələ Beynəlxalq Musiqi Festivalı da əvəzedilməz rola malikdir. Klassik musiqi vurğunu olan hər bir insanın səbirsizliklə gözlədiyi Qəbələ Beynəlxalq Musiqi Festivalı həm də yeni istedadların aşkar edilməsinə, bu sahədə bilik və tədqiqatların mübadiləsinə xidmət edir. Biz bu festivalı mədəniyyətlərarası dialoqun genişləndirilməsinə, xalqlararası dostluq münasibətlərinin daha da möhkəmlənməsinə verilən böyük bir töhfə kimi dəyərləndiririk. Əminəm ki, XIII Qəbələ Beynəlxalq Musiqi Festivalı qonaqlarımızın yaddaşında və Azərbaycan musiqi mədəniyyəti tarixində mənalı səhifələrdən biri kimi qalacaqdır.*

*Festivalda iştirak edən hər kəsə cansağlığı, bütün yaradıcı insanlara tükənməz nailiyyətlər arzulayıram".*

Açılış mərasimində Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli çıxış edərək ölkəmizdə ənənəvi olaraq təşkil edilən Qəbələ Beynəlxalq Musiqi Festivalının mədəniyyətimiz üçün əlamətdar hadisə olduğunu qeyd edib. Xalq artisti çıxışında builki festivalın Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr edildiyini vurğulayaraq, bu yubileyin ölkəmizin ictimai-siyasi və mədəni həyatında çox böyük hadisə olduğunu bildirib.

Sonra XIII Qəbələ Beynəlxalq Musiqi Festivalı açıq elan olunub.

Azərbaycanın Xalq artistləri Fərhad Bədəlbəyli və Murad Adıgözəlzadənin bədii rəhbərliyi ilə təşkil olunan XIII Qəbələ Beynəlxalq Musiqi Festivalının təntənəli açılışı "Viva Opera" adlı konsertlə başlayıb. Açılış konsertində Əməkdar artist Əyyub Quliyevin və Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə solistlər - Xalq artistləri Dinarə Əliyeva, Əvəz Abdullayev, Samir Cəfərov, Yusif Eyvazov və Əməkdar artist Səbinə Əsədova çıxış ediblər.

Budəfəki Qəbələ Beynəlxalq Musiqi Festivalında Azərbaycanla yanaşı, Böyük Britaniya, Estoniya, Litva, Polşa, Rusiya və Türkiyədən dünyaşöhrətli musiqiçilər – ifaçı və dirijorlar, musiqi kollektivləri iştirak edirlər.

# Özbəkistanın Baş naziri azərbaycanlı həmkarını ölkəsinə rəsmi səfərə dəvət edib

**İyulun 18-19-da ölkəmizdə rəsmi səfərdə olan Özbəkistanın Baş naziri Abdulla Aripov səfərinin nəticələri ilə bağlı Azərbaycanın Baş naziri Əli Əsədova məktub ünvanlayıb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən verilən məlumata görə, məktubda qeyd edilir ki, səfər zamanı Özbəkistan nümayəndə heyəti uğurla həyata keçirilən dəyişikliklər sayəsində Azərbaycan Respublikasının bütün sahələrdə inkişaf etdiyinin şahidi olub.

Prezident İlham Əliyevlə keçirilən görüş zamanı iki ölkə arasında mövcud olan dostluğun və qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi və daha yüksək səviyyəyə çatdırılması ilə bağlı Azərbaycan və Özbəkistan liderlərinin yüksək əzmkarlığının hiss olunduğu vurğulanıb.

Bildirilib ki, Bakı şəhərində yüksək səviyyədə təşkil olunmuş tədbirlər, gündəlikdə duran aktual məsələlər, aparılmış açıq və səmimi danışıqlar Azərbaycanla Özbəkistan arasında çoxplanlı qarşılıqlı faydalı strateji tərəfdaşlıq münasibətlərinin gələcək inkişafına xidmət edəcək.

Nəqliyyat və logistika, energetika, sənaye kooperasiyası, kənd təsərrüfatı, mədəni-humanitar əməkdaşlıq və digər sahələrdə əldə edilmiş razılıqların iki qardaş xalqın rifahı naminə ardıcıl həyata keçiriləcəyinə əminlik ifadə olunub.

Səfər çərçivəsində Füzuli şəhərində aparılan tikinti işləri ilə də tanış olduqlarını qeyd edən Özbəkistanın Baş naziri bu şəhərin yaxın illərdə Azərbaycanın ən maraqlı və gözəl yerlərindən birinə çevriləcəyini bildirib.

A.Aripov, həmçinin Azərbaycanın Baş nazirini Özbəkistana rəsmi səfərə dəvət edib.

***"Xalq qəzeti"***

# Azərbaycanın energetika sistemi yüksəliş yolunda

*(əvvəli 1-ci səhifədə)*

Əlbəttə, belə bir vəziyyət uzun müddət davam edə bilməzdi. Əks təqdirdə, böyük həcmdə enerji istehsal edən "Şimal-1" və "Şimal-2" elektrik stansiyaları tezliklə sıradan çıxa, fəaliyyətlərini dayandıra bilərdi. Ona görə də "AzərEnerji" ASC tərəfindən Xəzər dənizinin içərisinə doğru soyuq suyun 8 metr dərinlikdən götürülməsinə imkan verən 540 metr uzunluğunda estakada və 2 yerdə su nasos stansiyası tikilib. Estakadanın möhkəmliyini təmin etmək məqsədilə hər birinin uzunluğu 30 metr olan min ədəd dəmir boru svay 20 metr dənizin dibinə vurularaq betonlanıb.

Stansiyalar istismara hazırlanarkən ən müasir texnoloji avadanlıqlardan istifadə edilib, SCADA və "PLC" sistemləri quraşdırıldı. Nasosların məsafədən işə qoşulması və açılması idarəetmə mərkəzinə inteqrasiya olunub. Burada reallaşdırılan layihələr sırasında "Şimal" Kiçik Su Elektrik Stansiyasının modenləşdirilməsi xüsusilə diqqət çəkir. Belə ki, adıçəkilən stansiyanın ərazisində "AzərEnerji" ASC tərəfindən daha bir yenilik edilərək, istifadə olunub dənizə axıdılan soyutma suyunun üzərində 300 kVt-lıq kiçik su elektrik stansiyası tikilib.

Yeri gəlmişkən, bu stansiya vasitəsilə il ərzində 2,5 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal ediləcək ki, bu da "Şimal-1" və "Şimal-2" elektrik stansiyalarının təsərrüfat ehtiyaclarını ödəməklə daxili tələbatına sərf olunacaq. Nəticədə indiyədək "Şimal" Elektrik Stansiyasının daxili tələbatına sərf olunan elektrik enerjisi qənaət edilərək ümumi sistemə ötürüləcək. "Şimal" Elektrik Stansiyasının yeni estakadasının, su-nasos stansiyalarının və "Şimal" Kiçik Su Elektrik Stansiyasının yüksək səviyyədə qurulması dövlətimizin başçısının ölkəmizin elektroenergetika sisteminə daim diqqət və qayğı göstərməsinin parlaq ifadəsidir.

Xatırladaq ki, Prezident İlham Əliyev respublikamıza rəhbərlik etdiyi ötən müddətdə bu sahədə genişmiqyaslı layihələr gerçəkləşdirilib, yenidənqurma, tikinti işləri geniş vüsət alıb. Ölkə rəhbərinin tapşırığı ilə hazırlanan Reabilitasiya Proqramı çərçivəsində energetika sistemi əsaslı şəkildə modernləşdirilib, "itirilmiş" generasiya gücləri bərpa edilib. Dövlətimizin başçısının 25 oktyabr 2022-ci il tarixli "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlərin həyata keçirilməsi haqqında" sərəncamı da ölkənin elektrik enerjisi ilə fasiləsiz təminatını daha da gücləndirmək, təhlükəsizliyin maksimal səviyyədə əldə olunmasını şərtləndirmək baxımından mühüm önəm daşıyır.

Bu sənəddə respublikamızın enerji dayanıqlığının təmin olunması, əlavə generasiya güclərinin yaradılması, enerji tələbatının qarşılanması, ixrac imkanlarının artırılması, ətraf mühitin qorunması, elektrik enerjisinin istehsalında təbii qaza qənaət edilməsi, iqlim dəyişiklikləri ilə bağlı baş verən kataklizmlərin qarşısının alınması və regionda yeni iş yerlərinin açılması baxımından xüsusi əhəmiyyətə malik olduğu bir daha diqqətə çatdırılıb.

Bütün bunlar isə Azərbaycanın energetika sisteminin inkişafında yeni bir mərhələnin başlandığını göstərir. Bu mərhələdə əsas diqqət ölkəmizin energetika sisteminin gələcək fəaliyyətinə yönəldilir. Eyni zamanda, bu gün istifadəyə verilən energetika obyektləri Azərbaycanın enerji potensialını böyük dərəcədə gücləndirir.

***Vaqif BİNYATOĞLU,***
***"Xalq qəzeti"***

# Ermənistanın "tır aksiyası", yaxud sülhün üstünə "maşın sürmək"

## *Nikol Paşinyanın yeni siyasi şousu İrəvanın son çırpıntılarıdır*



**(əvvəli 1-ci səhifədə)**

Bəs, bunu gözləmək olardımı? Bəli, proseslər indiki vəziyyətə doğru gedirdi. İrəvanın həmin görüşlərə tam sayğısız yanaşacağı, yeni təxribatlara əl atacağı proqnozlaşdırılırdı.

Adətən, təxribat məqsədilə silahdan yararlanan Ermənistanın siyasi rəhbəriyi bu dəfə "metodunu" dəyişmiş kimi görünür. Yəqin, silahın fayda verməyəcəyini anlayır. Axı 44 günlük müharibədən sonra Azərbaycana qarşı hər şeyi sınaqdan çıxarıb və hər dəfə, necə deyərlər, oxu daşa dəyib. Yenə eyni aqibətə məhkumdur...

Ancaq nəinki Ermənistan hakimiyyətinin, eləcə də dünya erməniliyinin anlamadığı çox şey var. İndi məsələyə qayıtmaq mənasız və lüzumsuzdur. Onsuz da 44 günlük müharibədən sonra ermənilər və havadarları başlarını itiriblər. Əslində, Qarabağ ermənilərinə humanitar yardım kimi Laçın-Xankəndi yolunun başlanğıcındakı Həkəri sərhəd-nəzarət buraxılış məntəqəsinə tonlarla yükün göndərilməsi ideyası da məhz şizoferiyanın nəticəsidir.

Ermənistan baş naziri Nikol Paşinyanın sosial şəbəkə hesabında yazdıqlarından belə anlaşılır ki, ağılsızlıq etməkdən başqa çarəsi yox imiş. Doğrudur, o, məsələyə pafos qataraq, Qarabağ ermənilərinə dəstəyi, bir növ, "qayğıkeş ata" payı hesab edir. Hər bir halda, durum dəyişmir. Nikol və komandası Azərbaycanın maraq və mənafelərinin əleyhinə gedir və belə demək mümkünsə, daraqdakı son gülədən də istifadə edir. Bundan sonrası yoxdur. Daha doğrusu, var – növbəti müharibə.

Sual yaranır: Ermənistan nəyə nail olmaq istəyir? Birincisi, humanitar yardım şousu, yaxud sərhəddəki "tır aksiyası" dünyaya Qarabağda, guya dərin humanitar böhranın yaşandığını göstərmək və buna görə Azərbaycanı qınamaq istəyidir. İrəvan beynəlxalq ictimaiyyətin ölkəmizə qarşı çıxmasına çalışır. Çalışır ki, Azərbaycanın nüfuzu zədələnsin, respublikamız qəddar obrazında təqdim olunsun, xarici aləm ayağa qalxaraq, Ermənistana dəstək göstərsin və beləliklə, 44 günlük müharibədən sonra formalaşmış reallıqlar ikinci plana keçsin. İrəvan yaranacaq qarmaqarışıqlığı fürsət bilib öz gündəmini diktə etmək şansı qazanmaq niyyətindədir.

Bəli, aydın görünür ki, Ermənistan rəhbərliyi tərəfindən Qarabağa humanitar yardım karvanının göndərilməsi siyasi motivli aksiyadır. Həmin motivin isə bilavasitə daha qabarıq görünən bir seqmenti var – Azərbaycanla danışıqlar. İrəvan yenə də danışıqlar prosesinə yeni ab-hava gətirmək məqsədinə köklənib. Yəni, Ermənistanın bu qədər primitiv hesablanması var.

Baş nazir Nikol Paşinyanın administrasiyası danışıqlar prosesinin bütün mərhələlərində uduza-uduza gedir. İyulun 15-də keçirilmiş sonuncu Brüssel raundu da tam fiasko oldu. Məhz həmin görüşdə vasitəçi qismində çıxış edən Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Qarabağın erməni əhalisinə yardımların Ağdam-Əsgəran yolu vasitəsilə çatdırılmasını da məqbul qiymətləndirdiyini dilə gətirdi. Ş.Mişelin bu bəyanatı Ermənistan siyasi dairələrində və Qarabağ rejimində böyük səs-küy doğurmuş və görüşün ertəsi günü bölgədəki separatçılar Rusiyanın adamı sayılan Ruben Vardanyanın "təşkilatçılığı" ilə Ağdam-Əsgəran yolunu kəsmişlər. Öz aləmlərində prinsipiallıq nümayiş etdirdiklərini düşünən Ruben və onun başıpozuq çevrəsi, ölkəmizin erməni əhalisinə sahiblənməsinə yol vermədiyini göstərdi. İndi isə "inad" Laçındakı sərhəd nəzarət-buraxılış məntəqəsi müstəvisində gerçəkləşdirilməkdədir.

Yəni, Azərbaycana iki tərəfdən basqı var – bir yandan Ağdam-Əsgəran yolu bağlanır və Bakının Qarabağ ermənilərinə yardım məntiqinin sıradan çıxarılmasına cəhd göstərilir, digər istiqamətdən Laçındakı şərti sərhədə humanitar yardım göndərilir. Bilə-bilə ki, ölkəmiz onun keçidinə imkan verməyəcək. Prosesin bilavasitə Ermənistan iqtidarı tərəfindən idarə olunduğunu diqqətə çatdırmışkən, onu da vurğulayaq ki, İrəvanın hazırkı davranışı Azərbaycan-Ermənistan nizamlamasının Qərb vasitəçiliyinə qarşı çıxmaqdır.

Əvvəldə Azərbaycan və Ermənistan XİN rəhbərlərinin iyulun 25-də Moskvada düzənlənmiş görüşünü əbəs yerə xatırlatmadıq. Həmin görüşün gərgin məcrada keçdiyi istər C.Bayramovun, istərsə də A.Mirzoyanın fikirlərindən aydın görünürdü. Hazırda Ermənistan rəhbərliyinin, belə demək mümkünsə, "tır aksiyası" da həmin gərginliyin davamıdır. İrəvan bununla göstərmək istəyir ki, Moskvanın vasitəçiliyini də qəbul etmir. Daha doğusu, Ermənistan rəhbərliyi 30 ilə yaxın müddətdə Azərbaycanla danışıqlar prosesindəki həyasızlığını yenidən təkrarlamaq yolunu tutur. Həm Qərbə, həm də Rusiyaya qarşı çıxmaq görüntüsü formalaşdırır. Hərçənd, ikinci ilə bağlı qarşıçıxmada müəyyən məqamların altından qırmızı xətt çəkmək ehtiyacının olduğunu unutmamalıyıq...

Unutmamaq üçün deyək ki, əslində, Rusiya da Azərbaycanın Qarabağa sahiblənməsini istəmir. Bunu ölkənin XİN rəhbərinin istər haqqında söz açdığımız axırıncı üçtərəfli görüşündən əvvəlki, istər sonrakı, istərsə də ötən müddətdəki bir çox açıqlamalarından tam aşkar görmək mümkündür. Kreml Azərbaycan, Rusiya və Ermənistan liderlərinin üçtərəfli bəyanatı məntiqinə söykənir və çalışır ki, Bakı ilə İrəvan arasında mövcud status-kvo saxlanılsın və beləcə özünün Cənubi Qafqazdakı mövcudluğu davamlı xarakter daşısın.

Rusiyaya iki Cənubi Qafqaz ölkəsi arasında sülh müqaviləsinin imzalanması lazım deyil və Lavrov müxtəlif arqumentlər gətirirək, faktiki olaraq ölkəsinin mövqeyini ortaya qoymaqla məşğuldur. Müvafiq olaraq Moskvaya Cənubi Qafqazda gərginliyin qalması sərfəlidir. Ermənistan üçün isə sərfəli olan Azərbaycanın Qarabağa tam sahiblənməsinin qarşısının kəsilməsidirsə, bu qənaətə gəlirik ki, Paşinyan admistrasiyasına haqsız dirənişi aşılayan həm də Rusiyanın mövqeyidir. Dirənişə ictimai-siyasi anlam qazandırmağa gəlincə, Qərbin bəzi dairələrinin rolunu vurğulamağa ehtiyac var. Diqqət yetirək, Aİ təmsilçiləri "tır aksiyası"nın monitorinqinə yığışıblar. Söhbət qurumun Ermənistan ərazisindəki və indiyədək heç bir aktivliyi olmayan mülki müşahidə missiyasından gedir. O missiyadan ki, onun ilhamvericisi qismində çıxış edən Fransadır.

Baxın, hazırda elə bir vəziyyət yaranıb ki, Rusiyaya Cənubi Qafqazda Qərbin ermənipərəstliyi lazımdır. Daha doğrusu, indiki məqamda ermənipərəstliyin nümayişi baxımından Qərbin və Rusiyanın maraqları uzlaşmaqdadır. Əlbəttə, Qərb dedikdə daha çox Fransanı nəzərdə tutmaq lazımdır. Deməli, Rusiyanın və Fransanın mənafelərinin uzlaşdığına dair dünyanın bir sıra media orqanlarında yayımlanmış fikirlər təsdiqini tapmaqdadır və Fransa Prezidenti Emmanuel Makronun Rusiya Prezidenti Vladimir Putinə yarındığına görə qınanması heç də əbəs yerə deyil...

Bəli, Ermənistan Azərbaycanla sülh prosesinin pozulmaqda maraqlı olduğunu bir daha göstərməkdədir. Belə durumda ölkəmiz nə etməlidir? Əlbəttə, rəsmilərimiz "tır aksiyasına" münasibətlərini bildirdilər və Bakının belə təzyiqlər qarşısında geri addım atmayacağını vurğuladılar. Həqiqətən də hazırkı durumda geri addımın atılması yolverilməzdir. Əgər Qarabağa yardım göstərmək üçün yola düzəlmiş tırlardan hansısa biri Həkəri çayındakı sərhəddən keçsə, bu, Azərbaycanın öz ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığı ilə bağlı səsləndirdiyi bəyanatlarının əhəmiyyətini itirəcəkdir.

Bəli, hazırda Laçın sərhəd buraxılış məntəqəsindən erməni tırının keçməsi ilə erməni tankının keçməsi arasında heç bir fərq yoxdur. Əlbəttə, tankın qabağını almaq daha asandır, nəinki tırın. Ancaq ölkəmiz bütün çətinlikləri yendiyi kimi, bu çətinliyə də sinə gərəcəkdir. Buna heç kəsin şübhəsi olmamalıdır və 44 günlük müharibədən sonra qazandığımız siyasi və diplomatik uğurlar da sözümüzün təsdiqidir.

Müharibədən söz düşmüşkən, Ermənistan son təxribatı ilə göstərir ki, onunla mübarizə aparmağın yeganə yolu müharibədir. Ölkə buna doğru addım-addım getdiyinin fərqində olmaya, müxtəlif siyasi şıltaqlıqlara baş vura bilər. Necə ki, indi də eyni yolu tutmaqdadır. Amma ölkə unutmamalıdır ki, siyasətin sərt sifəti var. Onu da unutmamalıdır ki, gücün qarşısında hiyləgərlik eləmək ona xeyir gətirməyəcək.

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# Diplomatik korpus bölgədəki vəziyyətlə bağlı məlumatlandırılıb




**(əvvəli 1-ci səhifədə)**

İlk gündən bu mövqeyin hər kəsə aydın olduğu və prosesin üç istiqaməti, yəni, sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və regional kommunikasiyaların açılması istiqamətində həll yollarının danışıqlar masasında olduğu bildirilib. Bu gün Azərbaycanın sülh niyyətinin ən aydın təzahürünün tərəfimizdən işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, habelə iki ölkənin sərhədinə yaxın ərazilərdə tikilən hava limanlarının olduğu qeyd edilib. Bunun qarşılığında isə Ermənistanın erməni əsilli sakinlərin yaşadığı ərazilərimizdə hərbi təxribatlar törətməsinin, radiodalğalar ilə hava limanları vasitəsilə uçuşların həyata keçirilməsinə maneçilik törətməsinin bu ölkənin əsl niyyətini bəlli etdiyi diqqətə çatdırılıb.

Sülh gündəliyi ilə bağlı Azərbaycan tərəfindən sərgilənən aydın mövqeyə baxmayaraq, Ermənistan tərəfindən heç bir beynəlxalq hüquq normasına və məntiqə sığmayan, əsası olmayan tələblərin irəli sürülməsi, Azərbaycanın daxili işlərinə müdaxilə cəhdlərinin edilməsinin qəbuledilməz olduğu bildirilib. Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan tərəfindən rəsmi şəkildə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tanınması ilə bağlı bəyanatın verilməsinə baxmayaraq, əməldə Ermənistan tərəfindən atılan addımların birbaşa ərazi bütövlüyümüzə və suverenliyimizə qarşı olduğu, ölkəmizin daxili işlərinə qarışmaq cəhdləri ilə müşayiət olunduğu diqqətə çatdırılıb. Bu xüsusda, atılan addımların normallaşma və sülh prosesini ləngitməyə, yeni böhranlar və sülhə xidmət etməyən müzakirələr yaratmağa hesablandığı və bu baxımdan sülhə deyil, Ermənistanın təhlükəli məqsədləri və gündəliyinə xidmət etdiyi bildirilib.



Laçın yolu ilə bağlı vəziyyətdən bəhs edən nazir müavini, hər şeydən əvvəl bu yolun da Azərbaycanın suveren ərazisinin tərkib hissəsi olduğunu vurğulayıb və bu xüsusda, Azərbaycanın öz ərazisində, öz vətəndaşlarının istifadəsi üçün sərhəd-keçid məntəqəsi təsis etdiyini bildirib. Beynəlxalq Ədalət Məhkəməsinin son qərarında da bu hüququn təsbit olunduğu diqqətə çatdırılıb. Bunu həzm edə bilməyən Ermənistan tərəfindən isə Azərbaycan sərhədçisinə atəş açıldığı, dövlət bayrağımıza qarşı təxribat törədildiyi, Laçın yolundan sui-istifadə hallarının davam etdirildiyi vurğulanaraq, Laçın yolundan istifadəyə məhdudiyyət törədən tərəfin Ermənistan olduğu diqqətə çatdırılıb. Azərbaycan tərəfindən tibbi məqsədlər ilə əlaqədar yoldan erməni sakinlərin istifadəsi üçün şərait yaradıldığı, daha çox məhsulların tədarükü üçün isə onların cəmiyyətimizə reinteqrasiyasına töhfə verə biləcək Ağdam-Xankəndi yolundan istifadənin təklif olunduğunu diqqətə çatdırıb.

Ermənistan tərəfinin isə bir tərəfdən yerli erməni əhalinin bu imkanlardan istifadəsinin qarşısını aldığı, digər tərəfdən isə "humanitar yardım" adı ilə nümayişkaranə şəkildə daxili işlərimizə müdaxilə etdiyi, yaradılan şoularla beynəlxalq ictimaiyyəti yanlış yönləndirdiyi bildirilib. Vurğulanıb ki, Ermənistan tərəfi həqiqətən Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirsə, Ağdam-Xankəndi yolundan yüklərin daşınmasına etiraz etməməli və reinteqrasiya prosesinə maneçilik törətməməlidir.

Bu xüsusda, beynəlxalq ictimaiyyətin məsuliyyətinin vacibliyini qeyd edən nazir müavini Ermənistan tərəfinin manipulyasiyalarına aldanıb bəyanatlar verməzdən öncə, sözügedən bəyanatların nəyə xidmət edəcəyinin düşünülməli olduğunu, habelə suverenlik və ərazi bütövlüyümüzə zidd addımlardan, o cümlədən yanlış terminologiyadan çəkinilməsinin vacibliyini vurğulayıb.

Sülh danışıqlarının təşkilində dəstək göstərən ölkələrə təşəkkür ifadə olunub, habelə beynəlxalq ictimaiyyət tərəfindən Ermənistana konstruktiv dialoqa sadiqlik göstərilməsinin izah olunmasının əhəmiyyəti qeyd edilib.

Daha sonra brifinq sual-cavabla davam edib.

***"Xalq qəzeti"***

**Ötən ilin dekabr ayından etibarən Ermənistanın qeyri-qanuni fəaliyyətinə qarşı etiraz aksiyalarına baxmayaraq, gün ərzində Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) daxil olmaqla, yüzlərlə nəqliyyat vasitəsinin Laçın yolundan keçidi təmin edilib. Azərbaycan tərəfindən "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin təsis edilməsindən sonra da gün ərzində məntəqədən tənzimlənən və şəffaf qaydada hər iki istiqamətə keçid təşkil olunub.**

# XİN: Qeyri-qanuni fəaliyyətlərin qarşısı qətiyyətlə alınacaq

Bu sözləri Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Ayxan Hacızadə Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borelin 26 iyul tarixli bəyanatına münasibət bildirərkən söyləyib.

"İyunun 15-də "Laçın" buraxılış məntəqəsinə qarşı silahlı hücuma, qaçaqmalçılıq cəhdlərinə, eləcə də iyulun 26-da "humanitar yük" adı altında avtomobil karvanının göndərilməsi təxribatına baxmayaraq, Azərbaycan tərəfi bölgədə fəaliyyət göstərən BQXK ilə əməkdaşlığını davam etdirərək erməni sakinlərin tibbi məqsədlə keçidini təşkil edib, BQXK vasitəsilə tibbi yüklərin gətirilməsinə imkan yaradıb.

Daha böyük yüklərin Azərbaycan ərazisinə gətirilməsinə gəldikdə, Ermənistandan irəli gələn təhdidlər nəzərə alınmaqla, Ağdam-Xankəndi və digər alternativ yollardan istifadə olunması təklifi ilə çıxış edib.

Bu təklifin Avropa İttifaqı, BQXK daxil olmaqla, beynəlxalq tərəfdaşlar tərəfindən müsbət qarşılanmasına baxmayaraq, Ermənistan tərəfinin və özlərini yerli erməni sakinlərin nümayəndələri kimi təqdim edən şəxslərin buna mane olması, yolları bağlayaraq yüklərin daşınmasının qarşısını alması, "gərgin humanitar vəziyyət" barədə spekulyasiyaların siyasi manipulyasiyadan başqa bir şey olmadığını sübut edir", - deyə o bildirib.

Mətbuat katibi vurğulayıb ki, Azərbaycan beynəlxalq öhdəliklərinə sadiq olmaqla yanaşı, öz ərazisində qeyri-qanuni fəaliyyətlərə legitimlik qazandırılması cəhdlərinin qarşısını qətiyyətlə alacaq.

***"Xalq qəzeti"***

# "Laçın" dövlət sərhəd-buraxılış məntəqəsindən 34 erməni keçib

**Qarabağın erməni əhalisinin Azərbaycan-Ermənistan sərhədində fəaliyyət göstərən "Laçın" dövlət sərhədində buraxılış məntəqəsindən Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) vasitəçiliyi ilə Xankəndiyə sərbəst keçidinə növbəti dəfə şərait yaradılıb.**



Ermənistandan Xankəndi istiqamətinə hərəkət edən 7 nəqliyyat vasitəsi və 30 şəxs buraxılış məntəqəsində qaydalara uyğun olaraq yoxlanıldıqdan sonra yollarına davam edib.

Qeyd edək ki, Xankəndiyə keçidi təmin edilən 30 nəfərdən 10-u BQXK-nın üzvü, 14-ü Ermənistandan tibbi müalicədən qayıdan erməni sakin, 5-i onları müşayiət edən ailə üzvləri, həmçinin 1-i tibbi personalın əməkdaşıdır. Bu da onu göstərir ki, dövlət sərhədindən buraxılış məntəqəsində Azərbaycan tərəfindən hər hansı maneə yoxdur. Təkcə bu gün "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsindən hər iki istiqamətə erməni vətəndaşların sərbəst keçidi təmin olunub.

Son günlər Ermənistanın sərhəddə yol verdiyi əməllər birbaşa siyasi şou, manipulyasiya və təxribat xarakteri daşıyır.

***"Xalq qəzeti"***

# Heykəli yandıran bir gün körpülərə də od vuracaq

## Haylarla bir cəbhədə yer alan Fransa, İran və Hindistanın Azərbaycana qarşı düşmənçilik siyasəti bütün çılpaqlığı ilə ortadadır

**(əvvəli 1-ci səhifədə)**

### Dehli beynəlxalq hüquqa hörmət etməlidir

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Hindistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sridharan Madhusudhanan ilə məhz bu məqsədlə görüşdü. Həmin görüşdə H.Hacıyev səfirin diqqətinə Ermənistanla Hindistan arasında hərbi əməkdaşlığın dərinləşməsi və bu xüsusda son günlər mediada Hindistan istehsalı olan silah sistemlərinin İran vasitəsilə Ermənistana daşınması barədə foto və videoların yayılmasının Azərbaycan tərəfində narahatlıq doğurduğunu çatdırıb. Şöbə müdiri vurğulayıb ki, Azərbaycanın Ermənistanla sülh sazişi üzrə danışıqlar apardığı bir vaxtda Hindistanın bu ölkəyə öldürücü silahlar tədarük etməsi Ermənistanın militarizasiyasına və vəziyyətin gərginləşməsinə yol açır, bu isə Cənubi Qafqazda davamlı sülhün və təhlükəsizliyin bərqərar olmasına maneələr törədir. Bu, həm də Hindistanın bəyan etdiyi beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan xarici siyasəti, eləcə də bu ölkənin də təmsil olunduğu Qoşulmama Hərəkatının tarixi "Bandunq prinsipləri" ilə uyğun gəlmir. Görüş zamanı H.Hacıyev Hindistan səfirinə Azərbaycan tərəfinin ciddi narahatlığının rəsmi Dehlinin diqqətinə çatdırmağı və Hindistanı Ermənistana öldürücü silahların tədarükü ilə bağlı qərarını bir daha nəzərdən keçirməyin vacibliyini bildirib.

Hayastan–Hindistan ortaqlığının Bakı üçün narahatlıq yaradan tərəfi son illər Dehlinin Ermənistanla hərbi sahədə əməkdaşlığı daha da genişləndirməsidir. Heç kimə sirr deyil ki, Hindistanın ölkəmizə qarşı qeyri-səmimi, ikiüzlü münasibətinin əsas səbəbi Azərbaycan-Pakistan münasibətləri, iki qardaş ölkə arasında hərbi sahədə əməkdaşlığın güclənməsidir. Bu barədə İrəvanın Hindistandakı keçmiş səfiri Armen Barburtyanın fikirləri olduqca maraqlıdır: "Pakistan və Azərbaycan arasında xüsusilə hərbi sahədə qarşılıqlı fəaliyyət və əməkdaşlıq Hindistanın Ermənistanla münasibətləri inkişaf etdirmək istəyinə öz təsirini göstərir".

### Kəşmir məsələsi Bakı üçün qırmızı xətdir

Yeri gəlmişkən, Dehlinin İrəvanla şübhəli hərbi əməkdaşlığı ilə bağlı ilk xəbərdarlığı 2023-cü il mayın 19-da Sridharan Madhusudhananın səfir etimadnaməsini qəbul edərkən Azərbaycan Prezidenti İlham Əliyev etmişdi: "Bu gün Ermənistanda revanşist qüvvələr baş qaldırmaqdadır, ölkəmizə qarşı ərazi iddiaları davam edir. Ermənistanın sürətlə silahlanması yeni təhlükələr yaradır. Əgər, doğrudan da, Ermənistan Azərbaycan ilə sülh istəyirsə, onda nə üçün Hindistandan 100 milyonlarla dollar dəyərində silah alır? Bu siyasət bölgə üçün yeni təhdidlərə gətirib çıxara bilər".

Aydın məsələdir ki, Azərbaycan və Pakistan arasındakı şəffaf və qarşılıqlı etimada söykənən münasibətlər "hay-hind tandemi" üçün bir bəhanədir. Əgər Hindistanın Bakıdan narazılığının təməlində, doğrudan da, bu məsələ dayansaydı, bu ölkənin təhlükəsizliyinə təhdid hesab edilə biləcək məsələlər



çoxdan özünün həll yollarını tapmışdı. Rəsmi Dehlinin Cənubi Qafqazda ermənilərlə əməkdaşlığa üstünlük verməsinin əsas səbəbi İslamabadı Kəşmir məsələsində güzəştə getməyə məcbur etməkdir. Fəqət bu münaqişə Pakistandan ötrü ölüm-dirim məsələsidir və onun hansı formada çözülməsindən asılı olmayaraq, İslamabad-Bakı münasibətlərinə elə bir ciddi təsirinin olmayacağını düşünürük.

Hərbi əməkdaşlıqla yanaşı, Dehlini İrəvanla çoxvektorlu ticarət münasibətləri də bağlayır. 2023-cü il martın əvvəlində Ermənistan XİN-in başçısı A.Mirzoyan Hindistan mallarının Rusiyaya və Qara dəniz vasitəsilə Avropa ölkələrinə tranzit yolunu qısaldacaq ticarət dəhlizinin verilməsinin mümkünlüyündən danışmışdı. Hayastanın baş diplomatı Dehliyə faktiki olaraq "İran körfəzi – Qara dəniz" layihəsinə qoşulmağı təklif etmişdi. Yəni, buradan göründüyü kimi, Mirzoyanın dediyi planın ideoloqu Tehrandır və onun siyasi iradəsi və razılığı olmadan bu layihə heç cür reallaşa bilməz.

### İrəvan istənilən an Dehliyə xəyanət edə bilər

Hindistan hökuməti Hayastanın hərbi və siyasi cəhətdən güclənməsinin ona əlavə dividendlər qazandırmayacağının fərqindədir. Xatırladaq ki, hələ 2020-ci ilin yazında, Ermənistan Azərbaycanla müharibəyə "hazırlaşdığı" üçün Hindistandan dörd yerüstü radar sistemini satın almaq qərarına gəlmişdi. Bu məqsədlə iki ölkə arasında dəyəri 40 milyon dollardan çox olan müqavilə də imzalanmışdı. Əslində Dehlinin bu addımı atmaqda əsas məqsədi Bakını və İslamabadı qıcıqlandırmaq idi. Bölgədə və beynəlxalq arenada düçar olduğu saysız-hesabsız uğursuzluqlara baxmayaraq, Ermənistan yenə Hindistanla hərbi əməkdaşlı genişləndirməkdədir. Şübhə yoxdur ki, bu iki ölkə arasında güclənən hərbi əməkdaşlıq Cənubi Qafqazda gözlənilən sülhə birbaşa təhdid deməkdir. Azərbaycanın moderatorluq etdiyi əksər beynəlxalq layihələrdə Hindistana qarşı münasibəti heç də birmənalı olmayıb. Məlumdur ki, Qədim İpək Yolunun inkişafında, istərsə də bizim üçün strateji əhəmiyyətli Zəngəzur dəhlizinin açılmasında rəsmi Bakı Hindistana etibar etmir. Bunun bir səbəbi də Dehlinin xarici siyasətində islamofobiya amilinin dayanmasıdır. Haylardan yoluxduqları bu epidemiya Hindistan siyasilərinin bölgədəki real vəziyyəti, onun inkişaf perspektivini və burada sülhün vacibliyini düzgün qiymətləndirməsinə mane olur. Hindistan "İran körfəzi – Qara dəniz" layihəsinə məhsullarını Avrasiya İqtisadi İttifaqının (AİI) çoxmilyonluq bazarına çıxaracaq körpü kimi baxır. Amma bu marşrutda Ermənistanın hərbi xarakterli xüsusi statusa malik olacağını da vurğulamağı unutmur. Xatırladaq ki, "üçlüy"ün (Hindistan, İran və Ermənistan) ortaq layihəsi barədə "sputnik Armeniya"ya açıqlama verən Hindistanın iqtisadi-ticari təşkilatının prezidenti Asif İkbal ölkəsinin 2024-cü ildə AİI-də müşahidəçi olmağa hazırlaşdığını demişdi: "Layihəmiz işə düşəndən sonra Ermənistanla bütün treklərdə, o cümlədən müdafiə sahəsində əməkdaşlığımızı dərinləşdirmək imkanı əldə edəcəyik. Bu məqsədlə yaxın günlərdə Hindistanın Ermənistandakı səfirliyinin yanında sahəni kurasiya edəcək attaşe təyin olunacaq".

Amma erməni diplomat məlum marşrutla daşınacaq yükün mülki, yoxsa hərbi xarakterli olacağı ilə bağlı heç bir açıqlama verməyib. Turizm, məişət tullantısı adı altında İrəvanla Dehli arasında aparılan bütün danışıqların və layihələrin görünlməyən tərəfində hərbi-sənaye xarakterli ticarətin, silah alverinin dayanması faktı abıvatellərə də gün kimi aydındır.

### "Hay" adlı gecpartlayan mina

İndi isti görünən Hindistan–Ermənistan münasibətləri hər an soyumağa başlaya bilər. Bunun ən yaxın tarixdə bariz nümunəsi də var. 2021-ci il aprelin 28-də Hindistan Milli Azadlıq Hərəkatının lideri, azadlıq mücahidi Mahatma Qandinin İrəvandakı heykəlinin yandırılması faktdır. Baxmayaraq ki, həmin abidə Ermənistan Ağsaqqallar Şurasının yekdil qərarı ilə ucaldılmışdı. Amma hansısa səbəbdən abidənin rəsmi açılışı baş tutmamış, əksinə, heykəl "sərxoş hay" tərəfindən təhqirə məruz qalmışdı.

Bəs bu vandalizm aktının əsl səbəbi nə idi? Səbəb kimi Mahatma Qandinin Mustafa Kamal Atatürk başqa olmaqla Türkiyənin o dövrdəki rəhbərliyi ilə yaxın münasibətdə olması və qondarma "erməni soyqırımı"nı rədd etməsi göstərilir. Digər bir səbəb isə 2021-ci il aprelin 24-də Hindistanın Ermənistandakı səfirliyinin Tvitter səhifəsində qondarma erməni soyqrımı ilə bağlı paylaşım edildikdən az sonra "soyqırımı" sözünün silinməsi olub. Redaktədən sonra mətn bu cür verilib: "24 apreldə Ermənistanda həlak olan ermənilərin anma gününün 106-cı ildönümü qeyd edilir". Hayları qeyzləndirən həmin düzəliş olub.

Yazımızın sonunda oxucularımızın diqqətinə ermənilərin Hindistandan qovulma tarixçəsini çatdırmaq istərdik. Tarixi mənbələrdə V-VI əsrlərdə Çin-Hindistan qarşıdurmasında hindlilərə xəyanət etdikləri üçün ermənilərin bu ölkədən qovulduqları barədə qeydlər var. Amma hay tarixçiləri hər vəchlə bu faktı yada salmağı "unudurlar". Onların siyasiləri isə riyakarcasına hind-hay "dostluğundan" dəm vururlar. 2017-ci ildə Dehliyə rəsmi səfər edən Ermənistanın sabiq prezidenti Serj Sarkisyan burada maraqlı açıqlama verib. O, erməni və hind xalqlarını bir-birinə dərin mənəvi-tarixi köklərin bağladığını bildirib. Amma bu köklərin haradan "rişələndiyi" hələ də məlum deyil.

Bəli, hayların hindlilərlə öz aralarında saldığı "qardaşlıq körpüsünün" altında yerləşdirdikləri "xəyanət minasını" gec-tez partladacaqları şəksizdir. Onların evinə sığındığı, çörəyini yeyib, suyunu içdiyi qonşularına etdikləri nankorluq və mərdiməzarlıq "təcrübələri" bu ehtimalın reallaşacağına qəti şübhə yeri qoymur. Daş heykələ od vuran üçün taxta körpünü yandırmaq çətin deyil.

*İmran BƏDİRXANLI,*
*"Xalq qəzeti"*

**Ekspert rəyi**



**Tofiq ABBASOV,**
**siyasi şərhçi**

Dünyada koalisiyaların müxtəlif mənşəyi, motivasiyası və müddəti olur. İndiki halda Ermənistan ətrafında böyük müttəfiqlər koalisiyasının formalaşmasını müşahidə edirik. Söhbət Fransa, İran və Hindistanın birgə fəaliyyətindən gedir. İkinci "divizionda" Yunanıstan, Kipr, digər məmləkətlər də var. Onlar Türk Birliyinə qısqanclıqla yanaşır və bizim uğurlarımızı rahat həzm edə bilmirlər. Mövcud vəziyyətə baxdıqda Fransa, Hindistan, digərləri heç də Ermənistanın qayğılarını deyil, özlərini düşünürlər. Çünki hər birinin ayrı-ayrılıqda geosiyasi baxışları, prioritetləri var və birlikdə Ermənistandan yararlanmaqla gələcək planlarını müəyyən edirlər.

Burada söhbət ilk növbədə, kommunikasiyalara nəzarətdən gedir. Dəhlizlər mücadiləsinin getdiyini bilirik və bu prosesdə, deyərdim ki, Şimal-Cənub dəhlizi ətrafında ehtiraslar qızışmaqdadır. Azərbaycan, Rusiya və İran bu marşrutun əsas bəndləridir. Amma bu nəqliyyat dəhlizini fərqli variantlarda görənlər də var. Bunlar marşrutu Hindistandan başlayaraq, dəniz yoluna çıxmaq, sonra Gürcüstana və Qara dənizə, sonda Avropaya, yəni Fransaya doğru çatdırmaq niyyətini güdürlər. İntəhası, bu variantın Azərbaycan və müttəfiqlərinin təklif etdiyi yoldan qat-qat baha başa gəlməsi dərhal gözə çarpır. Axı İrandan birbaşa Gürcüstana yol yoxdur, ona görə Ermənistan ərazisindən keçməlidirlər. Ermənistanın nəqliyyat şəbəkəsi isə zəif və bərbad vəziyyətdədir. Hələlik, bu layihə ətrafında spekulyasiyalar gedir və başqa xakakterli təmayüllər, o cümlədən silah-sursatın daşınması variantı gündəmdədir. Bununla onlar Ermənistanın hərbi cəhətdən gücləndiyini və guya, Azərbaycanın üzərinə gələ biləcəyini deməyə çalışırlar. Əlbəttə ki, bu, blefdir.

Fransaya isə 50-yə yaxın nüvə reaktorunu hərəkətə gətirməkdən ötrü uran lazımdır. Parisi Afrikadan vurub çıxardılar və bu mədənlərin açarı indi Rusiyanın əlindədir. Bu halda alternativ variant Orta Asiya ölkələri, konkret Qazaxıstan və Özbəkistan uran yataqlarına malikdir. Fransa onlara yaxınlaşmağa çalışır, yolun açarı isə Azərbaycandır. Hindistan hazırda şübhəli və sürüşkən mövqe tutur. Dehli bölgədə öz imkanlarını genişləndirməyə can atır. Pakistanla faktiki düşmən olan Hindistan üçün Azərbaycan – Türkiyə – Pakistan üçlüyünün bir cərgədə olması narahatedici amildir.

# Bu dəfə İrəvana "qulaqburmasını" kim verəcək?



## Ermənilər "satqın, xain" hesab etdikləri soydaşlarına qarşı dəfələrlə terror aktları törədiblər

**Müasir dövrdə beynəlxalq miqyaslı terror aktlarını dəfələrlə dəstəkləmiş dövlətlər terrorçuluğun sponsoru olan dövlətlər hesab edilir. ABŞ Dövlət Departamentinin rəsmi mövqeyinə görə, 2023-cü ildə bu siyahıya Kuba, İran, Şimali Koreya və Suriya daxildir. Siyahıda əvvəllər İraq, Liviya, Cənubi Yəmən və Sudan da yer alıb. Bir sıra dövlətlər də var ki, onlar beynəlxalq birlik tərəfindən terrorçu və ya terrorçuluğa sponsorluq edən dövlət kimi tanınmasalar da, terror siyasətindən fəal şəkildə istifadə edirlər. Heç şübhəsiz ki, əgər həmin dövlətlərdən ibarət siyahı tərtib olunsaydı, Ermənistan Respublikası orada ilk yeri tutardı. Yazdığımız fikir Ermənistana qərəzli yanaşmağın göstəricisi deyil. Bu, bir həqiqətdir ki, Ermənistan dövlət səviyyəsində terroru dəstəkləyərək terrorçuluğu hər zaman təcavüzkarlıq siyasətinin əsas vasitələrindən birinə çevirib.**

Dünyada erməni terror təşkilatlarının 160 ildən çox (ilk erməni cəmiyyəti 1860-cı ildə İstanbulda yaradılan "Xeyriyyə Cəmiyyəti" olub. Onun təşkilatçıları X.Şişmakyan və M.Beşikdaşyan "Zeytun qırğınları"nın fəal iştirakçıları olublar–S.H.) yaşı var. 1869-1870-ci illərdə İstanbulda "Kilikiya" adlı cəmiyyət təşkil edilib, 1874-cü ildə X.Kerekçyan Qarsda "Azadlıq" adlı gizli təşkilat yaradıb. 1881-ci ildə Ərzurumda "Vətən müdafiəçiləri" təşkilatı zühur edib. 1885-ci ildə Fransanın Marsel şəhərində "Armenakan" partiyası yaradılıb. 1887-ci ildə Cenevrədə Qafqazdan olan bir qrup erməni tələbə tərəfindən "Hnçak" ("Zəng") partiyasının əsası qoyulub. Qurumun əsas məqsədi Türkiyənin Anadolu bölgəsini, rus və İran Ermənistanları adlandırdıqları əraziləri birləşdirməklə "böyük Ermənistan" dövləti yaratmaq idi. Partiyanın proqramının 4-cü bəndində göstərilir ki, qarşıya qoyulmuş məqsədə çatmaq üçün təbliğat-təşviqat, terrorizm və dağıdıcılıq metodu seçilməlidir. Partiyanın ilkin məqsədi Türkiyədə siyasi cəhətdən müstəqil olan Ermənistanın yaradılmasına nail olmaq idi. Məqsədə çatmaq üçün təbliğat, fitnəkarlıq, terrorçuluq və təşkilatlanma əsas metod seçilib.

Ancaq bu dövrdə yaradılan daha təhlükəli və qatı millətçi partiya 1890-cı ilin yayında təsis olunan Erməni İnqilabi Federasiyası – "Daşnaksütyun" olub. "Daşnaksütyun"un 1892-ci ilin iyununda Tiflisdə keçirilən ilk qurultayı ermənilərin silahlanması, təşkilatlanması, silahlı üsyan, dövlət idarələrinə basqınlar, dövlət adamlarına sui-qəsdlər yolu ilə müstəqil demokratik respublika yaradılmasını son məqsəd olaraq qərarlaşdırdı. Partiyanın rəsmi manifestində bəyan edilirdi ki, öz məqsədlərinə çatmaq üçün inqilabi qruplar yaradılacaq və üsyanlara rəvac veriləcəkdir. İnqilabçı qrupların yaradılmasını vacib sayan məqamlar rəsmi manifestdə çap olunub. Bura döyüşən dəstələrin yaradılması, xalqı silahlandırmaq üçün bütün vasitələrdən istifadə, inqilabi komitələr təşkil edilməsi və onların arasında sabit əlaqələr qurulması, dövlət müəssisələrinin talanması daxil idi. Milli erməni dövləti yaratmaq "Daşnaksütyun"un minimum, Qara və Aralıq dənizlərindən Xəzərə qədər uzanan "böyük Ermənistan" yaratmaq isə maksimum məqsədi idi. Partiya məqsədə nail olmaq yolunu terrorda görürdü.

"Daşnaksütyun" fəaliyyəti ərzində keçmiş Osmanlı imperiyası ərazisində türklərə, Rusiya imperiyası və Qacarlar dövləti ərazisində isə azərbaycanlılara qarşı çoxsaylı terror aktları, soyqırımları törədib. Daşnakların 1905-1906-cı illər qırğınlarında, 1918-ci ilin martında Bakıda baş verən soyqırımının təşkilində və həyata keçirilməsində xüsusi rolu olub. 1918-ci ilin ortalarından başlayaraq daşnak Andranik Ozanyanın başçılığı ilə Zəngəzurda azərbaycanlılara qarşı etnik təmizləmə aparılıb. 1920-ci ilin iyunundan 1922-ci ilin iyuluna qədər "Daşnaksütyun" "Nemezis" adı verilən əməliyyat həyata keçirib. Bu əməliyyat müstəqil ekspertlər tərəfindən belə silsilə terror aktları kimi qiymətləndirilib. Əməliyyat zamanı 1920-ci il iyunun 19-da Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) keçmiş Baş naziri Fətəli Xan Xoyski Tiflisdə öldürülüb. Eyni vaxtda Cümhuriyyətin keçmiş ədliyyə naziri Xəlil bəy Xasməmmədov yaralanıb. Qətl Aram Yerkanyan tərəfindən törədilib. 1920-ci il iyulun 19-da AXC Parlamentinin sədr müavini Həsən bəy Ağayev Tiflisdə qətlə yetirilib. 1921-ci il martın 15-də Osmanlı dövlətinin keçmiş daxili işlər naziri, adı daşnakların "qara siyahı"sında birinci olan Mehmet Tələt paşa Berlində qətlə yetirilib. Mühakimə olunan Soqomon Teyleryan, qətli anlaqsız vəziyyətdə törətdiyi bəhanəsi ilə Berlin məhkəməsi tərəfindən bəraət alıb.

1921-ci il iyulun 19-da AXC-nin keçmiş daxili işlər naziri Behbud xan Cavanşir İstanbulda (şəhər 1930-cu ilədək Konstantinopol adlanırdı-S.H.) öldürülüb. Bu qətli törədənlər də cəzasız qalıb. Həmin ilin dekabrın 5-də Romada Osmanlı imperiyasının Baş naziri Səid Halim paşa qətlə yetirlib. Cinayəti törədən Arşavir Şirakyan tutulmayıb. Həmçinin 1922-ci il aprelin 17-də Berlində ailəvi gəzinti zamanı Trabzonun keçmiş valisi Camal Əzmi, iyulun 25-də Tiflisdə Osmanlı imperiyasının keçmiş dəniz donanması naziri Camal paşa öldürülüb.

Onu da qeyd edək ki, bu il aprelin 25-də İrəvanda "Nemezis" terror əməliyyatına həsr olunan abidənin açılışı olub. Bu abidənin qoyulması Ankara ilə münasibətləri normallaşdırmaq istiqamətində danışıqlar aparan rəsmi İrəvanın nə dərəcədə qeyri-səmimi olduğunun göstəricisi hesab oluna bilər.

Sonrakı illərdə ermənilər tərəfindən dünyanın müxtəlif ölkələrində "Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu" (ASALA), "Geqan", "Geqaron", "Erməni azadlıq hərəkatı" (AOD), "Erməni azadlıq cəbhəsi", "Orli" qrupu, "Erməni soyqırımı ədalət komandosları", "Erməni birliyi", "Demokratik cəbhə", "Apostol" kimi qayəsində terror aktlarının törədilməsi dayanan təşkilatlar yaradılıb. Erməni terror təşkilatlarının 1973-cü ildən 1984-cü ilədək xaricdə yaşayan türklərə etdikləri sui-qəsdlər nəticəsində 31-i diplomat və onların ailə üzvləri olmaqla, ümumilikdə 58 Türkiyə vətəndaşı qətlə yetirilib. "Böyük Ermənistan" xülyasının arxasınca düşən bu terror təşkilatlarının bəziləri hazırda da fəaliyyət göstərir.

***

Maraqlıdır ki, ermənilərin terrorçuluq əməlləri onların satqın, xain hesab etdikləri öz həmvətənlərinə münasibətdə də törədilib. Məsələn, elə "Nemezis" əməliyyatı çərçivəsində, satqınlıq etdiklərinə görə, Mkrtıç Arutyunyan, Vahe Yesayan və Adur Yaysyan qətlə yetiriliblər. Ancaq ermənilərin daxildəki ən böyük qırğını 1999-cu ilin oktyabrın 27-də parlamentdə törədilən terror aktıdır. O zaman Qarabağ məsələsi üzrə danışıqlarda xeyli məsafə qət edilmişdi. İrəvan və Bakı sülhə yaxın idi. Noyabrın 18-19-da ATƏT-in İstanbulda keçiriləcək sammitində iştirak üçün ABŞ Prezident Bill Klintonun da Türkiyəyə gəlişi gözlənilirdi. Sammitin keçirilməsinə 20 gün qalmış parlamentdə terror aktı törədilib. Nəticədə 8 nəfər, o cümlədən Ermənistanın baş naziri Vazgen Sarkisyan, parlamentin spikeri Karen Demirçiyan, vitse-spikerlər Ruben Miroyan və Yuri Baxşyan, operativ məsələlər üzrə nazir Leonard Petrosyan, deputatlar Armenak Armenakyan, Henrik Abramyan və Mikael Kotanyan qətlə yetiriliblər. Beləliklə, İstanbulda hansısa razılaşma əldə etmək mümkün olmayıb.

İndi də Ermənistanla Azərbaycan arasında danışıqlarda müəyyən irəliləyişlər var. Vaşinqtonda və Brüsseldə aparılan danışıqlar sülhün əldə olunacağına inam yaradır. Belə bir məqamda revanşistlərin fəallaşması onların prosesi ənənəvi üsullarla pozmasına gətirib çıxara bilər. Ancaq indi 24 il əvvəlki dövr deyil.

Ermənistanda hansı proseslərin baş verməsindən asılı olmayaraq, Azərbaycan öz məqsədinə çatacaq. Dövlət başçımızın mayın 3-də Şuşada "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda beynəlxalq konfransda dediyi kimi, biz onların konstruktivliyinə ümid edirik: "Əgər onlar konstruktiv olmasalar, biz diplomatik tədbirlərdən başqa hər hansı bir digər tədbirlərə əl atmağı planlaşdırmırıq. Bu qədəri bizə bəsdir. Buna görə, sadəcə, sülh olmayacaq, kommunikasiyalar açılmayacaq. Onlar yenə də təcrid olunacaqlar və onlar bu yeni geosiyasi konfiqurasiyada özlərinə yer tapmalı olacaqlar. Çünki bütün geosiyasi vəziyyət, – söhbət təkcə regiondan deyil, qlobal vəziyyətdən gedir, – dəyişib. Bizim orada öz yerimiz var. Bu yer çox sabitdir və getdikcə daha da möhkəmlənir. Lakin onlar üçün bu, böyük çağırış olacaqdır". Bəli, Ermənistanın yeni çağırışlar qarşısında özünü necə aparacağını, necə duruş gətirəcəyini əlahəzrət zaman göstərəcək.

*Səxavət HƏMİD,*
*"Xalq qəzeti"*

**Ekspert rəyi**



**İlyas HÜSEYNOV,**
**politoloq**

– Nikol Paşinyan sülh istədiklərini dəfələrlə bəyan edib. Lakin onun bu çıxışlarına inanmaq çətindir. O, bir tərəfdən sülh çağırışları edir, digər tərəfdən isə təxribatlara rəvac verir. Məsələn, İrəvandan Xankəndiyə doğru hərəkət edən humanitar yük karvanı bunun göstəricilərindən biridir. Yaxud, Hindistan istehsalı olan hərbi texnikalar İran vasitəsilə Ermənistana daşınır. Yəni, sülhdən danışan adam bu qədər məkrli davranaraq sülhü pozmaq üçün addımlar atmaz.

Məsələnin ikinci tərəfi Paşinyanın sülh müqaviləsinə imza atacağı təqdirdə, bunu daxili auditoriyanın, revanşistlərin, o cümlədən daşnakların necə qəbul edəcəyidir. Şübhəsiz ki, Hayastan baş naziri sülh müqaviləsini imzaladıqdan sonra ona qarşı böyük müqavimət hərəkatı başlayacaq. Ona qarşı sui-qəsd cəhdləri də ola bilər. Lakin hətta Nikol Paşinyanın həyatı bahasına olsa da, Ermənistan sülh müqaviləsini imzalamalıdır. Çünki sülhün alternativi yoxdur.



# BAYRAQDAR

## Ümummilli lider Heydər Əliyev 1974-cü ilin yanvar ayında Lənkəran rayonu Aşağı Nüvədi qəsəbəsinin sakini, mexanizator Barat Məhərrəmovun ailəsində qonaq olmuşdur

**Xəzərdən xəfif meh əsirdi. Əsdikcə də sanki Lənkəran barədə, onun vətənpərvər, işgüzar övladları haqqında həzin, xoş nəğmələr oxuyurdu. Evləri Xəzərdən çox da uzaqda deyildi. Uşaqlıq illəri bu yerlərdə keçib. Bu gün arxada qalan o günlər göz işlədikcə uzanan barlı-bərəkətli sahələrdə, yamaclarda yaz dumanı kimi əriyib. Yadındadır, o da yaşıdları ilə sahilə gələr, Xəzərin mavi sularına baş vurardı. Sonra müharibə başladı. Əli silah tutanlar faşizmə qarşı mübarizəyə qalxdılar. Atası Əziz Məhərrəmov müharibəyə gedəndə Barat 9 yaşında idi. Az sonra əmiləri cəbhəyə yola düşdülər. Barat onda kənd məktəbində oxuyurdu. Müharibədən sonra qonşu Gərmətük qəsəbə tam orta məktəbini bitirdi.**

Doğulub boya-başa çatdığı Aşağı Nüvədi qəsəbəsi Lənkəran rayonunun ən yaraşıqlı və sosial-iqtisadi cəhətdən inkişaf etmiş iri yaşayış məntəqələrindəndir. Burada yaşayanlar çox işgüzar, təbiətcə sakit, səmimi, xeyirxah və olduqca qonaqpərvərdirlər.

Barat danışdıqca xəyalı qanadlanır. Maraqlı, qibtə ediləsi həyat yolundan, mexanizator işlədiyi illərdən söz açır. Ürəyinin hərarətini, qəlbinin odunu torpağa səpələyə-səpələyə sınaqlardan keçib. 13 yaşından ağır zəhmətə qatlaşıb, barama saxlayıb, çəltikçilərlə çiyin-çiyinə çalışıb. 1951-ci ildə Lənkəran Maşın-Traktor Stansiyasında traktorçular kursunu bitirib. Əvvəl Lənkəran Maşın-Meliorasiya Stansiyasında, 1973-1995-ci illərdə doğma təsərrüfatda işləyib. Bəzən səhəri tarlada açıb. “Dəmir at”ı ilə torpağı şumladıqca rahatlıq tapıb. Tərəvəzçilər də onun işindən razılıq ediblər. İllər keçsə də yaşıdları, onunla birgə çalışmış həmyerliləri bu gün də Baratın işindən böyük həvəslə, razılıq hissi ilə danışırlar. Deyirlər ki, Sovetlər dövründə respublikanın heç yerində, bəlkə də daha geniş məkanda Barat kimi öz işini mükəmməl bilən, sənətinə məsuliyyətlə yanaşan, təsərrüfata can yandıran ikinci belə mexanizator olmayıb. O, əsl qəhrəman idi, sənətinin, peşəsinin vurğunu olan adlı-sanlı mexanizator…

Mexanizator işlədiyi Baloğlan Abbasov adına sovxoz o illərdə Ümumittifaq miqyasında irəlidə gedən ən iri və qabaqcıl təsərrüfatlardan idi. Sahələri əkinə hazırlanmasında Barat Məhərrəmov və onun kimi mexanizatorlardan asılı idi. Ustası qocaman mexanizator Həsən Əliyevdən öyrəndiklərini işində bacarıqla tətbiq edirdi. İdarə etdiyi “S-100” markalı traktoru ilə ildə 80 min kubmetr əvəzinə 145 min kubmetr torpaq işi görürdü. O, hami-tərbiyəçi idi, Lənkəran 113 nömrəli texniki peşə məktəbində oxuyan mexanizator qrupunun şagirdləri onun yanında təcrübə keçirdilər. Sonralar onların hər biri tanınmış mexanizator oldu, ustalarının adını iş və əməlləri ilə ucalara qaldırdı.

Barat Məhərrəmov sovxozun bayraqdarı idi. Onu rayonun hər yerində belə tanıyırdılar. Məhsul bayramlarında, müxtəlif mədəni-kütləvi tədbirlərdə sovxozun keçici Qırmızı bayrağını qabaqcılların önündə aparmaq, adətən, Barat Məhərrəmova etibar edilirdi. O, bayrağı inamla, qürurla aparır və bununla fəxr edirdi. Həmin bayrağı mexanizator olduğu təsərrüfata Azərbaycanın rəhbəri Heydər Əliyev təqdim etmişdi.

Bu da qəsəbənin mərkəzi meydanı. Uca sərv ağacları, gözəl ağ akasiyalar qəsəbənin dörd tərəfini üzük qaşı kimi dövrəyə alıb. Lənkəran çiçəklərinin ətri ətrafa yayılıb. Birdən- birə qəlbində kövrək hisslər baş qaldırır. Meydan Heydər Əliyevin qəsəbəyə gəlişi münasibətilə salınmışdı. 1974-cü ilin yanvar ayı idi. Heydər Əliyev başda olmaqla Lənkəran fəallar yığıncağının iştirakçılarından bir qrupu Baloğlan Abbasov adına sovxozun tərəvəzçiləri ilə görüşə gəlmişdi. Qabaqcıl mexanizator Barat Məhərrəmov iştirakçılar arasında idi. Böyük rəhbərin dahiyanə nitqi onda zəngin, xoş təəssürat oyatdı. Respublika rəhbəri Heydər Əliyev Baloğlan Abbasov adına sovxozu tərəvəzçiliyin flaqmanı adlandırdı. Əməklərinə verilən bu qiymət salonu ayağa qaldırdı. Barat da alqışlara qoşuldu. Həmin il sovxozda 22 min tondan çox tərəvəz yığılmış, hər hektarın məhsuldarlığı 445 sentnerə çatdırılmışdı. Sovxoz o dövrdə öz məhsullarını SSRİ-nin 200-dən çox şəhərinə göndərirdi. Respublikada ildə iki dəfə məhsul yetişdirmək təcrübəsi bu təsərrüfatda sınaqdan çıxarılmış və yaxşı nəticə əldə edilmişdi. Yüksək təsərrüfat göstəricilərinə görə sovxozdan 2 nəfər Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü, neçə-neçə əməkçi müxtəlif orden və medallarla təltif olunmuşdu. Baratın sinəsini bəzəyən “Şərəf Nişanı”, İkinci dərəcəli “Şöhrət” ordenləri, “Əmək igidliyinə görə”, “Rəşadətli əməyə görə”, “Əmək veteranı” medalları o illərdən yadigardır. O, SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin iştirakçısı idi. O illərdə “QAZ-24” markalı minik maşını ilə mükafatlandırılmışdı.

Barat bütün ömrünü, bilik və bacarığını təsərrüfatın yüksəlişinə həsr etmişdi. Rəhbərlikdə də əməyini yüksək qiymətləndirirdilər.

Barat hələ də respublika rəhbəri Heydər Əliyevin nitqinin təsiri altında idi. Təəssüratını ailə üzvləri ilə bölüşürdü. Elə bu vaxt maşınların siqnal səsi ətrafı diksindirdi. Böyük bir maşın karvanı həyətlərinə üz tutmuşdu. O, ilk andaca heç nə anlaya bilmədi. Qabaqda Heydər Əliyevi, onun ardınca Sov.İKP MK katibi F.D. Kulakovu, Lənkəran Şəhər Partiya Komitəsinin katibi İsa Məmmədovu, rayon XDS İcraiyyə Komitəsinin sədri Sərhad Məmmədovu və digər rəsmi qonaqları görəndə qanad alıb uçmaq istədi. Belə mötəbər qonaqların gəlişi hər ailəyə nəsib olmayan bir xoşbəxtlik idi. Evin xanımı Yusra Məhərrəmova təndirə çörək yapırdı. Yusra xanım qonaqları ətri ətrafa yayılmış isti təndir çörəyinə qonaq etdi. Qonaqlar çörəkdən kəsib razılıqlarını bildirdilər. İsa Məmmədov Baratı qonaqlara təqdim etdi:

– Rayonumuzun ən qabaqcıl mexanizatorlarındandır. – dedi. – Onun şərəfinə Lənkəranın mərkəzi meydanında bayraq qaldırılıb.

Heydər Əliyev İsa Məmmədovun dediklərini tərcümə edəndə F.D.Kulakov Baratın əlini sıxdı. İstək və arzularını soruşdu.

Barat həyəcanlı idi, özünü toplayıb dedi:

– Ən böyük arzumuz sülh və əmin-amanlıqdır. Qoy hər yerdə sülh, təmiz səma və Günəş olsun!..

Baratın dediklərini MK katibinə tərcümə etdilər. F.D.Kulakov təzədən Baratın əllərini sıxdı və minnətdarlıq etdi.

Heydər Əliyev və digər rəsmi qonaqlar ailənin ev şəraiti və yaşayış tərzi ilə maraqlandılar. Barat fürsətdən istifadə edib qonaqları evə – çay süfrəsinə dəvət etdi.

Evin yuxarı başında atası Əziz Məhərrəmovun çərçivəyə alınmış şəklinin yanında Heydər Əliyevin portreti asılmışdı. Moskvalı qonaq Heydər Əliyevin portretini görüb, Baratdan soruşdu:

– Rəhbərinizi çoxmu sevirsiniz?

– Belə rəhbəri sevməməkmi olar?! – deyə Barat sevincək bildirdi. – Onu hər ailədə, respublikanın hər yerində sevirlər. Heydər Əliyev hər birimizin əzizi, sevimlimizdir.

Sovxoz təsərrüfatında onda köhnə markalı traktorlardan istifadə edilirdi. Heydər Əliyev bunu biləndə tapşırdı ki, sovxoza yeni traktor verilsin. Barat Məhərrəmov həmin traktoru 20 ilə yaxın idarə etdi. Sonra oğlu Təvəkkül Məhərrəmov atasının yolunu davam etdirdi. Çox keçmədi ki, Təvəkkül də rayonda qabaqcıl mexanizatorlardan biri oldu.



Barat böyük ailə başçısıdır. Ömür yoldaşı Yusra xanımla 7 uşaq böyüdüb, hamısını yerbəyer edib. Nəvələrindən Baratəli və Amal sərhədlərimizin keşiyində ayıq-sayıq dayanmışlar.

Həyat beləcə davam edir. Ümummilli lider Heydər Əliyevin vəfatı xəbərini, o, çox ağır kədər hissi ilə yaşadı. 12 dekabr 2003-cü il idi. Barat bu xəbəri eşidəndə dərhal Aşağı Nüvədi qəsəbə icra nümayəndəliyinə gəldi. Gecədən xeyli keçmişdi. İcra nümayəndəsi Rza Rzayev iş otağında idi. Az sonra qəsəbə fəalları da yığışdılar. Baratın iştirakı ilə hüzn günü ilə əlaqədar qəsəbənin bir neçə yerində çadırlar quruldu və ümummilli liderin işıqlı xatirəsinə ehsanlar verildi. Ehsanda şəhər icra hakimiyyətinin başçısı və digər rəsmi qonaqlar da iştirak etdilər.

Evin yuxarı başında Heydər Əliyevin mərmərdən hazırlanmış büstü qoyulub. Onu Barat Məhərrəmova həmin dövrdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı işləmiş Zeynal Nağdəliyev təqdim edib. Onun önündən tər çiçəklər əskik olmur. Hər ilin anım günündə isə Barat Məhərrəmov Heydər Əliyevin ruhuna ehsan verir. Sonra ailəliklə şəhərin mərkəzi meydanına gələrək, ulu öndərin burada ucaldılmış abidəsi önünə güllər düzür və sanki qarşısında hesabat verir. Bu zaman qəlbindəkilər pıçıltıya dönür: “Sən Azərbaycan dövlətçiliyinin əbədiliyini və dönməzliyini təmin etdin, ölkənin hərtərəfli və sürətli inkişafı üçün möhkəm təməl yaratdın. Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider kimi Azərbaycanı bütün dünyaya tanıtdın. Bu gün Azərbaycan dinamik inkişaf edən, dünya birliyində layiqli yer tutan, müstəqil siyasət yeridən bir dövlətdir. Bu gün Azərbaycanda ümummilli lider Heydər Əliyev siyasətinin alternativi yoxdur. Nə qədər ki, müstəqil Azərbaycan dövləti var, ümummilli liderimiz kimi alternativi olmayan siyasətiniz və ideyalarınız daim yaşayacaq, müstəqil Azərbaycan dövləti əbədi olacaqdır!..”

Göydə ulduzların sayı-hesabı yoxdur. Deyirlər, hərənin öz ulduzu var. Bunu babalardan eşidib Barat. Ulduzlara baxa-baxa xatirələr cığırı ilə yenə öz aləminə qapılmışdı. Bir anlığa ona elə gəldi ki, qarşıdakı təpəyə çıxıb əlini uzatsa göydə bərq vuran ulduzlardan birini ovcuna ala bilər. Uşaq sadəlövhlüyünə özü də gülümsündü. Baratəlinin səsi bayaqdan onu ağuşuna almış yaxın keçmişindən ayırdı.

– Baba. deyirlər ulduzlar sönmür…

– Düzdür, övladım, –Barat baba nəvə Baratəlinin başını oxşadı. – Arzu edirəm ki, göydəki ulduzlar sənin həyat yoluna beləcə parlaq, gur işıq saçsın.

“Heydər Əliyev parlaq bir ulduz idi”, – deyə Barat öz-özünə fikirləşirdi. O, Rusiyanın “Kosmos-Yer” Elmi-Texniki Mərkəzinin 1998-ci ildə kəşf edilmiş ulduzlardan birinə Heydər Əliyev adının verilməsini mətbuatdan oxumuşdu. Barat gözlərini göylərə dikərək, Bürc adlanan həmin ulduzu axtarırdı. Ona elə gəldi ki, Ayın ətrafında işıq saçan axtardığı Bürc ulduzudur. Birdən-birə gözlərində parıltılar alışıb yandı. Bu parıltı qəlbindən çöhrəsinə axır, axdıqca da üz-gözünə qeyri-adi işıltılar yayılırdı. Sanki ümummilli lider Heydər Əliyev adını daşıyan Bürc ulduzundan boylanaraq deyirdi:

– Müstəqilliyimiz əbədidir!

***Etibar ƏHƏDOV,***
***Lənkəranda çıxan “Aşkarlıq” qəzetinin baş redaktoru, Prezident mükafatçısı***

---

# Ulu öndərin obrazı bölgə yazarlarının yaradıcılığında



**AMEA-nın Şəki Regional Elmi Mərkəzi və Azərbaycan Yazıçılar Birliyinin Şəki bölməsinin birgə təşkilatçılığı ilə Ulu öndərin 100 illik yubileyinə həsr olunmuş “Bölgə yazarlarının yaradıcılığında Heydər Əliyev obrazı” mövzusunda ədəbi-mədəni tədbir keçirilib.**

Mərkəzin elmi işlər üzrə direktor müavini Fərhad Əzizov, AYB-nin Şəki bölməsinin sədri Vaqif Aslan Ümummilli liderin bütün sahələrin inkişafında olduğu kimi, mədəniyyət və ədəbiyyat sahələrinin çiçəklənməsində, o cümlədən Şəkidə mətbuatın, teatrın, ədəbiyyatın formalaşmasında və inkişafında müstəsna rolu olduğunu vurğulayıblar.

Şəki Regional Elmi Mərkəzin Ədəbi-mədəni mühit, folklor və etnoqrafiya şöbəsinin aparıcı elmi işçisi dosent Kamil Adışirinov, Balakəndə “Çeşmə” Ədəbi Birliyinin sədri Nəsihət Vahidova, Şəki Regional Elmi Mərkəzinin Gənc Alim və Mütəxəssislər Şurasının sədri Tural Adışirinov, bölgə yazarları Solmaz Elqızı, Adilə Aslanova, Güldanə Ramazanova, Elvin Nuri, Reyhan Miqdadqızı və başqaları Heydər Əliyevin xalqa, dövlətə olan sonsuz sevgisindən bəhs ediblər.

***“Xalq qəzeti”***

# Azərbaycan multikulturalizminin siyasi banisi

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi “Heydər Əliyev İli” çərçivəsində cari ilin iyun-noyabr aylarında ölkəmizin 10 rayonunun Heydər Əliyev mərkəzlərində Ulu öndərin Azərbaycan multikulturalizminin inkişafında xidmətlərinə həsr olunan seminarlar keçirir.**



“Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisidir” mövzusuna həsr edilən seminarların keçirilməsində məqsəd Ümummilli liderin çoxspektrli fəaliyyəti, hakimiyyətə ikinci dəfə gəlişindən sonra azərbaycançılıq məfkurəsinin yenidən təşəkkül tapmasında rolu, xüsusən də ölkəmizdə əsrlərdən bəri əmin-amanlıq şəraitində birgə yaşayan müxtəlif etnik qruplar və konfessiyalar üçün yaradılan şərait, bu gün də milli və dini icmalara göstərilən dövlət qayğısı barədə geniş maarifləndirmə işləri aparmaqdır.

Layihə çərçivəsində növbəti seminar Şamaxı şəhərində təşkil olunub.

***“Xalq qəzeti”***

# Əbədiyaşarlığın çağdaş salnaməsi



**Dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin dünyaya göz açdığı Naxçıvanda Ulu öndərin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş daha bir kitab işıq üzü görüb. Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, redaksiyanın məsul katibi Muxtar Məmmədoğlunun “O yaşayır, yaşayacaq ürəklərdə” adlı kitabında Ümummilli liderə əbədiyaşarlıq qazandıran tarixi xidmətlərdən əhatəli bəhs olunub.**

“Şərq qapısı” qəzeti redaksiyasında keçirilən təqdimat mərasimində qəzetin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultan bildirib ki, redaksiyanın məsul katibi Muxtar Məmmədoğlunun sayca beşinci olan “O yaşayır, yaşayacaq ürəklərdə” kitabında Ümummilli lider Heydər Əliyevin xalqa xidmətdə keçmiş mənalı ömür yoluna, zəngin siyasi irsinə geniş nəzər salınmışdır.

Bildirilib ki, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla çapdan çıxan kitab ön söz, giriş və dörd bölmədən ibarətdir. Kitabın “Esselər”, “Dəyirmi masa, müsahibələr və söhbətlər”, “Bu ünvanlar xalqımızın böyük oğlunun adını yaşadır”, “Bu da bir ömürdür...” bölmələrində jurnalistin ürəyindən keçən və qələminin gücü ilə ərsəyə gələn səmimi fikirləri, düşüncələri aparıcı yer tutur. Elmi-kütləvi səpkidə yazılmış və müasirlərimizə ünvananmış yeni nəşr indiki nəsillərin Ulu öndərin həyat və fəaliyyətini dərindən öyrənməsinə kömək edən salnamə ədəbiyyatı sayıla bilər.

Kitabın ön sözünün müəllifi, Yeni Azərbaycan Partiyası Naxçıvan şəhər təşkilatının sədri, Muxtar Respublika Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli, Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov, Naxçıvan Dövlət Universitetinin prorektoru, tarix üzrə fəlsəfə doktoru Arzu Abdullayev, Naxçıvan MR-in Əməkdar jurnalisti Hüseyn Əsgərov kitabda Ümummilli lider Azərbaycanın hərtərəfli inkişafı, dövlət müstəqilliyi qazanması və dünya birliyində layiqli yer tuması uğrunda tarixi mübarizəsinin müxtəlif məqamlarının jurnalist peşəkarlığı ilə qələmə alındığını söyləyiblər. Natiqlər kitabı Naxçıvan jurnalistika məktəbinin Ulu öndərin yubileyinə layiqli töhfəsi kimi dəyərləndiriblər.

Kitabın müəllifi Muxtar Məmmədoğlu Heydər Əliyev şəxsiyyətinə sonsuz sevginin onda daim yeni düşüncələr doğurduğunu, qəlbində yeni-yeni mövzulara çevrildiyini söyləyib, xalqımızın böyük oğlu barədə araşdırmaları bundan sonra da davam etdirəcəyini bildirib.

***Səbuhi HƏSƏNOV, “Xalq qəzeti”***

## Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2023-cü ilin avqust ayında vətəndaşların qəbulu

## C Ə D V Ə L İ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 1,8,11 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 4,18 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 7 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Əliyev Məhərrəm Abış oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 16 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 17 |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 21 |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 22 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 23 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 24 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 25 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 28 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 30 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 24 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

## “TUSAŞ” ölkəmizin müdafiə sənayesi ilə əməkdaşlıq edəcək

**“İDEF-2023” Beynəlxalq Müdafiə Sənayesi Sərgisidə iştirak edən müdafiə sənayesi naziri Mədət Quliyev Türkiyə Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgünlə görüşüb.**



Söhbət zamanı iki qardaş ölkə arasında hərbi-texniki sahədə əməkdaşlıq əlaqələrinin bundan sonra da daha sıx davam etdirilməsi və digər maraq doğuran məsələlər barəsində fikir mübadiləsi aparılıb.

Sərgi çərçivəsində gələcəkdə milli döyüş təyyarələrinin istehsalı sahəsində həyata keçiriləcək birgə layihələr üzrə mühəndis texniki personalın hazırlanması məqsədilə iki qurum arasında niyyət protokolu imzalanıb.

Qeyd edək ki, sərgi çərçivəsində Müdafiə Sənayesi Nazirliyi ilə Türkiyənin Makina və Kimya Endüstrisi şirkəti arasında əməkdaşlıq protokolu da imzalanıb.

***Qəzənfər QASIMOV, “Xalq qəzeti”***

# “Humanitar yük” adı altında...

**(əvvəli 1-ci səhifədə)**

“Daha böyük yüklərin Azərbaycan ərazisinə gətirilməsinə gəldikdə, Ermənistandan irəli gələn təhdidlər nəzərə alınmaqla, “Ağdam-Xankəndi” və digər alternativ yollardan istifadə edilməsi təklif olunub” – deyilən açıqlamada bu təklifin Aİ, BQXK daxil, beynəlxalq tərəfdaşlar tərəfindən müsbət qarşılanmasına baxmayaraq, Ermənistan tərəfinin və özlərini yerli erməni sakinlərin nümayəndələri kimi təqdim edən şəxslərin buna mane olması, yolları bağlayaraq, yüklərin daşınmasının qarşısını alması, “gərgin humanitar vəziyyət” barədə spekulyasiyaların siyasi manipulyasiyadan başqa bir şey olmadığını sübut etdiyi vurğulanır.

***

“Azərbaycanın gördüyü legitim tədbirlərin Laçın yolunun bağlanması kimi təqdim edilməsi kökündən yanlışdır”. Azərbaycan XİN-nin mətbuat katibi Ayxan Hacızadə Aİ rəsmisi Jozep Borrelin bölgədə vəziyyət barədə bəyanatını şərh edərkən deyib. Nazirlik rəsmisi bildirib:

“Eynilə, Beynəlxalq Ədalət Məhkəməsinin məlum qərarlarının açıq-aydın şəkildə yanlış şərhinin heç bir nəticə verməyəcəyi aydın olmalıdır. Azərbaycanın öz sərhədlərinə nəzarət hüququnu bir daha təsdiq edən və Ermənistanın Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı tələbinin əsassız olduğunu təsdiqləyən 6 iyul tarixli qərarı bir daha göstərib ki, Azərbaycanın öz təhlükəsizliyini qoruması legitim tədbirdir”.

***“Xalq qəzeti”***

## Azərbaycan və Moldova Baş prokurorluqları anlaşma memorandumu imzalayıb




**Baş prokuror Kamran Əliyevin dəvəti ilə Moldova Respublikasının Baş prokuroru vəzifəsini icra edən İon Muntyanunun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdədir.**

Baş Prokurorluqda keçirilmiş ikitərəfli görüşdə Baş prokuror Kamran Əliyev ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin bir çox istiqamətlərdə uğurla inkişaf etdiyini qeyd edib.

Baş prokuror ölkəmizdə hüquq qaydasının möhkəmləndirilməsi və qanunun aliliyinin təmin olunması istiqamətində aparılan islahatlar barədə həmkarına məlumat verib. İon Muntyanu göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Azərbaycan ilə Moldova prokurorluqları arasında münasibətlərin müsbət dinamikasını vurğulayaraq bu əlaqələrin gələcəkdə də inkişaf etdirilməsinin zəruriliyindən və perspektivlərindən danışıb.

Daha sonra baş prokurorlar ölkələrimiz arasında hüquqi əməkdaşlığın gücləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi, hüquqi əlaqələrin dərinləşdirilməsi məqsədilə Əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalayıblar.

***Q.QASIMOV, “Xalq qəzeti”***

## XİN: Ermənistanın ölkəmizlə “humanitar yük” göndərməsi növbəti təxribatdır

**Ermənistan tərəfinin ölkəmiz ilə razılaşdırmadan Azərbaycanın suveren ərazilərinə “humanitar yük” adı altında avtomobil konvoylarını göndərməsi Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı növbəti təxribatdır. Bu təxribatın Ermənistan dövləti və baş nazir səviyyəsində təşviq olunması qəbuledilməzdir. Bu təxribat bir daha göstərir ki, Ermənistanın “bölgədə gərgin humanitar vəziyyət” iddiaları bu ölkənin qeyri-qanuni fəaliyyətləri davam etdirmək, əsassız siyasi manipulyasiya yolu ilə gərginlik yaratmaq niyyətindən başqa bir şey deyil.**

Bu barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycan ərazilərinə yük göndərilməsi cəhdi ilə bağlı açıqlamasına dair şərhində qeyd olunub.

“Ermənistan tərəfi, Azərbaycanı qondarma “soyqırımı” cəhdlərində təqsirləndirmək əvəzinə, Ermənistan ərazisindən azərbaycanlıların məcburi şəkildə deportasiyasına, öz yurd-yuvalarından qovulan zaman insanların kütləvi ölüm hallarına, Azərbaycan ərazilərinə təcavüz və işğal nəticəsində soyqırımı daxil, insanlıq əleyhinə cinayətlərə, etnik təmizləmə siyasəti və törətdiyi əməllərə görə üzr istəməlidir.

Ermənistan tərəfi həqiqətən də bölgədə sülh və sabitlikdə maraqlıdırsa, o cümlədən Azərbaycanın ərazi bütövlüyü və suverenliyini yalnız sözdə deyil, əməldə də dəstəkləyirsə, bu kimi təhrikçi addımlardan çəkinməli, Azərbaycan tərəfinin erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün təklif etdiyi “Ağdam-Xankəndi” yolundan və digər alternativ yollardan istifadəni dəstəkləməlidir. Ermənistan tərəfi, həmçinin Azərbaycanın erməni sakinlərin reinteqrasiyası üzrə səylərinə maneçilik törətməməlidir”, – deyə nazirliyin şərhində bildirilib.

## Qırğızıstanın fond birjaları ilə əlaqələr dərinləşir

**Çolpon-Ata şəhərində Qırğız Fond Birjası QSC ilə Bakı Fond Birjası arasında anlaşma memorandumu imzalanıb.**



Sənədi Qırğız Fond Birjasının prezidenti Mədət Nəzərəliyev və Bakı Fond Birjası İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra edən Eldar Abdullayev imzalayıblar.

Sənəd iqtisadi əlaqələrin inkişafına və iki ölkənin fond birjaları arasında qarşılıqlı münasibətlərin dərinləşməsinə kömək edəcək. Əməkdaşlığın əsas istiqamətləri birja ticarətinin təşkili, texniki infrastruktur və postreydinq mühitinin yaxşılaşması üzrə təcrübə mübadiləsi aparmaqdır.

***“Xalq qəzeti”***

## Nobel mükafatına aparan yolun dərsləri

**Azərbaycan Milli Elmlər Akademiyasının təşkilatçılığı ilə bu ilin oktyabrında keçiriləcək “Nobel mükafatına aparan yolun dərsləri: mif, çətinliklər, uğurlar və çağırışlar” mövzusunda elmi konfransın təşkilat komitəsinin ilk iclası keçirilib.**



AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli qeyd edib ki, konfransın keçirilməsində başlıca məqsəd ölkəmizdə Nobel mükafatı haqqında maarifləndirmə işlərinin aparılması, Akademiya cəmiyyətinə Nobel mükafatının hərtərəfli tanıdılması, eləcə də Azərbaycandan da gələcəkdə Nobel mükafatına namizədlərin təşviq edilməsindən ibarətdir.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev, akademiklər – Arif Həşimov, Dilqəm Tağıyev, İradə Hüseynova, professor Kərim Şükürov, tarix elmləri doktoru Zemfira Hacıyeva, biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva, filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov və başqaları çıxış edərək elmin maddi-texniki bazasının möhkəmləndirilməsi və beynəlxalq elmi əlaqələrin genişləndirilməsinin Nobelə gedən yolda mühüm faktor olduğunu söyləyib, tədbirin Azərbaycan cəmiyyətində Nobel mükafatına dair maarifləndirmə işində faydalı olacağına diqqəti cəlb ediblər.

***“Xalq qəzeti”***

# Ölkəmiz Şimal–Cənub Dəhlizi üzrə öhdəlikləri uğurla yerinə yetirir

## *Bu yolla 2030-cu ilə qədər 30 milyon ton yük daşınması nəzərdə tutulub*

**Rusiyanın nəqliyyat naziri Vitali Savelevin mediaya məlumatında Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin zəruri seqmentini təşkil edən Qəzvin–Rəşt–Astara (İran)–Astara (Azərbaycan) dəmir yolunun 164 kilometrlik Rəşt–Astara hissəsinin tikintisinin 2028-ci ildə yekunlaşacağı bildirilib. Açıqlamada dəmir yolu hazır olduqdan sonra bu infrastrukturla il ərzində 1 milyon konteyner daşınmasının planlaşdırıldığı da qeyd edilib. Yolun Qəzvin–Rəşt hissəsi isə 2018-ci ildən istismardadır.**



Qəzvin–Rəşt–Astara (İran) – Astara (Azərbaycan) dəmir yolunun bir hissəsi olan Rəşt-Astara dəmir yolu respublikamızla İranın dəmir yolları sistemlərini birləşdirəcək. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin əsasını təşkil edən bu polad magistral ilə Avropa və Asiya arasında yükdaşımalar həyata keçiriləcək. Cənub Şərqi Asiya ölkələrindən yüklər İran və Azərbaycan ərazisindən Rusiyaya və Avropaya daşınacaq. Hindistanın Mumbay limanından çıxan yüklər İranın Bəndər-Abbas limanına, oradan isə qatarla Azərbaycan və Rusiyaya, eləcə də Avropaya çatdırılacaq.

Yeri gəlmişkən, cari ilin yanvar ayında Rəşt–Astara dəmir yolu tikintisinin gedişi barədə Rusiya mətbuatının yaydığı xəbərdə bu ölkənin sərmayəsi ilə həmin layihənin Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin çatışmayan halqası kimi 3 il ərzində inşasının nəzərdə tutulduğunu, bunun da verilən proqnozdan bir il az olduğu bildirilirdi. Eyni zamanda, razılaşmaya əsasən, iranlı podratçıların dəmir yolu xətti infrastrukturunu tam şəkildə həyata keçirəcəkləri vurğulanırdı.

Qeyd edək ki, o zaman Rusiya Prezidenti Vladimir Putinin xüsusi köməkçisinin rəhbərlik etdiyi nümayəndə heyəti də ölkənin nəqliyyat infrastrukturunun tikintisi və inkişafı şirkətinin rəsmiləri ilə birlikdə Rəşt-Astara dəmir yolu xəttində olmuş və görüləcək işlərlə bağlı fikir mübadiləsi aparmışdılar.

Xatırladaq ki, 2000-ci il sentyabrın 12-də Rusiya, İran və Hindistan arasında imzalanmış hökumətlərarası saziş əsasında Şimal-Cənub Nəqliyyat Dəhlizinin təməli qoyulub. Azərbaycan bu sazişə 2005-ci ildə qoşulub. Ümumilikdə 13 ölkə tərəfindən sözügedən sənəd ratifikasiya edilib (Azərbaycan, Belarus, Bolqarıstan, Ermənistan, Hindistan, İran İslam Respublikası, Qazaxıstan, Qırğızıstan, Oman Sultanlığı, Rusiya Federasiyası, Tacikistan, Türkiyə, Ukrayna).

Şimal-Cənub Nəqliyyat Dəhlizinin yaradılması ilə bağlı müvafiq saziş imzalayan adları çəkilən ölkələr qarşısında 2030-cu ilə qədər bu infrastrukturla 30 milyon ton tranzit və ikitərəfli yüklərin daşınması mühüm vəzifə kimi qoyulub. Tərəflərin dəhlizin inkişafı kontekstində öz əraziləri vasitəsilə nəqliyyat və tranzit əməliyyatlarının, habelə prosedurlarının asanlaşdırılması məsələləri ilə məşğul olmaq üçün Birgə İşçi Qrup da yaradılıb.

Qeyd edək ki, Şimal-Cənub Nəqliyyat Dəhlizi bütün region dövlətləri, o cümlədən qonşu İran üçün də mühüm önəm daşıyır. Bu baxımdan təkcə Rəşt-Astara dəmir yolu həm Rusiya, həm Azərbaycan, həm də İran üçün çox əhəmiyyətlidir.

Qeyd edək ki, Qəzvin–Rəşt–Astara (İran)–Astara (Azərbaycan) dəmir yolu xəttinin davamı olan Rəşt-Astara xətti İran, Azərbaycan və Rusiyanın dəmir yolu sistemlərini birləşdirəcək. Avropa və Rusiyadan Hindistana və digər Cənub Şərqi Asiya ölkələrinə yüklər məhz bu yolla daşınacaq. Yüklərin əks istiqamətə də bu yolla daşınması neft ixracatçısı olan Rusiya, İran və Azərbaycanın qeyri-neft sektorunun inkişafına təkan verəcək, bu ölkələr logistika mərkəzinə çevriləcək və büdcəyə əlavə valyuta axını təmin olunacaq.

**Ekspert rəyi**



**Mirağa ƏHMƏDOV, iqtisadçı-ekspert**

Bir sıra dövlətlər, o cümlədən Rusiya tərəfindən Qəzvin–Rəşt–Astara (İran)–Astara (Azərbaycan) dəmir yolunun tezliklə inşa etdirilib başa çatdırılmasına böyük maraq göstərilir. Yolun Qəzvin-Rəşt hissəsi artıq istismara verilib. Rəşt-Astara hissəsində isə işlər davam edir. Rusiya bu yolun elektrik xətlərinin çəkilməsi ilə yanaşı, onun tikintisinin sürətləndirilməsi üçün yardım edəcək.

Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinə daxil olan bu yolla yüklər Rusiyadan Fars körfəzi ölkələri, Hindistan və digər Cənub Şərqi Asiya ölkələrinə daşınacaq.

İrana tətbiq olunan iqtisadi sanksiyalar yolun tikintisinə üçün maliyyə vəsaitinin ayrılmasına maneələr yaradır. Rusiya Rəşt-Astara dəmir yolunu tez bir zamanda istifadəyə verilməsinə çalışır ki, Asiya ölkələri ilə ticarət əlaqələrini genişləndirsin. Azərbaycan ərazisindən keçəcək bu yol Rusiya, Azərbaycan və İranın dəmir yolları sistemlərini birləşdirəcək. Azərbaycan tranzit ölkə olaraq üzərinə götürdüyü öhdəlikləri yerinə yetirib. Yol hazır olduqdan sonra hər 3 dövlətin ticarət və tranzit əlaqələri artacaq ki, bu da büdcə gəlirlərinə valyuta axınını reallaşdıracaq.

Mühüm önəm daşıyan bu polad magistral Qəzvin-Rəşt-Ənzəli-Astara marşrutu ilə Azərbaycanın dəmir yolu xəttinə qoşulacaq. Bununla da o, beynəlxalq əhəmiyyətli dəmir yoluna çevriləcək. Çünki İran dəmir yolu xəttinin sözügedən marşrut ilə Azərbaycana birləşməsi ilə Hindistandan Avropanın Helsinki limanınadək olan 5 min 200 kilometrlik dəmir yolu xətti yaranacaq. Bu, təbii ki, beynəlxalq dəmir yolu xətti sayılacaq. Bu birləşmə ilə yüklərin daşınma müddəti 45 gündən 20 günədək azalacaq, məsafə isə təxminən 3 min kilometr qısalacaq. Bu, dəmir yolu daşımalarında böyük hadisədir.

Layihənin yalnız birinci mərhələsinin başa çatması İranla Azərbaycan arasında yük daşımalarının 10 dəfəyədək artımını təmin edəcək. Bundan başqa, iki ölkənin dəmir yollarının birləşdirilməsilə mal mübadiləsinin həcmi ildə 5 milyon tonadək artacaq.

Dəhlizin yaradılmasında məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılma müddətini azaltmaqdır (hazırkı marşrut üzrə çatdırılma vaxtı 6 həftədən artıqdır, Şimal-Cənub Nəqliyyat Dəhlizi vasitəsilə 3 həftə olması gözlənilir).

Yeri gəlmişkən, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan seqmenti olan və yeni inşa edilən Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun İranla dövlət sərhədinədək olan hissəsinin tikintisi də yekunlaşmaq üzrədir. Layihə Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 204-cü kilometrlik hissəsindən başlayaraq 3,05 kilometrlik hissəsini əhatə edir. I texniki dərəcəyə uyğun olaraq inşa edilən yol 4 hərəkət zolaqlı olmaqla eni 26,5 metrdir.

Yolun tikintisi Şimal–Cənub Nəqliyyat Dəhlizi üzrə qonşu ölkəyə, o cümlədən əks istiqamətdə gedən avtonəqliyyat vasitələrinin rahat və təhlükəsiz hərəkətini təmin edəcək. Bundan başqa avtonəqliyyat vasitələrinin Astara şəhər mərkəzinə daxil olmadan hərəkətini reallaşdıracaq ki, bu da həm əhalinin, həm də yoldan istifadə edən sürücülərin rahatlığı və təhlükəsizliyi baxımından mühüm önəm daşıyacaq.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

# Azərbaycan–Türkiyə: işgüzar dialoq



**İqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkiyənin ticarət naziri Ömer Bolat arasında görüş keçirilib.**

Görüşdə nazir Mikayıl Cabbarov Azərbaycan və Türkiyə arasında qardaşlıq və müttəfiqlik əlaqələrinin iqtisadi sahədə də əməkdaşlığı, birgə təşəbbüslərin reallaşdırılmasını sürətləndirdiyini deyib. Qeyd edilib ki, Türkiyə Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və iki ölkə arasında Preferensial Ticarət Sazişi və bu Sazişə dəyişiklik haqqında Protokol iqtisadi-ticarət əməkdaşlığımızın gücləndirilməsinə əlavə stimul verir. Qardaş ölkələr arasında uğurlu investisiya tərəfdaşlığı həyata keçirilir, ticarət dövriyyəsi artır. Vurğulanıb ki, Azərbaycan və Türkiyənin iştirakı ilə həyata keçirilən genişmiqyaslı layihələr regional əməkdaşlığı şaxələndirməklə yanaşı, bölgənin mənzərəsini dəyişir. Görüşdə Mikayıl Cabbarov Azərbaycan iqtisadiyyatı barədə məlumat verib, Türkiyə ilə iqtisadi əlaqələrin möhkəmləndirilməsi barədə fikirlərini bölüşüb.

Ömer Bolat ortaq dəyərlərə malik olan ölkələrimizin dostluq və qardaşlıq münasibətlərini, strateji tərəfdaşlığını vurğulayıb, Azərbaycan–Türkiyə işgüzar dairələri arasında dialoqun gücləndirilməsi istiqamətləri barədə fikirlərini bildirib, iqtisadi potensialımızın tam həcmdə reallaşdırılmasının önəmini diqqətə çatdırıb.

Görüşdə iqtisadi əlaqələrin genişləndirilməsinə xidmət edən birgə təşəbbüslər, nəqliyyat, müasir standartlaşdırma və texniki tənzimləmə sistemi sahəsində əməkdaşlıq imkanları nəzərdən keçirilib.

***"Xalq qəzeti"***

# "AzərEnerji" Özbəkistan Milli Elektrik Şəbəkəsi ilə memorandum imzalayıb

**Azərbaycanda səfərdə olan Özbəkistan Milli Elektrik Şəbəkəsinin rəhbər heyəti "AzərEnerji" ASC-nin elektrik stansiyaları, yarımstansiyaları, laboratoriya, tədris və rəqəmsal idarəetmə mərkəzlərində olub, bir sıra görüşlərdə iştirak edib.**



ASC-nin sədri Baba Rzayev və digər şəxslərlə Özbəkistan enerji sisteminin rəhbər heyətinin görüşlərində hər iki ölkənin enerji sistemləri arasında əməkdaşlıq münasibətlərinin mövcud vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Səfərin sonunda "AzərEnerji" ilə Özbəkistan Milli Elektrik Şəbəkəsi arasında memorandum imzalanıb. Memorandumda respublikamızın enerji sisteminin təcrübəsindən faydalanmaq və hər iki ölkənin enerji sahəsində əməkdaşlığının genişləndirilməsi qarşıya mühüm vəzifə kimi qoyulub.

Səfər çərçivəsində Özbəkistan nümayəndə heyətinə "Azərenerji" ASC-nin elektrik stansiyaları, yarımstansiyalar, Rəqəmsal İdarəetmə və yeni SCADA sistemi, bu sistemlərin tətbiqi zamanı vacib olan amillər, proqram təminatı, avtomatika və digər sahələr üzrə geniş məlumatlar verilib.

***"Xalq qəzeti"***

# TAP Avropaya 6,3 milyard kubmetr "mavi yanacaq" çatdırıb

***Cari ilin yanvar–iyun aylarında Azərbaycan təbii qazını Avropaya nəql edən Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə 6,3 milyard kubmetr həcmində "mavi yanacaq" ötürülüb.***

TAPAG konsorsiumunun məlumatına görə, bunun 5 milyard kubmetri İtaliyaya, 0,4 milyard kubmetri Yunanıstana və təxminən 0,8 milyard kubmetri Bolqarıstana daşınıb.

Ümumilikdə isə, 2020-ci ilin dekabrın 31-dən indiyədək TAP vasitəsilə 25,8 milyard kubmetr qaz nəql edilib. Bunun 1,22 milyard kubmetri Bolqarıstana, 2,8 milyard kubmetri Yunanıstana, 21,6 milyard kubmetri isə İtaliyaya göndərilib.

Qeyd edək ki, hazırda kəmərin illik ötürücülük qabiliyyəti 12 milyard kubmetr qaz təşkil edir. Azərbaycanla Avropa İttifaqı arasında imzalanmış sazişə əsasən isə, yaxın 5 ildə Avropaya qaz nəqli 20 milyard kubmetrə çatdırılacaq.

***"Xalq qəzeti"***

# Aqrar sığorta fermerləri təbiətin şıltaqlığından qoruyur

## *Sığorta ödənişi ötən il 55 dəfə, 6 ayda isə 4,5 dəfə artıb*

**Bu ilin yay aylarında ölkəmizdə hava şəraitinin qeyri-sabit keçməsi, xüsusən də bölgələrdə normadan artıq yağıntıların düşməsi aqrar sektorda bir sıra çətinliklərə səbəb olub. Təbiətin şıltaqlığı əksər bölgələrdə vətəndaşların əmlakına, həyətyanı və əkin sahələrinə, təsərrüfatlara, xüsusilə də heyvandarlıq və arıçılıq təsərrüfatlarına ciddi ziyan vurub.**



Bütövlükdə isə, 2023-cü ilin ötən dövrü ölkəmiz üçün qeyri-sabit hava şəraiti ilə xarakterizə olunub. Təbiət hadisələrindən ən çox Gədəbəy, Daşkəsən, Tovuz, Göygöl, Naftalan, Yevlax, Qusar, Quba, İsmayıllı, Goranboy, Şabran, Şəki, Qax və Cəlilabad rayonlarının fermerləri ziyan görüblər. Bu səbəbdən ötən müddətdə kənd təsərrüfatı sahəsində baş vermiş sığorta hadisələri ilə bağlı müraciətlərin sayı xeyli artıb. Ümumilikdə isə ilin əvvəlindən bəri əkin sahələrinə dəyən zərərlərlə bağlı Aqrar Sığorta Fonduna 7 minədək müraciət daxil olub.

Yeri gəlmişkən, Azərbaycanda aqrar sığortanın tətbiqi Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən iqtisadi islahatların tərkib hissəsidir. Xatırladaq Prezident İlham Əliyev 2019-cu il avqustun 19-da ölkəmizdə "Aqrar Sığorta Fondunun yaradılması barədə" fərman imzalayıb. Dövlət başçısının 27 iyun 2019-cu il tarixində imzaladığı "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu isə 2020-ci il yanvarın 1-dən qüvvəyə minib. Həmin sənədlər kənd təsərrüfatında risklərin sığortalanması ilə bağlı münasibətləri tənzimləyir, aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir.

Dövlət başçısının imzaladığı məlum fərmana əsasən, ölkəmizdə aqrar sığorta sisteminin təşkilini, inkişafını və dayanıqlılığını, eləcə də idarəedici qurumun formalaşdırılmasını təmin edən və onun fəaliyyətinə nəzarəti həyata keçirən Aqrar Sığorta Fondu qeyri-kommersiya hüquqi şəxs yaradılıb. Ölkəmizdə aqrar sığorta mexanizminin tətbiqindən isə 3 ilə yaxın vaxt keçir. Bu mexanizmin işə düşməsi ötən müddətdə Azərbaycanda dövlət-özəl sektor tərəfdaşlığına mühüm töhfələr verib.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ilin 6 ayı ərzində Azərbaycanda cari ilin məhsulu üçün 350 min 47 hektar sahədə yazlıq bitkilərin əkini aparılıb. Artıq əkin sahələrinin böyük hissəsi sığrta sistemi ilə əhatə olunub. Bu da ölkədə sığorta sisteminə olan inamın bariz nümunəsidir. Aqrar Sığorta Fondunun İdarə Heyətinin sədri Fuad Sadıqovun da qeyd etdiyi kimi, Azərbaycanda aqrar sığorta sisteminin tətbiqinin əsas məqsədi təsərrüfat sahiblərini və fermerləri gözlənilməz təbiət hadisələrindən müdafiə etmək üçün işlək bir mexanizmin yaradılmasından ibarətdir. Son aylar ölkə ərazisində baş verən leysan yağışları, sel-subasma da daxil olmaqla, demək olar ki, bütün təbii fəlakət riskləri–fırtına, sel, qasırğa, tufan, dolu və digər hadisələrin sığorta təminatına daxil olduğunu bildirən F.Sadıqovun sözlərinə görə, bütün bunlar aqrar sığorta tərəfindən qarşılanır. O, həmçinin qeyd edib ki, son iki ayda havaların qeyri-sabit keçməsi nəticəsində zərər görənlər arasında sığortalı təsərrüfatlar da var və onlara dəymiş ziyan Aqrar Sığorta Fondu tərəfindən ödəniləcək.

Bu arada, Aqrar Sığorta Fondu 2023-cü ilin yanvar-iyun ayları ərzində sığortalanan təsərrüfatları və toplanan sığorta haqlarının həcmini açıqlayıb. Fonddan verilən məlumata görə, cari ilin ilk 6 ayı ərzində 326 min hektar əkin sahələrinin sığortalanması barədə müqavilələr imzalanıb. Bu isə ölkənin əkinə yararlı ərazilərinin dörddə biri deməkdir. Həmin müqavilələr üzrə fermer və təsərrüfat sahiblərinə 437 milyon manatlıq sığorta təminatı verilib. Ən çox sığortalanan əkinlər – buğda, arpa, pambıq, qarğıdalı, fındıq, şəkər çuğunduru, çəltik və üzüm sahələri, eləcə də meyvə bağlarıdır. Bütövlükdə isə, ölkəmizdə sığortalanan bitkilərin sayı 14-dən 41-ə çatdırılıb. 2021-ci ildə müxtəlif bitki növləri üzrə 27 min müqavilə bağlandığı halda, ötən il bu rəqəm 46 min təşkil edib. Bir məqamı da diqqətə çatdıraq ki, 2022-ci ildə bitkiçilik üzrə 2,6 milyon manat sığorta ödənişi edilib. Müqayisə üçün qeyd edək ki, 2021-ci ildə bu məbləğ cəmi 151 min manat olub. Bu da 55 dəfədən çox artım deməkdir.

Cari ilin 6 ayında isə bu sahədə rekord göstərici qeydə alınıb. Belə ki, hesabat dövründə bitkiçilik, əkin sahələrinin sığortası üzrə 11 milyon manat həcmində sığorta haqqı ödənilib. Məlum olduğu kimi, qanunvericiliyə əsasən, fermerlərə dövlət dəstəyi məqsədilə sığorta haqlarının 50 faizi dövlət tərəfindən ödənilir. Buna uyğun olaraq əkin sahələri üzrə sığorta haqlarının 5,5 milyon manatı fermerlər tərəfindən, digər 5,5 milyon manatı isə fermerlərə dəstək üçün dövlət tərəfindən ödənilib.

2023-cü ilin yanvar-iyun aylarında Aqrar Sığorta Fondu tərəfindən 4506 kənd təsərrüfatı heyvanı sığortalanıb. Sığortalanan heyvanlardan 4010-u iri buynuzlu (inək və camışlar) və 496-sı isə xırda buynuzlu (qoyunlar) heyvanlardır. İlin ilk yarısında heyvan sığortaları üzrə verilmiş sığorta təminatı 20,6 milyon manat təşkil edib. Heyvandarlıq sığortası üzrə 2 milyon 154 min manat sığorta haqqı toplanıb. Həmin vəsaitin yarısı, yəni 1 milyon 77 min manatı fermerlər tərəfindən, digər yarısı isə fermerlərə dəstək məqsədilə dövlət tərəfindən ödənilib.

Yeri gəlmişkən, ölkəmizdə Aqrar Sığorta Fondunun yaradılmasından sonra aqrar sığorta xidmətlərinin əlçatanlığı xeyli artıb. Müqayisə üçün deyək ki, 2020-ci ildə bitkiçilik sığortası üzrə toplanan vəsait cəmi 1700 manat təşkil etdiyi halda, 2021-ci ildə bu rəqəm 6 milyon manata, ötən il isə 9 milyon manata çatıb. Bu da fermerlərin və təsərrüfat sahiblərinin Aqrar Sığorta Fonduna olan inamından irəli gəlir. Fonddan verilən məlumata görə, ötən il 2 milyon 400 min manatdan çox sığorta ödənişi həyata keçirilib. Bununla yanaşı, il ərzində bağlanmış müqavilələr üçün 1 milyon manatlıq ehtiyat yaradılıb.

Azərbaycanda aqrar sığortanın bir istiqaməti də quraqlıqla bağlıdır. Qeyd edək ki, cari ilin ötən dövründə müşahidə olunan yağıntılı hava şəraitinə baxmayaraq, ayrı-ayrı günlərdə həddindən artıq isti və quraq hava şəraitininin də şahidi oluruq. Qarşıdan isə yayın ən isti dövrü olan avqust ayı gəlir. Necə deyərlər, "qora bişən" günlər hələ qabaqdadır. Artıq yaxın gələcəkdə ölkəmizdə bu riskin də sığorta xidmətlərinə daxil edilməsi gözlənilir. Bununla bağlı Aqrar Sığorta Fondu 2023-2025-ci illərdə Azərbaycanda pilot lahiyə olaraq quraqlıq sığortasına başlamaq niyyətindədir. Bu məqsədlə hazırda İsveçrə və Türkiyə ilə təcrübə mübadiləsi aparılır. Eyni zamanda, ölkədə yağıntıların qeyri-bərabər paylanması ilə əlaqədar indeks əsaslı quraqlıq sığortasının tətbiqi istiqamətində araşdırmalar davam etdirilir.

Göründüyü kimi, Azərbaycan dövləti həmişə çətinliyə düşən fermer və təsərrüfat sahiblərinin yanındadır, dar gündə onların köməyinə çatır. Bu da ölkəmizdə həyata keçirilən uğurlu sosial siyasətin məntiqi nəticəsidir.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

# Bir şəklin tarixçəsi

## İrəvan xanlarının nəsil şəcərəsi mənbələrdə

(əvvəli 1-ci səhifədə)

Turhan Turqutun açıqlaması ümumi xarakter daşıyırdı. Yəni o, İrəvan xanlarının şəcərəsinin dərinliyinə getməyərək bəzi maraqlı, vacib məqamlardan söhbət açmışdı. Necə deyərlər, maraq mənə də güc gəldi. Çünki Naxçıvan xanlığının tarixini araşdırarkən İrəvan xanlığı ilə bağlı bir çox məsələlər də mənim üçün aydınlaşmışdı. Turhan Turqutla elektron poçt vasitəsilə tanışlıqdan sonra bir müddət hər gün məktublaşdıq.

İrəvan xanlığının tarixinə, azacıq da olsa, ekskurs edək. Bir çox arxiv mənbələrindən və İrəvan xanlığına aid yazılmış kitablardan məlum olur ki, Həsənəli xan Qacar 1755–1759-cu illərdə İrəvan xanlığını idarə etmişdir. “İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi” monoqrafiyasında öz əksini tapan Həsənəli xanın İrəvanın yerli Qacarlarından olduğu haqda məlumatı bir çox mənbələr təsdiqləyir. Və oradaca qeyd edilmişdir ki, Həsənəli xan Qacar hələ Nadir şah dövründə İrəvan hakimi olmuş və şah tərəfindən cəzalandırılaraq hər iki gözü çıxarılmışdı. 1759–1760-cı illərdə onu qardaşı Hüseynəli xan Qacar əvəz etmişdir.

Buradaca bir haşiyə çıxaq. Şəcərəşünas alim Ənvər Fərəcov “İrəvan xanları, onların mənşəyi, nəsilləri” adlı məqaləsində yazır: “Həsənəli xan İrəvanı yenidən qurmuş, iqtisadiyyatını dirçəltmiş, əhalisini yaxşı yaşamla təmin etmişdi. Həsənəli xanın Məhəmməd xan, Məhəmmədəli xan adlı oğulları vardı”.

Ənvər Fərəcovun yazdığından məlum olur ki, 1827-ci ilin iyununda Naxçıvandakı Abbasabad qalasında gedən döyüşlərdə 4 min bəxtiyarı və azərbaycanlı sərbaza Məhəmməd xan başçılıq edirmiş. Rusiya qoşunları qalanı tutandan sonra onu da Tiflisə əsir aparmışlar. Tədqiqatçı Həsənəli xanın və Hüseynəli xanın atasının Xəlil xan olduğunu da qeyd etmişdir. Bu, həmin Xəlil xandır ki, 1751–1755-ci illərdə İrəvana xanlıq etmişdir.

İrəvan şəhərində anadan olan Hüseynəli xan mükəmməl mədrəsə təhsili almışdı. O, qurucu, səxavətli bir xan olmuşdur. Hətta o, İrəvan şəhərini yenidən qurmaq üçün Xoy xanlığının baş memarı Mirzə Cəfəri İrəvana dəvət etmişdi. Bu haqda “İrəvan xanlarının diplomatik məktubları” külliyyatında ətraflı məlumat var. Görkəmli Azərbaycan memarı Mirzə Cəfər Xoylu məşhur Yeni Xan Sarayını tikmişdir. Azərbaycan memarlığının nadir incilərindən olan Göy məscidi Hüseynəli xan tikdirdiyi üçün onun şərəfinə hələ sağlığında və sonralar da bu məbəd “Hüseynəli xan məscidi” adlanmışdır. Həmin məscidi 1988-ci ildə erməni vandalları yandırmışlar.



1783-cü il noyabrın 9-da qiyamçılar Hüseynəli xanı öldürmüşlər.

Hüseynəli xan Naxçıvan xanı I Kalbalı xanın və Xoy xanı Əhməd xanın qayınatası idi. Hüseynəli xanın Qulaməli xan və Məhəmməd xan, Məhəmmədqulu xan adlı oğulları, Tükəzban xanım və Səltənət xanım adlı qızları olmuşdur. Digər övladları da ola bilər, hələlik kameral siyahılarda yuxarıda qeyd etdiklərimizin adlarına rast gəlmişik.

Qulaməli xanı 15 yaşında atasının ölümündən sonra xanlıq taxtına əyləşdirmişlər. O, cəmi 8 ay hakimiyyətdə qala bilmişdir. 1783-cü ildə hakimiyyətə gəlsə də, 1784-cü ilin yayında saray çevrilişi zamanı qətlə yetirilmişdir. Onun yerinə 12 yaşlı Məhəmməd xan (bəzi mənbələrdə Məhəmmədhüseyn) təyin olunmuşdur. Məhəmməd xan da atası Hüseynəli xan kimi qurucu və xeyirxah olmuşdur. O, kürəkənləri naxçıvanlı I Kalbalı xanla çox vaxt eyni diplomatiya apardığından Fətəli şahın qəzəbinə gəlmiş və 1806-cı ildə tutulub Tehran həbsxanasına aparılmışdır. Qeyd edək ki, o, Ağa Məhəmməd şah Qacarın da hakimiyyəti dövründə həbs edilmişdir. Sənədlərin dili ilə desək, Məhəmməd xan 1784-cü ildən 1805-ci ilin iyununa qədər İrəvana xanlıq etmişdir.

Məhəmməd xanın Rzaqulu xan, Həsənəli xan, Hüseynəli xan və Məhəmmədhüseyn xan adlı oğulları olmuşdur. Ənvər Fərəcovun yazdığına görə, onların 3-ü şair olub. Xəlil xanın 3-cü oğlu Məhəmmədhəsən xanı 1783-cü ildə qardaşı Hüseynəli xanla birlikdə öldürmüşlər.

Ənvər Fərəcovun araşdırmalarında İrəvan Qacarlarının bu qolu da Ziyadlılar kimi qeyd olunmuşdur. Bəzi kitablarda onlar Dəvəli Qacarlar kimi yazılmışdır. Xarici ölkələrdə yaşayan varislər isə Turqutlar olduqlarını yazırlar. Bizcə, İrəvanlı Hüseynəli xan Dəvəli Qacarlardandır. Hər halda bunun ciddi araşdırmaya ehtiyacı var. Çünki İrəvan xanlığında Dəvəli şəhəri olub və sovet hakimiyyəti illərində bu şəhəri Ararat adlandırıblar.

1806-cı ilin dekabrından 1827-ci il oktyabrın 13-dək İrəvana xanlıq edən Hüseynqulu xan Qacarın və qardaşı Sarı Aslanın (Həsən xanın) Hüseynəli xanla qohumluğu haqda hələ ki, baxdığımız sənədlərdə məlumata rast gəlmirik. Gürcüstan Milli Arxivində İrəvan xanı Məhəmməd xanın qardaşı Məmmədqulu xana məxsus olan bir arxiv qovluğunda onun hərbçi olması haqda məlumat vardır. Həmin sənəddən məlum olur ki, hərbi rütbəsi kapitandır. İrəvan xanlığı Rusiya tərəfindən işğal ediləndən sonra da İrəvanda yaşamış və xanlıq titulunu ondan almamışlar. Qeyd edək ki, ona məxsus arxiv işinin üzərində “Kapitan Məmmədqulu xan” yazılmışdır. Məmmədqulu xanın oğlanlarından biri Mehbalı xan olub. Bəzən sənədlərdə Möhbalı, Möhübəli xan kimi də qeydlərə rast gəlinir.

Naxçıvan tarixinin XIX yüzilliyin ikinci yarısından üzübəri açılmamış səhifələrini araşdırarkən İrəvan xanlarının varislərindən olan Abbasqulu xan İrəvanskinin adına tez-tez rast gəlirik. Bizim araşdırdığımız fotoşəkildə Abbasqulu xan İrəvanski ortada əyləşmişdir.

Abbasqulu xan Mehbalı xan oğlu, təxminən, 1830-cu ildə İrəvan şəhərində doğulmuşdur. Babası Məmmədqulu xan 1846-cı ildə vəfat edəndə Abbasqulu xanın 16 yaşı vardı. Abbasqulu xan gənc yaşlarından İrəvan quberniyasında nüfuzlu şəxsiyyətlərdən biri olmuşdur. Onun İrəvan şəhərində 1860-cı ildən gördüyü işlər haqqında o dövrün mətbuatı da ətraflı məlumat verir. Abbasqulu xan dövrünün ziyalısı kimi tanınmış, İrəvan Şəhər Dumasına üzv seçilmişdir (1882–1899). O, maarifçilik işlərində də öz maddi köməyini əsirgəməmişdir. Abbasqulu xan İrəvan rus-türk məktəblərinin fəxri nəzarətçisi vəzifəsini daşımaqla bərabər, xeyriyyəçilik də etmişdir. Onun haqqında “Qafqaz təqvimi”ndə və “Qafqaz” qəzetində belə materiallara daha çox rast gəlirik. Abbasqulu xan Naxçıvanla çox bağlı olmuşdur.

*Musa QULİYEV,*
*AMEA Naxçıvan Bölməsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*

**Qərbi Azərbaycan İcması Xankəndidəki qeyri-qanuni rejimin Azərbaycanın Qarabağ bölgəsində yaşayan əhaliyə ölkəmizin digər bölgələrindən çatdırılan yüklərin qarşısını alması nəticəsində yaranan vəziyyətə münasibət bildirib. Qurumun bununla bağlı dünən yaydığı açıqlamada deyilir:**

–Ermənistandan qovulmuş azərbaycanlıları birləşdirən və onların hüquqlarını müdafiə edən təşkilat kimi Qərbi Azərbaycan İcması Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərin re-inteqrasiyası istiqamətində Azərbaycan hökumətinin səylərini alqışlayır. Azərbaycan inklüziv və tolerant cəmiyyət nümayiş etdirməklə barışıq marşrutları tələb etməklə süni humanitar böhran yaratmaq cəhdlərindən ciddi narahatlıq ifadə olunur:

–Qərbi Azərbaycan İcması barışıq prosesinə mane olan, həmçinin sakinlərin həqiqi ehtiyaclarının siyasi məqsədlər üçün sui-istifadə olunduğu bu manipulyasiya xarakterli taktikaları qətiyyətlə pisləyir. Bundan əlavə, biz Avropa İtti-

# Ermənistan “humanitar fəlakət” şousuna son qoymalıdır

### *“Şantaj taktikası” çirkli diplomatik alət kimi keçərli deyil*



və Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüquqlarının bərpası ilə bağlı müsbət nümunə yaradır. Ümid edirik ki, Ermənistan Azərbaycanın bu nümunəsini nəzərə alacaq və anlaşma, dialoq və Qərbi Azərbaycandakı öz yurd-yuvalarından zorla qovulmuş azərbaycanlıların təhlükəsiz repatriasiyası, bu ölkədə çoxmillətli cəmiyyətin bərpası istiqamətində addımlar atacaq.

Təəssüf ki, Ermənistan Azərbaycanın bu xoşməramlı tədbirlərinə uyğun cavab addımları atmayıb. Ermənistan nəinki öz ərazisindən qovulmuş azərbaycanlıların geri qayıtmasına qətiyyətlə əngəl törədir, həm də Azərbaycanda məskunlaşan ermənilər arasında separatizmi fəal şəkildə təşviq etməklə gərginliyi artırmaqda davam edir. Ermənistanın hərəkətləri, o cümlədən Azərbaycanın Qarabağ bölgəsində qanunsuz hərbi birləşmələrini saxlaması və Xankəndidəki qeyri-qanuni rejimə maliyyə dəstəyi yalnız vəziyyəti gərginləşdirməyə və regional sabitliyi pozmağa xidmət edir. Bu hərəkətlər, arzuolunmaz siyasi şoular Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə, eləcə də Ermənistandan qovulmuş azərbaycanlıların fundamental hüquqlarına açıq-aşkar hörmətsizlikdir.

Açıqlamanın davamında Qərbi Azərbaycan İcmasının Ermənistanın və Xankəndidəki qeyri-qanuni rejimin ölkəmizin digər bölgələrindən Qarabağ ermənilərinə təchizatı əngəlləməklə və heç bir sərhəd və gömrük nəzarəti olmadan Xankəndiyə eksklüziv təchizat faqının (Aİ) bu məsələyə qarışmasına dərin təəssüfümüzü və qəti şəkildə narazılığımızı ifadə edirik. Aİ missiyasının Azərbaycan hökumətinin razılığı olmadan Azərbaycana daxil olmağa cəhd edən konvoyla yanaşı olması suverenlik və ərazi bütövlüyü prinsiplərinə xələl gətirir və Ermənistana yanlış siqnal ötürür.

Xatırlatmaq istərdik ki, Avropa İttifaqının (Aİ) Ermənistandakı missiyasının mandatına Ermənistanın Azərbaycanın suverenliyini pozmağa yönəlmiş hərəkətlərində iştirak etmək daxil deyil. Vaxtilə azərbaycanlıların məskunlaşdıqları ərazilərdə yerləşdirilmiş missiyanın mandatı münaqişənin Ermənistandan zorla qovulmuş azərbaycanlılara təsirini qiymətləndirmək, onların təhlükəsiz və ləyaqətlə öz evlərinə qayıtmasına imkan yaradan etimad tədbirlərini dəstəkləməkdən ibarətdir. Əgər Aİ həqiqətən də insan haqlarını müdafiə edirsə, onda o, Ermənistanın şantaj taktikasına ortaq olmaq əvəzinə, bizim geri qayıtmaq hüququmuzu dəstəkləməlidir.

Biz Ermənistan hökumətindən Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı qəsdini dərhal dayandırmasını tələb edirik. Ermənistan Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyasının qarşısını almaq məqsədi daşıyan bədxah fəaliyyətinə son qoymalı, “humanitar fəlakət” şousunu dayandırmalıdır. “Şantaj taktikası” artıq çoxdan çirkli diplomatik alət kimi keçərli deyil.

***“Xalq qəzeti”***

# Qərbi Azərbaycan faciələrinin xronologiyası

**Qərbi Azərbaycanda soydaşlarımızın qədimdən-qədim məskunluğu, bu əzəli türk yurdunun düşmən dairələrin qəsdləri ilə zaman-zaman erməniləşdirilməsi və XX əsrin əvvəllərində burada Ermənistan adlı oyuncaq dövlət yaradılması barədə silsilə tədqiqatların müəllifi, AMEA Tarix İnstitutunun baş direktotu, professor Kərim Şükürov bu başıbəlalı torpağı Rusiyanın işğal etməsi ilə başlayan faciələrinin ayrıca xronologiyasını da tərtib etmişdir. Həmin materialı oxucularımıza təqdim edirik.**

### Qərbi Azərbaycan Rusiya imperiyası tərkibində

***1747–1827. Azərbaycanın mərkəzi İrəvan şəhəri olan İrəvan xanlığı. İrəvan xanlığının yaranması ilə Qərbi Azərbaycan torpaqlarının xeyli hissəsi Azərbaycanın xanlıqlar dövrünün müstəqil dövlətlərindən birinə çevrilmişdir. Rusiya imperiyasının XIX əsrin əvvəllərində Cənubi Qafqazda hakimiyyət uğrunda mübarizəsində İrəvan xanlığının və Qərbi Azərbaycan ərazisinə daxil olan digər ərazilərin işğalı əsas yerlərdən birini tuturdu. 1804–1813-cü illər müharibəsi zamanı bu planı həyata keçirmək mümkün olmadı. 13 illik fasilədən sonra yeni müharibə başlandı.***

### 1. İrəvanın işğalı və ilk erməniləşdirmə tədbirləri

**1826–1828-ci illər.** Rusiya ilə İran arasında yeni müharibə. Onun mərkəzi məsələsi Rusiya imperiyası ilə İrəvan xanlığı arasındakı müharibə idi. Belə ki, məhz İrəvan xanlığının süqutundan sonra, Rusiya qoşunları Arazı keçərək Cənubi Azərbaycan ərazisinə daxil olmuşdur.

**1827, 1 oktyabr.** Rusiya–İran müharibəsinin (1826–1828-ci illər) gedişində İrəvan şəhərinin Rusiya imperiyası tərəfindən tutulması. Xanlığın işğalının başa çatdırılması və ləğvi. İrəvan əyalətinin yaradılması.

**1827, oktyabr–1917, oktyabr.** Qərbi Azərbaycan Rusiya imperiyası tərkibində. Əvvəlki dövrlərdə Rusiya imperiyasına ilhaq edilən digər Azərbaycan torpaqları kimi onun tarixi qərb ərazisi də xristian dövlətin hakimiyyəti altına düşdü. Rusiya imperiyasının burada xristianlaşdırma və erməniləşdirmə siyasəti simmetrik olaraq azərbaycanlıların hüquqlarının pozulması idi.

**1827, 6 oktyabr.** Qafqazdakı rus qoşunlarının baş komandanı İ.F.Paskeviç tərəfindən İrəvan əyalətinin idarəsi üçün ümumi qaydalar hazırlanması. Qaydalara görə, mülki hissə üzrə işlərin aparılması üçün Müvəqqəti idarə yaradılır. Sədri A.İ.Krasovski, üzvləri isə yepiskop Nerses və İrəvan qalasının müvəqqəti komendantı A. Borodin olur.




**1828, 10 fevral.** Rusiya–İran Türkmənçay müqaviləsi. Naxçıvan və İrəvan xanlıqlarının Rusiya imperiyasına ilhaq edilməsinin rəsmiləşdirilməsi. Türkmənçay ilə Rusiya və İran arasında Azərbaycan torpaqlarının bölüşdürülməsi başa çatdırıldı. Rusiya imperiyasının hakimiyyətinə keçən ərazilərdə müstəmləkə sistemi bərqərar edildi. Onun əsas göstəricilərindən biri etnik-milli ərazilərin süni şəkildə yaradılmış inzibati vahidlər arasında bölüşdürülməsi idi. Rusiya imperiyasının Cənubi Qafqazda apardığı inzibati-ərazi bölgüsü müəyyən dərəcədə sabitləşdikdə burada 5 quberniya – Tiflis, İrəvan, Bakı, Kutais və Yelizavetpol (Gəncə) mövcud idi. Azərbaycan torpaqları 4 quberniya (Kutais istisna olmaqla) arasında bölüşdürülmüşdü.

Qərbi Azərbaycan ərazisində müstəmləkə rejimi müəyyən xüsusiyyətləri ilə fərqlənmiş, daha ağır formada təzahür etmişdir. Erməni tarixşünaslığı isə tarixi Azərbaycanın qərb torpaqlarına dair “Şərqi Ermənistan”, Şərqi Anadolu torpaqlarına dair isə “Qərbi Ermənistan” və ya “Türkiyə Ermənistanı” kimi qeyri-elmi konsepsiyalar yaratmağa cəhd edir, “Şərqi Ermənistan”ın Rusiya imperiyası tərkibində tərəqqisini əsaslandırmağa çalışır.

**1828–1831.** Türkmənçay, sonra isə Ədirnə (1829) müqavilələrinə görə, ermənilərin kütləvi şəkildə Şimali Azərbaycana, o cümlədən keçmiş İrəvan xanlığı ərazisinə köçürülməsi. Polkovnik L.Lazarevin (Lazaryanın) Paskeviçə 14 iyun 1828-ci il raportuna əsasən, İrandan köçürülən 7 min 458 erməni ailəsinin 3 min 900-ü (52,3 faizi) İrəvan əyalətində yerləşdirilmişdir. Rəsmi statistik məlumata görə, 1829–1831-ci illərdə köçürülən erməni ailələrin sayı 6 min 946 (35 min 560 nəfər) idi. Onlardan 366 ailə (1715 nəfər) İrəvan şəhərində, müvafiq olaraq 4 min 193 (21 min 853 nəfər) İrəvanın 10 mahalında yerləşdirilmişdi. İrəvan şəhəri və mahallar üzrə bu rəqəmlər 4 min 559 ailə (65,6 faiz ) təşkil edirdi. Əslində, bu rəqəmlər daha yüksək idi. Ədirnə müqaviləsi üzrə Osmanlı imperiyasından köçürülən erməni ailələrinin sayı isə 14 min və ya 100 min nəfərdən çox idi. İrandan köçürülənlər ilə birlikdə ümumi say 145 minə çatırdı. Rus batalist rəssam Moşkov (Maşkov) bu hadisəni “40 min erməninin polkovnik Lazarevin şəxsi sərəncamı ilə rus hüdudlarına köçürülməsi” adlı rəsm əsərində təsvir etmişdir.

### 2.“Erməni vilayəti”: ermənilərin institutlaşdırılması siyasəti

**1828, 21 mart,** I Nikolayın (1825–1855) fərmanı ilə Azərbaycanın İrəvan və Naxçıvan xanlıqlarının əsasında “Erməni vilayəti”nin yaradılması. Rusiya işğalının ilk dövründə tutulan Azərbaycan xanlıqlarına münasibətdə müəyyən siyasi xətt formalaşmışdı. Müqavimət göstərən xanlıqlar ləğv edilib, əyalətə çevrilirdi. Müqavilə ilə tutulan xanlıqlarda müvəqqəti olaraq xanlıq sistemi saxlanırdı. İrəvan və Naxçıvan xanlıqlarına münasibətdə isə daha kəskin bir anti-Azərbaycan addımı atılır. Tarixi Azərbaycan torpaqlarında heç bir əsas olmadan “Erməni vilayəti” təşkil edilir. Məsələ bununla da bitmir. Azərbaycanın işğal edilmiş digər ərazilərindən fərqli olaraq bu vilayət imperatorun tituluna daxil edilir.

**1829–1873.** “Erməni vilayəti”, sonralar isə İrəvan qəzası və quberniya üzrə əhaliyə dair əsas mənbələrdən olan kameral təsvirlərin keçirilməsi.

**1829–1832.** İ.Şopen tərəfindən (məşhur bəstəkarın qohumu idi) “Erməni vilayəti”ndə kameral təsvirin keçirilməsi. İrəvanın Rusiya tərəfindən işğalından sonrakı vəziyyətdə İrəvan əhalisinin sayı və etnik tərkibi haqqında da məlumat verir. Bu rəqəmlər sonrakı dövr üçün baza rolunu oynadığından onları xüsusi qeyd etmək lazımdır. Müsəlmanların sayı: ailələr 1807, kişilər 3 min 749, qadınlar 3 min 582– cəmi 7 min 331 nəfər. Onu da nəzərə almaq lazımdır ki, işğal prosesində müsəlman əhalinin müəyyən hissəsi şəhəri tərk etmişdi. Şopen erməniləri iki yerə bölür: yerlilər (əslində, bunlar daha əvvəl gələnlər idi) və gəlmələr. “Yerli”lərin sayı belə idi: ailələr 567, kişilər 1220, qadınlar 1149 – cəmi 2 min 369 nəfər. Gəlmələr İran və Türkiyə olmaqla 2 yerə bölünür. İrandan gələnlər: ailələr 366, kişi 903, qadın 812 – cəmi 1715 nəfər. Türkiyədən gələnlər: ailələr 11, kişi 25, qadın 23 – cəmi 48 nəfər.

Rəqəmlərdən göründüyü kimi, gəlmələr nəzərə alınmasa İrəvanın əhalisi 9 min 700 nəfər idi ki, onun da 75,58 faizi müsəlmanlar, 24,42 faizi isə “yerli” ermənilər idi. Köçürmə nəticəsində İrəvan əhalisinin etnik tərkibinin dəyişdirilməsi başlanır. Belə ki, köçürülən ermənilərin sayı (1763 nəfər) mövcud əhalinin (9 min 700 nəfər) 18,17 faizini təşkil edirdi. Bunun nəticəsində ümumi əhali içərisində (11 min 463 nəfər) müsəlmanlar 63,9 faiz, ermənilər isə 36,05 faiz oldu. Çar hökumətinin siyasətinə baxmayaraq, 1918-ci ilədək İrəvan şəhərini ermənilərin nə siyasi, nə də iqtisadi mərkəzinə çevirmək mümkün olmadı. Bu ərazilər ermənilərin vətən anlayışına da daxil olmamışdır. Erməni siyasiləri və kapitalı, əsasən, Bakı və Tiflisə can atırdı.

**1833, 27 fevral.** “Erməni vilayəti”nin gerbinin qəbul edilməsi. Bu vilayətin, sonra isə İrəvan qəzası (1843) və quberniyasının (1878) gerblərinin təhlili (hər bir halda gerblərdə erməni və xristian atributları aparıcı element kimi verilmişdir) göstərir ki, I Nikolay inadla İrəvan bölgəsinin erməniləşdirilməsi və xristianlaşdırılmasına nail olmağa çalışmış, varisləri də bu siyasəti davam etdirmişdir.

**1833, 22 iyun.** “Erməni vilayəti”nin idarə quruluşu haqqında, bu idarənin ştatlarının əlavəsilə” adlı 16 maddədən ibarət çar fərmanı. Fərmana görə, İrəvanda vergi və mükəlləfiyyətlərin toplanması üzrə idarə yaradılırdı. 10 mahaldan ibarət olan İrəvan əyaləti İrəvan, Şərur, Sərdarabad və Sürməli dairələrinə bölünürdü. Polkovnik Ehsan xan və mayor Şıxəli bəy Naxçıvan və Ordubadda naib kimi qalırdı və s.

*(ardı var)*

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 235 Bakı şəhəri, 20 iyul 2023-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 13 may tarixli 187 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin müəyyən olunması meyarları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 13 may tarixli 187 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 5, maddə 549) ilə təsdiq edilmiş "Əlilliyin müəyyən olunması meyarları"nda aşağıdakı dəyişikliklər edilsin:

"Akronimlər" hissəsində iyirmi birinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və həmin hissəyə aşağıdakı məzmunda iyirmi ikinci abzas əlavə edilsin:

"**YFS** – yumaqcıq filtrasiya sürəti.".

2. "Əlilliyin müəyyən olunması meyarları"na Əlavə - "Orqanizmin funksiyalarının pozulmasının faiz göstəricisi və müddəti" üzrə:

2.1. 1-ci hissə üzrə:

2.1.1. 1.1.1-ci, 1.1.1.3-cü, 1.1.4-cü, 1.1.4.1-ci, 1.1.5.2-ci, 1.1.6.3-cü və 1.1.7.2-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| 1.1.1. | emfizema | J43 | | |
| | digər xroniki obstruktiv ağciyər xəstəliyi | J44 | | |
| | bronxoektaziya xəstəliyi | J47 | | |
| | xarici amillərin təsirindən yaranan ağciyər xəstəlikləri | J60-J70 | | |
| | əsasən interstisial toxumanı zədələyən digər respirator xəstəliklər | J80-J84 | | |
| | aşağı tənəffüs yollarının irinli və nekrotik halları | J85-J86 | | |
| | tənəffüs sistemi orqanlarının digər xəstəlikləri | J95-J99 | | |
| | tənəffüs orqanlarının anadangəlmə inkişaf qüsurları | Q30-Q34 | | |
| 1.1.1.3. | ağır forma, davamlı residivləşən gedişat, daimi ağır təngnəfəsliklər, hiperkapniya, xroniki respirator hipoksemiya, xroniki respirator alkaloz, III dərəcəli xroniki tənəffüs çatışmazlığı və ya IIB və III dərəcəli xroniki ağciyər-ürək çatışmazlığı ilə | | 85-100 | müddətsiz |
| 1.1.4. | ağciyər sarkoidozu | D86.0 | | |
| | limfa düyünlərinin sarkoidozu | D86.1 | | |
| | limfa düyünlərinin sarkoidozu ilə birgə müşahidə olunan ağciyər sarkoidozu | D86.2 | | |
| | digər dəqiqləşdirilmiş və kombinə olunmuş lokalizasiyalı sarkoidoz | D86.8 | | |
| 1.1.4.1. | tənəffüs orqanlarının funksiyasının mülayim dərəcə pozuntusu - ağciyər sarkoidozu (və ya) limfa düyünləri sarkoidozu ilə II dərəcə ağciyər sarkoidozu, fəal mərhələ, I dərəcə tənəffüs çatışmazlığı ilə | | 40-60 | 2 il |
| 1.1.5.2. | ağır dərəcəli klinik təzahür, IIB-III dərəcəli xroniki tənəffüs çatışmazlığı ilə, fəsadlaşmalar və (və ya) digər orqanların kombinə edilmiş zədələnmələri ilə | | 65-80 | 2 il |
| 1.1.6.3. | multirezistent və ya çoxsaylı dərmanlara davamlı (MDR) vərəm (infiltrasiya, dağılma, yayılma mərhələsi, VMB+ və ya VMB-) | | 85 | 2 il |
| 1.1.7.2. | II-III dərəcə xroniki ağciyər-ürək çatışmazlığı ilə müşayiət olunan tənəffüs orqanlarının vəreminin və dəqiqləşdirilməmiş vərəmin gecikmiş fəsadları (bronxoektaziya, fibroz, fibrozlu-ocaqlı, bulloz-distrofik, kalsinatlar, plevropnevmoskleroz, sirroz, cərrahi müdaxilə nəticələri) | | 85-100 | müddətsiz |

2.1.2. 1.1.1.1-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda nöqtəli vergül işarəsi vergül işarəsi ilə əvəz olunsun və həmin yarımbəndə ikinci halda "çatışmazlığı" sözündən sonra "ilə" sözü əlavə edilsin;

2.1.3. 1.1.1.2-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda nöqtəli vergül işarəsi "və ya" sözləri ilə əvəz olunsun və həmin yarımbəndə ikinci halda "çatışmazlığı" sözündən sonra "ilə" sözü əlavə edilsin;

2.1.4. aşağıdakı məzmunda 1.1.1.4-cü, 1.1.3.4-cü, 1.1.4.1-1-ci və 1.1.7.1-1-ci yarımbəndlər əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 1.1.1.4. | 18 yaşınadək şəxslərdə tənəffüs çatışmazlığı olmadan (əməliyyatdan əvvəlki hal) | | 40 | 2 il |
| 1.1.3.4. | bir ağciyərin olmaması | | 50 | müddətsiz |
| 1.1.4.1-1. | tənəffüs orqanlarının funksiyasının əhəmiyyətli dərəcə pozuntusu - ağciyər sarkoidozu (və ya) limfa düyünləri sarkoidozu ilə III dərəcə ağciyər sarkoidozu, fəal mərhələ, II dərəcə tənəffüs çatışmazlığı ilə | | 65-80 | 5 il |
| 1.1.7.1-1. | IIB-III dərəcə xroniki tənəffüs çatışmazlığı ilə müşayiət olunan tənəffüs orqanlarının vəreminin və dəqiqləşdirilməmiş vərəmin gecikmiş fəsadları (bronxoektaziya, fibroz, fibrozlu-ocaqlı, bulloz distrofik, kalsinatlar, plevropnevmoskleroz, sirroz, cərrahi müdaxilə nəticələri) | | 65-80 | 2 il |

2.1.5. 1.1.2-ci yarımbəndin ikinci-beşinci abzasları, 1.1.9-cu, 1.1.9.1-1.1.9.3-cü yarımbəndlər ləğv edilsin;

2.1.6. 1.1.2.2-ci və 1.1.2.3-cü yarımbəndlərin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda ikinci halda "və" sözü "və ya" sözləri ilə əvəz edilsin;

2.1.7. 1.1.3-cü yarımbəndə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | ağciyərin qazanılma olmaması (və ya hissəsinin) | Z90.2 | | |

2.1.8. 1.1.4.2-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatış-mazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütunundan "(III)" rəqəmi çıxarılsın;

2.1.9. 1.1.5.1-ci və 1.1.6.1-ci yarımbəndlərin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda "I-II" rəqəmləri "I-IIA" sözləri ilə əvəz edilsin;

2.1.10. 1.1.6.2-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda "II-III" rəqəmləri "IIB-III" sözləri ilə əvəz edilsin;

2.1.11. 1.1.6.4-cü yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda "AÜÇ II-III dərəcə" sözləri "II-III dərəcə xroniki ağciyər-ürək çatışmazlığı ilə" sözləri ilə əvəz edilsin;

2.1.12. 1.1.7.1-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda "II" rəqəmi "I-IIA" sözləri ilə əvəz edilsin;

2.1.13. 1.1.8-ci yarımbəndə aşağıdakı məzmunda ikinci və üçüncü abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | miliar vərəm | A19 | | |
| | tənəffüs orqanlarının vərəmi və dəqiqləşdirilməmiş vərəmin uzaq nəticələri | B90.9 | | |

2.2. 2-ci hissə üzrə:

2.2.1. 2.1-ci, 2.2-ci, 2.5-ci və 2.9-cu bəndlər, 2.6.1.1-2.6.1.3-cü, 2.6.2.1-ci və 2.7.1-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| 2.1. | Qan təzyiqinin yüksək olması ilə səciyyələnən xəstəliklər | I10-I15 | | |
| | Serebrovaskulyar xəstəliklər | I60-I69 | | |
| | Qiymətləndirmə | | | |
| 2.1.1. | arterial hipertenziya I-III dərəcə, hipertoniya xəstəliyi III mərhələ, hədəf orqanların funksiyalarının mülayim pozulması (zədələnməsi) ilə | | 35-60 | 1 il |
| 2.1.2. | arterial hipertenziya I-III dərəcə, hipertoniya xəstəliyi III mərhələ, hədəf orqanların funksiyalarının ciddi pozulması (zədələnməsi) ilə | | 65-80 | 2 il |
| 2.1.3. | arterial hipertenziya I-III dərəcə, hipertoniya xəstəliyi III mərhələ, hədəf orqanların funksiyalarının ağır pozulması (zədələnməsi) ilə | | 85-100 | müddətsiz |
| 2.2. | Ürəyin işemik xəstəliyi | I20 - I25 | | |
| | Qiymətləndirmə | | | |
| 2.2.1. | ÜDS-nin mülayim disfunksiyası: stenokardiya və ya ağrısız işemiya FS III (50 Vatt və ya 2-3,9 METs); XÜÇ IIA mərhələ olduqda. Miokardın revaskulyarizasiyası mümkün olmadıqda | | 35-60 | 1 il |
| 2.2.2. | ÜDS-nin ciddi disfunksiyası: stenokardiya və ya ağrısız işemiya, FS III (50 Vatt və ya 2-3,9 METs); XÜÇ IIB mərhələ olduqda. Miokardın revaskulyarizasiyası mümkün olmadıqda | | 65-80 | 2 il |
| 2.2.3. | ÜDS-nin ağır və davamlı disfunksiyası: stenokardiya və ya ağrısız işemiya, FS IV (25 Vatt və ya 1,1-1,9 METs); XÜÇ III mərhələ olduqda. Miokardın revaskulyarizasiyası mümkün olmadıqda | | 85-100 | müddətsiz |
| 2.5. | Ağciyər-ürək çatışmazlığının digər formaları | I27 | | |
| | Qiymətləndirmə | | | |
| 2.5.1. | effektiv spesifik terapiya fonunda orqanizmin funksiyalarının orta dərəcəli pozulmaları (mülayim disfunksiyaları): ağciyər hipertenziyası FS II | | 35-60 | 1 il |
| 2.5.2. | effektiv spesifik terapiya fonun-da orqanizmin funksiyalarının əhəmiyyətli pozulmaları (ciddi disfunksiyaları): ağciyər hipertenziyası FS III | | 65-80 | 2 il |
| 2.5.3. | effektiv spesifik terapiya fonunda orqanizmin funksiyalarının ağır və davamlı disfunksiyaları: ağciyər hipertenziyası FS IV | | 85-100 | müddətsiz |
| 2.6.1.1. | IIB dərəcəli işemiya, seqmentar okklüziya və ya stenozun (65%-dən çox) mövcudluğu ilə, ABİ 0,75-0,50 aralığında olduqda | | 35-60 | 1 il |
| 2.6.1.2. | III dərəcəli işemiya, ABİ 0,50-dən az olduqda və ya cərrahi revaskularizasiyadan sonra davamlı distal blokun mövcudluğu, ətrafın məhdud trofik pozuntuları (xora, nekroz) və qan dövranı dekompensasiyası ilə | | 65-80 | 2 il |
| 2.6.1.3. | ikitərəfli trofik pozuntular da daxil olmaqla III və ya IV dərəcə işemiya, ABİ 0,25-dən az olduqda cərrahi müdaxilə üçün əks-göstərişlərin mövcudluğu və ya aşağı ətrafın müxtəlif səviyyədə aputasiyası, digər ətrafda III və ya IV dərəcə işemiya | | 90-100 | müddətsiz |
| 2.6.2.1. | kliniki təzahürlərin mövcudluğu ilə aortanın və (və ya) çanağın iri arteriyalarının "böyük" anevrizmaları (5 sm-dən çox), cərrahi müalicəyə tibbi əks-göstərişlərin olması və ya "Böyük" anevrizmaların rezeksiyasından, aortanın və çanağın iri arteriyalarının protezləşdirilməsindən və ya stent qreftlərin implantasiyasından sonrakı vəziyyət, qan dövranı subkompensasiyası ilə;<br>baş və boyun nahiyələrinin iri ölçülü, üzü eybəcərləşdirən, cərrahi müalicəyə əks-göstərişin olması | | 35-60 | 2 il |
| 2.7.1. | hər iki aşağı ətrafda IIB venoz çatışmazlığı və ya bir aşağı ətrafda trofik xora olan xroniki venoz xəstəliyi və ya xroniki venoz xəstəliklərinin beynəlxalq təsnifatının (CEAP sistemi) 4-5-ci sinif klinik təzahürlərinə uyğun gələn, hər iki ətrafda əhəmiyyətli miqdarda ifrazat olmayan xoralı qüsur və ya trofik pozuntuları olan; xoralı olmayan, statodinamik funksiyaların orta dərəcədə (mülayim) pozulması ilə xroniki venoz xəstəliklərinin beynəlxalq təsnifatının (CEAP sistemi) 4-5-ci siniflərinə uyğun gələn hər iki ətrafda zədələnmə | | 35-60 | 2 il |
| 2.9. | Xroniki revmatik xəstəlikləri | I05 - I09 | | |
| | Digər ürək xəstəlikləri | I30 - I52 | | |
| | Qiymətləndirmə | | | |
| 2.9.1. | ürəyin qapağının (və ya qapaqlarının), ağciyər arteriyası qapağının revmatik və qeyri-revmatik xəstəlikləri, iltihabi aktivlik əlamətləri olan miokardit, endokardit və ya perikardit, ÜDS-nin funksiyasının mülayim pozulması ilə: FS III (50 Vatt və ya 2-3,9 METs), XÜÇ IIA mərhələ, ağciyər hipertenziyası 2-ci dərəcə, 2-ci dərəcə ürək aritmiyası (Laun-Volf təsnifatı üzrə), sol mədəciyin atım fraksiyasının azalması | | 35-60 | 2 il |
| 2.9.2. | ürəyin qapağının (və ya qapaqlarının), ağciyər arteriyası qapağının revmatik və qeyri-revmatik xəstəlikləri, iltihabi aktivlik əlamətləri olan miokardit, endokardit və ya perikardit, ÜDS-nin funksiyasının ciddi pozulması ilə: FS III (50 Vatt və ya 2-3,9 METs), XÜÇ IIB mərhələ, ağciyər hipertenziyası 2-3-cü dərəcə, 3-cü dərəcə ürək aritmiyası (Laun-Volf təsnifatı üzrə), sol mədəciyin atım fraksiyasının azalması | | 65-80 | 2 il |
| 2.9.3. | ürəyin qapağının (və ya qapaqlarının), ağciyər arteriyası qapağının revmatik və qeyri-revmatik xəstəlikləri, iltihabi aktivlik əlamətləri olan miokardit, endokardit və ya perikardit, ÜDS-nin funksiyasının ağır və davamlı pozulması ilə: FS IV (25 Vatt və ya 1,1-1,9 METs), XÜÇ III mərhələ, ağciyər hipertenziyası 3-cü dərəcə, 4-5-ci dərəcə ürək aritmiyası (Laun-Volf təsnifatı üzrə), sol mədəciyin atım fraksiyasının 30%-dən az olması | | 85-100 | müddətsiz |

2.2.2. 2.3-cü bəndin birinci abzası ləğv edilsin və həmin bəndin on birinci abzası aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| | Süni ürək ritmi aparıcısının olması | Z95.0 | | |

2.2.3. 2.3.1-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununa "XÜÇ IIA mərhələ" sözlərindən əvvəl "FS III," sözləri əlavə edilsin;

2.2.4. 2.3.2-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununa "XÜÇ IIB mərhələ" sözlərindən əvvəl "FS III," sözləri əlavə edilsin;

2.2.5. 2.3.3-cü yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununa "XÜÇ III mərhələ" sözlərindən əvvəl "FS IV," sözləri əlavə edilsin;

2.2.6. aşağıdakı məzmunda 2.3.4-cü, 2.3.5-ci, 2.4.4-cü yarımbəndlər və 2.10-cu bənd əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 2.3.4. | ürək ritminin süni tənzimləyicisi qoyulduğu hallarda ürək qüsurları və ya miokardda baş vermiş dərin dəyişikliklər | | 80 | müddətsiz |
| 2.3.5. | ürək ritminin süni tənzimləyicisi qoyulduğu hallarda | | 50 | müddətsiz |
| 2.4.4. | miokardda yad cismin olması | | 80 | müddətsiz |
| 2.10. | Qan dövranı sisteminin anadangəlmə inkişaf qüsurları | Q20-Q28 | | |
| | Qiymətləndirmə | | | |
| 2.10.1. | 18 yaşınadək şəxslərdə XÜÇ I mərhələ və ya cüzi hipoksemiya ilə fəsadlaşmış anadangəlmə qüsurlar | | 50 | 2 il |
| 2.10.2. | 18 yaşınadək şəxslərdə XÜÇ II mərhələ və ya nəzərəçarpan hipoksemiya ilə fəsadlaşmış anadangəlmə qüsurlar | | 70 | 2 il |
| 2.10.3. | 18 yaşınadək şəxslərdə XÜÇ III mərhələ və ya əhəmiyyətli dərəcədə nəzərəçarpan hipoksemiya ilə fəsadlaşmış anadangəlmə qüsurlar | | 90 | 2 il |

2.4-cü bəndə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | Yumşaq toxumalarda qalmış yad cisim | M79.5 | | |

2.2.8. 2.6-cı bəndin "XBT-10 (kod)" sütunundan "I70-I79" sözləri çıxarılsın;

2.2.9. 2.6.1-ci yarımbəndə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | arteriyaların tromboz və emboliyası | I74 | | |

2.2.10. 2.6.2-ci yarımbəndə aşağıdakı məzmunda üçüncü-səkkizinci abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | arteriya və arteriolların digər zədələnmələri | I77 | | |
| | kapilyarların xəstəlikləri | I78 | | |
| | digər rubrikalarda təsnif olunmuş xəstəliklərdə arteriyaların, arteriallərın və kapilyarların zədələnmələri | I79 | | |
| | periferik damar sisteminin digər anadangəlmə anomaliyaları | Q27 | | |
| | qan-damar sisteminin digər anadangəlmə inkişaf qüsurları | Q28 | | |
| | bədənin dəqiqləşdirilməmiş nahiyəsinin qan damarının (damarlarının) travması | T14.5 | | |

2.2.11. 2.6.2.2-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda "/ və ya" sözləri "(və ya)" sözləri ilə və nöqtəli vergül işarəsi "və ya" sözləri ilə əvəz edilsin;

2.2.12. 2.7-ci bəndə aşağıdakı məzmunda ikinci-beşinci abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | Periferik damar sisteminin digər anadangəlmə anomaliyaları | Q27 | | |
| | Qan-damar sisteminin digər anadangəlmə inkişaf qüsurları | Q28 | | |
| | Bədənin dəqiqləşdirilməmiş nahiyəsinin qan damarının (damarlarının) travması | T14.5 | | |
| | Aşağı ətraf venalarının varikoz genəlməsi | I83 | | |

2.2.13. 2.8-ci bəndə aşağıdakı məzmunda ikinci və üçüncü abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | Filyariatoz | B74 | | |
| | İrsi limfedema | Q82.0 | | |

2.2.14. 2.8.1-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda "hər iki ətraflarda" sözləri "iki ətrafda" sözləri ilə əvəz edilsin;

2.2.15. 2.8.2-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda "hər iki aşağı" sözləri "iki" sözü ilə əvəz edilsin;

3-cü hissə üzrə:

2.3.1. 3.1.1-ci yarımbəndə aşağıdakı məzmunda ikinci və üçüncü abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | damağın yarığı (qurd ağzı) | Q35 | | |
| | dodağın və damağın yarığı (qurd ağzı dovşan dodaqla) | Q37 | | |

2.3.2. 3.1.1.2-ci və 3.1.1.3-cü yarımbəndlərin "Orqanizmin funksiyalarının pozulması faizi" sütununda "40" rəqəmləri "50" rəqəmləri ilə əvəz edilsin;

2.3.3. 3.3-cü bənd, 3.1.1.6-cı, 3.2.1.1-ci, 3.2.2.1-ci, 3.2.2.2-ci, 3.2.3.1-ci, 3.2.3.2-ci, 3.2.4.1-ci, 3.2.4.2-ci, 3.2.5-ci, 3.2.5.1-ci, 3.2.5.2-ci, 3.4.1.1-ci, 3.4.1.2-ci, 3.6.1-ci, 3.6.2.1-ci və 3.6.2.2-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| 3.1.1.6. | müalicənin başa çatmasına qədər (əməliyyatdan bir il sonra) və ya müalicə (əməliyyat) olunmamış çənə yarığı olmadan damağın tam yarığı, dodağın və damağın tam yarığı ilə müşahidə olunan hal | | 35 | 2 il |
| 3.2.1.1. | həzm funksiyasının mülayim pozulması ilə - qida qəbulunun çətinləşməsi, II dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-17,5) və anemiya ilə müşahidə olunan hal, nadir baş verən aspirasiyalarla | | 35-60 | 1 il |
| 3.2.2.1. | həzm funksiyasının mülayim pozulması ilə - qida qəbulunun pozulması (qida həcminin məhdudlaşması, qida qəbulu vaxtının uzanması), II dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-17,5) və anemiya ilə müşahidə olunan hal | | 40-60 | 1 il |
| 3.2.2.2. | həzm funksiyasının təzahür edən (nəzərəçarpan) pozulması ilə - qida qəbulunun pozulması, III dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-dan az) və anemiya ilə müşahidə olunan hal | | 65-80 | 2 il |
| 3.2.3.1. | həzm funksiyasının mülayim pozulması ilə - qida qəbulunun pozulması (qida həcminin məhdudlaşması, qida qəbulu vaxtının uzanması), II dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-17,5) və anemiya ilə müşahidə olunan hal | | 40-60 | müddətsiz |
| 3.2.3.2. | həzm funksiyasının təzahür edən pozulması ilə - qida qəbulunun pozulması, III dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-dan az) və anemiya ilə müşahidə olunan hal | | 65-80 | müddətsiz |
| 3.2.4.1. | həzm funksiyasının mülayim pozulması - xəstəliyin orta ağır forması, xroniki təkrarlanan, bir ildən az müddətdə residivləşən xora, II dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-17,5) və anemiya ilə müşahidə olunan hal | | 35-60 | 1 il |
| 3.2.4.2. | həzm funksiyasının təzahür edən pozulması - xəstəliyin ağır forması, xroniki təkrarlanan xora, ildə 2-3 dəfə kəskinləşmələrlə (məsələn, mədə keçidinin stenozu), III dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-dan az) və anemiya ilə müşahidə olunan hal | | 65-80 | 2 il |
| 3.2.5. | mədənin və mədə hissəsinin qazanılma olmaması | Z90.3 | | |
| | həzm orqanlarının başqa rubrikalarda təsnif olunmayan, tibbi prosedurlardan sonra baş verən pozuntuları | K91 | | |
| | həzm orqanlarının digər xəstəlikləri | K92 | | |
| | qastrostomanın olması | Z93.1 | | |
| | Qiymətləndirmə | | | |
| 3.2.5.1. | mədənin hissəvi rezeksiyası və ya total qastroektamiya əməliyyatından sonra həzm funksiyasının mülayim pozulması - orta dərəcəli əməliyyat olunmuş mədə sindromlu qastroenteroanastomoz (dempinq sindrom və ya gətirici bağırsaq ilgəyi sindromu), nazik bağırsağın residivləşən xoraları, II dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-17,5) və anemiya ilə müşahidə olunan hal | | 35-60 | 1 il |
| 3.2.5.2. | mədənin total qastroektamiya əməliyyatından sonra həzm funksiyasının təzahür edən (ağır) dərəcədə pozulması - ağır dərəcəli əməliyyat olunmuş mədə sindromlu qastroenteroanastomoz (dempinq sindrom və ya gətirici bağırsaq ilgəyi sindromu), nazik bağırsağın residivləşən xoraları, III dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-dan az) və anemiya ilə müşahidə olunan hal | | 65-80 | 2 il |
| 3.3. | Qeyri-infeksion enterit və kolit | K50-K52 | | |
| | Seliakiya | K90.0 | | |
| | Qiymətləndirmə | | | |
| 3.3.1. | həzm funksiyasının mülayim pozulması - xəstəliklərin orta ağır təzahürü, tez-tez ishal (gündə 4-6 dəfə), II dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-17,5) və anemiya ilə müşahidə olunan hal | | 35-60 | 2 il |
| 3.3.2. | həzm funksiyasının qabarıq pozulması - xəstəliklərin ağır təzahürü, tez-tez gündəlik ishal (gündə 7-10 dəfə, o cümlədən gecə), qabarıq dərəcəli anemiya, III dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-dan az) və anemiya ilə müşahidə olunan hal | | 65-80 | 2 il |

(ardı 10-cu səhifədə)

Beynəlxalq həyat

# Türkiyənin Yaxın Şərq üçün təhlükəsizlik çətiri

## Ankaranın Körfəz dövlətləri ilə əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlir



(əvvəli 1-ci səhifədə)

Bu əməkdaşlıq eyni dini inanca, oxşar əxlaqi dəyərlərə və yaxın mədəniyyətlərə mənsub olan türk və ərəb xalqları üçün bir-birlərinə arxa, dayaq durmaqla birlikdə daha güclü və yenilməz olmaq şansları yaradır. Tərəflərin hər biri bundan bəhrələnə bilər. Bu tarixi şansı qaçırmaq bağışlanılmaz səhv olardı. Ümid etmək istərdik ki, məhz belə də olacaq.

Türkiyə liderinin regiona səfərində bu və bunabənzər fikir və mülahizələr dəfələrlə səsləndirilib. Ərəb ictimaiyyəti Türkiyənin dünyada günbəgün artan nüfuzunun bölgə dövlətləri, xüsusilə türk və müsəlman dünyası üçün faydalı olacağını duyur və məmnun qalır. Müsəlman aləmi böyük qürur hissi ilə çağdaş dünyanın ən xarizmatik dövlət xadimlərindən olan R.T.Ərdoğanı özünün siyasi və mənəvi lideri hesab edir.

Prezident R.T.Ərdoğanın təkcə türklərin deyil, bütün müsəlmanların haqlarının keşiyində durduğu danılmaz faktdır. Bu vaxtadək heç bir lider Türkiyənin hazırkı başçısı qədər Fələstin ərəblərinin pozulmuş hüquqlarının müdafiəsində göstərdiyi qətiyyəti nümayiş etdirə bilməyib. Təkcə Davosdakı "One minute!" hadisəsi milyonların yaddaşına əbədi həkk olunub.

Son 12 ildə Bəşər Əsəd rejiminin zülmündən Suriyadan Türkiyəyə pənah gətirən suriyalı qaçqınlara heç bir yerdə qardaş ölkədə olduğu qədər diqqət və qayğı göstərilməyib. "Sivil" və "demokratik" Avropa o qaçqın ailələrinin birini belə öz ərazisinə buraxmaq istəmir, bununla bərabər ərəb ölkələrinin milli sərvətlərini sümürüb aparmaqdan imtina etmək istəmirlər.

Neftlə zəngin olan Körfəz ölkələri İkinci Dünya müharibəsindən sonra "böyük güclər"in məkrli maraqlarının hədəfi olub. Lakin imperialistlər varlı ərəb şeyxlərinin "etibar və səxavət"lərindən sui-istifadə etsələr də, regiona barış, əmin-amanlıq və tərəqqi gətirməyi ağıllarına belə gətirməyiblər. Əksinə, ayrı-ayrı ərəf qəbilə və tayfaları arasında nifaq və təlatümlər yaratmağa çalışıblar ki, buradan daha çox qoparıb metropoliyalara daşısınlar.

Son vaxtlar Türkiyə ilə ABŞ, Kanada və Avropa İttifaqı ölkələri arasında "iliq münasibət" formalaşır. Qərb NATO-nun ikinci böyük hərbi gücü olan və dünyanın ən demokratik müsəlman ölkəsi sayılan Türkiyənin ərəb dövlətləri ilə əlaqələrinin güclənməsində maraqlı olmalıdır. R.T.Ərdoğanın adları çəkilən Körfəz ölkələrinin hər birində ən yüksək səviyyədə qarşılanması çox mətləbdən xəbər verir. Şərq bu dəfə də müdrik olmağa borcludur. Hamı anlayır ki, "güclü və ədalətli Türkiyə" yalançı uzaq dostlardan daha üstündür.

Həqiqət budur ki, bu gün əlahəzrət zaman Türkiyənin xeyrinə işləyir. R.T.Ərdoğanın lideri olduğu bir dövlətin idarə etdiyi dünyanın sürət və inkişaf qatarında layiqli yer almaq hər bir ərəb dövləti üçün böyük fürsətdir. Bəli, Körfəz dövlətləri başa düşür ki, belə bir güclü və etibarlı tərəfdaşla sıx əməkdaşlıq ərəb xalqı üçün tarixi şansdır.

Ümumiyyətlə, Ankara Böyük Turanın lideri olmaqla bərabər, ərəb dünyası üçün də cəlbedici bir ölkədir. Türkiyənin Körfəz dövlətləri, bütövlükdə, ərəb ölkələri ilə qarşılıqlı inam və etimaddan qaynaqlanan sıx əməkdaşlığı bu gün planetimizdə formalaşmaqda olan yeni dünya düzəninin parlaq səhifələrindən biri ola bilər.

### Ekspert rəyi



**Rüfət RÜSTƏMOV, Bakı Dövlət Universitetinin türk filologiyası kafedrasının müdiri, professor**

– Mən uzun illərdir ki, türk ədəbiyyatı və tarixini araşdırıram. Osmanlı tarixindən yaxşı bəllidir ki, türk-ərəb əməkdaşlığı bu bölgəyə hər zaman rifah və hüzur gətirib. Təxminən on səkkizinci əsrin əvvəllərindən başlayaraq Qərb regiona nüfuz edərək türkləri bu ərazidən sıxışdırıb çıxarmağa başlayıb. Son iki yüz ildə baş verənlər göstərdi ki, ərəb xalqı bundan heç bir şey qazanmadı, əksinə, itirdi.

Prezident R.T.Ərdoğanın Körfəz dövlətlərinə səfəri, burada apardığı mühüm müzakirələr region xalqlarının parlaq gələcəyi üçün yeni üfüqlər açə bilər və açmalıdır. Türkiyə ədalətli dövlətdir, imperialist güclərdən fərqli olaraq məkrli planlar qurmur, əksinə qarşılıqlı etimad və dostluq şəraitində əməkdaşlıq təklif edir. Bu əməkdaşlıq güclü-zəif, ağa-nökər münasibətlərinə söykənmir, tam əksinə, səmimi dostluq və qardaşlıq əlaqələrinin çiçəklənməsinə şərait yaradır.

Türkiyə iqtidarının bir neçə il öncə xəyanət və məkrlə üzləşən Qətər dövlətinin təhlükəsizliyi üçün atdığı cəsarətli və qətiyyətli addımları heç kəs unutmayıb. Rəsmi Dohanın qarşılaşdığı təhlükəsizlik problemləri ilə digər Körfəz ölkələri də üzləşə bilər. Türkiyə həmin dövlətlər üçün təhlükəsizlik çətiri ola bilər.

Bundan başqa, Türkiyə son iyirmi ildə bütün müsəlman dünyasında "yumşaq güc"ə çevrilib. Qardaş ölkənin nümunəsində İslam dini və dəyərləri Qərbin təlqin etdiyi xurafat və cəhalətdən tamamilə fərqlidir. Türkiyə öz sivil və demokratik ənənələri ilə də "oturuşmuş" Qərb demokratiyasına dərs keçə bilər. Qardaş ölkədə son prezident seçkiləri buna gözəl nümunədir!

Fakt budur ki, bir neçə il bundan əvvəl Ankara ilə Doha arasında strateji tərəfdaşlıq başlanıb və bundan hər iki tərəf böyük fayda əldə edir. Türkiyənin artıq bu gün Səudiyyə Ərəbistanı və BƏƏ ilə əlaqələri strateji əməkdaşlıq səviyyəsinə yüksəlir. Hər iki ölkə hazırkı ABŞ iqtidarı tərəfindən özünə "soyuq münasibəti" hiss edir və ən kritik situasiyalarda dostlarını darda qoymayan Türkiyənin hərtərəfli dəstəyinə bel bağlayır.

Heç kəsə sirr deyil ki, son vaxtlara qədər aparıcı Körfəz dövlətləri arasında kəskin rəqabət hökm sürürdü. Bunu müşahidə edən və məqam düşdükcə aranı qızışdıran böyük güclər regiondakı ixtilafdan öz məkrli maraqları üçün istifadə edirdilər. Bu cəhdlər bu gün də davam edir. Lakin artıq zaman dəyişir. Bu gün Türkiyə bir çox ərəb dövlətləri üçün etibarlı sipərə çevrilir.

Sonda qeyd etmək lazımdır ki. Türkiyə regionda etibarlı dostluq və etimad əlaqələri yaradaraq mənasız və yersiz lokal rəqabəti və bundan qaynaqlanan böhranları dəf etmək əzmindədir. Demokratik və ədalətli Türkiyə bunların fövqündədir. Prezident R.T.Ərdoğanın son iyirmi ildəki uğurlu xarici və daxili siyasi kursu sayəsində Türkiyə region ölkələrinin təhlükəsizliyini təmin edəcək, onları rifah və intibaha aparacaq. Mən buna tamamilə əminəm. Nahaq yerə deməyiblər ki, XXI əsr türk əsridir!

*Məsaim ABDULLAYEV, "Xalq qəzeti"*

# İsveçin baş naziri Quranın yandırılmasından çox narahatdır

## Avropada hüquq və əxlaq üz-üzə gəlir

**İsveçin Baş naziri Ulf Kristersson bildirib ki, isveçlilərin növbəti dəfə Quranı yandırmaq qərarından son dərəcə narahatdır. O bunu TT İsveç İnformasiya Agentliyinə müsahibəsində bildirib.**

Baş nazir deyib: "Quranı yandırmaq barədə son günlərdə hakimiyyət orqanlarına bir neçə dəfə müraciət edilib. Əgər onlar bunu etsələr biz təhlükəli riskə qarşılaşacağıq. Mən bunun nəyə gətirib çıxaracağından çox narahatam".

Xatırladaq ki, müqəddəs kitabın yandırılması aksiyaları Stokholm və Kopenhagendə yerli hakimiyyət orqanlarının icazəsi ilə həyata keçirilir. Və bu, liberal demokratiyanın iki sütunu olan söz azadlığı və nümayiş hüququna uyğun gəldiyi ilə əsaslandırılır.

Bununla belə, İslam dünyası hadisəni qəzəb və nifrətlə qarşılayıb. Onun yandırılmasını "nifrət əsasında cinayət" adlandırıb və möminlərin Məhəmməd peyğəmbərə nazil olan Allahın kəlamının yer aldığı kitaba "alçaq hücum" kimi qiymətləndirib. İraq, Livan, Əlcəzair və Misir öz narazılıqlarını bildirib və cavab olaraq diplomatik addımlar atıblar. Keçən həftə izdiham Bağdadda İsveç səfirliyini yandırıb, bu da səfirliyin bağlanmasına səbəb olub.

Azərbaycan Xarici İşlər Nazirliyi də Quranın yandırılması aktına reaksiya verib. "Biz Quranın yandırılması ilə bağlı çirkin hərəkəti qətiyyətlə qınayırıq. Hakimiyyəti cinayətkarlara qarşı bütün lazımi tədbirləri görməyə və nifrət zəminində bu cür cinayətlərin təkrarlanmasının qarşısını almağa çağırırıq". İslam Əməkdaşlıq



Təşkilatı (İƏT) isə Quranın yandırılması ilə bağlı fövqəladə iclas keçirəcək. İyulun 31-də İƏT üzvü olan 57 ölkənin xarici işlər nazirləri virtual formatda fövqəladə iclasda iştirak edəcəklər. İclasda İsveç və Danimarkada Quranın yandırılması müzakirə olunacaq.

İslam dünyasının reaksiyası ilə bağlı Borrell verdiyi açıqlamada hadisələrin "bir çox müsəlmanı incitdiyini" etiraf edib və dini müxtəlifliyə hörmətin Avropa İttiaqının əsas dəyərlərindən biri olduğunu söyləyib.

Avropa İttifaqı rəsmisi bildirib: "Biz həm xaricdə, həm də daxildə din, inanc və ifadə azadlığını müdafiə edirik. Lakin qanuni olan hər şey etik deyil. İndi qarşılıqlı anlaşma və hörmət üçün bir araya gəlməyin vaxtıdır. Fərdi təxribatçılar tərəfindən bu cür hərəkətlər, ancaq bizi ayırmaq, cəmiyyətlərimizi parçalamaq istəyənlərin xeyrinədir".

Oxşar açıqlamalar artıq Avropa İttifaqı ölkələrindən, o cümlədən İsveç və Danimarkadan da eşidilib. Bununla belə, söz azadlığı ilə dinə hörmətin necə balanslaşdırılması sualı hələ də qəti cavabını gözləyir. Bu, BMT-nin İnsan Hüquqları Şurasının qətnaməsinin müzakirəsində də özünü göstərib. Bu ayın əvvəlində Almaniya, Fransa, Belçika, Finlandiya, Böyük Britaniya və ABŞ da daxil olmaqla 11 Qərb ölkəsi BMT-nin İnsan Hüquqları Şurasının ölkələri "ayrı-seçkiliyə təhrik edən hərəkətlərə və dini nifrət təbliğatına qarşı mübarizəyə çağıran qətnaməsi"nin əleyhinə səs verib. Qərb koalisiyası bu qətnamənin onların insan hüquqları və söz azadlığı anlayışına zidd olduğunu bildirib. Meksika, Paraqvay və Çili kimi Latın Amerikası ölkələri bitərəf qalıb, Şura üzvlərinin əksəriyyəti, xüsusilə Pakistan, Qətər, Mərakeş, Çin, Cənubi Afrika, Vyetnam və Ukrayna lehinə olub.

Fransa səfiri Jerom Bonnafon isə deyib: "Nə BMT, nə də ayrı-ayrı dövlətlər nəyin müqəddəs olduğunu müəyyən etməməlidir". Yeganə qeyri-Qərb ölkəsi olan Kosta Rika təmsilçisi "dinlərin tənqidinin hər hansı ifadəsi özlüyündə zorakılıq və ayrı-seçkiliyə təhrik etmədiyini", söyləyib.

Bunlar göstərir ki, vaxtında ciddi tədbir görülməsə, müqəddəs kitabla bağlı təxribatlar davam edəcək.

*Pünhan ƏFƏNDİYEV, "Xalq qəzeti"*

Səfər təəssüratı

**Xəzərin Şərq sahillərində dəfələrlə olmağıma baxmayaraq – sonuncu dəfə ötən ilin noyabrında Aktau şəhərində olmuşdum – həmin ellərə bir də getmək istəyim bu il mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransın materiallarını izləyərkən yarandı. Dövlət başçımız həmin tədbirdə Macarıstanın Beynəlxalq Əlaqələr İnstitutunun tədqiqatçı professoru Vasa Laslonun Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq barədə verdiyi sualı cavablandırarkən dedi ki, Azərbaycan Mərkəzi Asiya ölkəsi deyil. Amma tarixi və mədəni əlaqələrlə, indi isə daha çox siyasi əlaqələrlə Mərkəzi Asiya ilə sıx bağlıdır.**

# "Xalq qəzeti" Turan ellərində…

## Hər yerdə "eyni kök" və "ortaq tellər" görürdüm

### Yenə də illüminator...

... Xarici səfərə təyyarə ilə gedən həmkarlarımızın böyük əksəriyyəti, bəlkə də hamısı yazıya "illüminatordan baxanda gördüm ki..." ifadəsi ilə başlayır. Əvvəllər bu tendensiyanı qətiyyən bəyənmirdim. Sonra isə gördüm ki, forma eyni olsa da, illüminatordan baxanda hərə öz gördüyünü məhz orijinal şəkildə qələmə alır. İnanıram ki, mənim də illüminatordan baxanda gördüklərimi heç kəs bilavasitə bu şəkildə yozmayıb. Çünki təyyarə Atırauda enmək üçün dövrə vuranda mən ucsuz-bucaqsız səhraları doğrayan, həm də özünün başlanğıcı ilə qurtaracağı gözə dəyməyən nəhəng bir "sarı qılınc" gördüm.

Həmin qılınc dörd bir tərəfi yaşıllıqlarla əhatə olunan Atıraunu da doğrayıb keçirdi. Bu, Ural çayı idi. Əvvəl elə bildim ki, Günəş yenicə doğur deyə çayın suyunda onun əksi görünür. Amma cəmi iki saatdan sonra məlum oldu ki, türk qardaşlarımızın Ağ çay adlandırdığı Ural, həqiqətən, sap-sarı, mis rəngində axır və Qazaxıstanın ekologiyasına elə qılınc zərbələri vurur.

### Bu barədə çox yazılıb

Yadımdadır, hələ müstəqillik haqqında dövlət aktımızdan dörd-beş il əvvəl indi mənim də çalışdığım qəzetin əməkdaşı Hacı Qüdrət Piriyev və həmkarı Elman Qədirov Xəzərin ekoloji problemlərini öyrənmək və qələmə almaq məqsədilə bütün sahilyanı ölkələrdə olmuş və qəzet materialları hazırlamışdılar. Elə onlar da o zamankı Quryevə (indiki Atırau şəhərinə – İ.M.) neft sənayesinin və şimaldan axıb gələn çaylara atılan fabrik-zavod tullantılarının vurduğu ekoloji ziyandan söz açmışdılar. Yazırdılar ki, bu faktlar son anda Xəzərin ekologiyasına ölçüyəgəlməz dərəcədə mənfi təsir göstərir.

### Atırau artıq həmin Quryev deyil

Qətiyyətlə deyə bilərəm ki, onların qələmə aldıqları problemlərdən bir neçəsi müstəqillik dövründə öz həllini tapmışdır. Atıraunun yüksək səviyyədə yaşıllaşdırılması, tullantı sularının axıdılması üçün kollektor-drenajların tam şəkildə təmin olunması, Qazaxıstanın ümumi inkişafına layiq yol infrastrukturunun yaradılması, yeni mikrorayonların tikilməsi, Ural çayının üstündən yeddi yeni körpünün salınması, dünyaca məşhur olan şirkətlərin əksəriyyətinin burada ofisinin açılması, hər il bir neçə yeni otel kompleksinin ərsəyə gəlməsi, müasir iaşə obyektlərinin işə salınması güzəran reallıqlarındandır.

### Azərbaycan – bərəkallah!

Məni hava limanından otelə aparan taksinin sürücüsü Akram adlı, ilk baxışdan səhradan gəlmiş adam təəssüratı yaradan, qırx beş-əlli yaşlı kişi idi. Haradan olduğumu biləndə uca səslə, sanki məmnunluqla danışmağa başladı:

– Azerbaydjan – razvitiya, vot tak! – deyə baş barmağı ilə "əla!" işarəsini göstərdi.

– Qazaxıstan da sürətlə inkişaf edir – dedim.

– Əlbəttə, Qazaxıstan da inkişaf edir. Özü də sürətlə. Ancaq Qazaxıstan müharibədə olmayıb axı. Azərbaycan otuz illik müharibə illərində də inkişaf edib, müharibədən sonra da.

– Sən bu faktları haradan bilirsən?

– Qardaşım tez-tez Bakıya gedib –gəlir. Heydər Əliyev Mərkəzi, Alov qüllələri, Olimpiya stadionu, Bülbur saray... Azərbaycan – Bərəkallah!

### Gül, ay gözəl, mən qocaya bir də gül...

Qətiyyən ağlıma gələ bilməzdi ki, bir dənizin üstündən iki dəfə keçib, iki dəfə təyyarə dəyişib zəhərli bir çayın sahilində dayanacağam və rastlaşdığım məqam Dədə Şəmşirin bir qoşmasını yadıma salacaq.

Şəhər o qədər də böyük olmadığına görə bir çox yerlərə piyada gedirdim. Elə Ak Jayık (Ural çayı) üzərindəki "üçüncü körpü"nün yanına da piyada getdim və pilləkənləri enərək sahilə, ovcumla su götürə biləcəyim yerə düşdüm. Bizim tərəflərdə – Qafqazın cənub yamacında dağdan axıb gələn çayların suyunu ovcuna götürərsən, su axıb qurtaranda əlində az da olsa qum qalır. Uralın suyundan isə əlində qum qalmadı. Eləcə, sap-sarı, mis rəngində su idi.

Sahildə mənə ən yaxın olan 18-19 yaşlı iki qız idi. Telefona baxıb gülə-gülə nə isə danışırdılar. Suyuşirin qızlar idilər. Ürəyimdən keçdi ki, heç kəsi bəyəndirə bilmədiyimiz subay oğlum bunları görəydi. Telefonumu verib xahiş etdim ki, çay ilə mənim şəklimi çəksinlər. Əlavə etdim ki, mən Azərbaycandanam və bizim xalqlarımız qardaşdılar.

Qızların biri gülümsəyərək dedi: – Qazax, özbək, türkmən, qırğız və azərbaycanlıların qardaş olduğunu bilməyən varmı?

Təəddimatımdan utandım və aşığın "Gül, ay gözəl, mən qocaya bir də gül" ifadəsi ilə özümə təsəlli tapdım. Özümə gələndən sonra isə fikirləşdim ki, o qızın sadaladığı siyahıda



Anadolu türkləri niyə yada düşmədi?

### Arabaçıyam, abi, arabaçı...

Hələ çar dövründən – rusların bu əraziləri işğal etdiyi illərdən çay məcrasının "N" hərfi şəklində əyilərək üç dəfə doxsan dərəcəli bucaq yaratdığı yerdə, elementar da olsa, hər tərəfindən su axan istirahət yeri salınmış. Sovet dönəmində ora xeyli inkişaf etdirilib. Müstəqillik dövründə isə həmin ərazi "Retro park" adı ilə yenidən qurulub və mükəmməl bir əyləncə – istirahət yerinə çevrilib. Ora getmək istədim.

Hələ ötən il, Aktauda olanda eşitmişdim ki, minik avtomobillərinin üstündə taksi işarəsi olmasa da, hər iki maşından biri taksidir. İlk maşına işarə etdim, saxladı. Sürücü sanki aktyor Hacı İsmayılovun əkiz qardaşı idi. Amma ondan bir az cavan olardı. Adı Rais idi.Təbii ki, rusca danışdıq və o, mənim azərbaycanlı olduğumu biləndə Anadolu türkcəsinə keçdi.

Soruşdum ki, Türkiyədə oxumusan? Dedi: Yox, orada işləmişəm.

– Türkiyədə nə işə baxırdın?

– Arabaçıyam, abi, orada da arabaçı olmuşam, burada da arabaçıyam.

### Sağ ol, Zulfiya!

Qazaxıstanlı jurnalistdən " Azərbaycanın pandemiya dövründəki fəaliyyətini heç kəs unuda bilməz" ifadəsini eşitmək mənim üçün məmnunedici idi.

Atırauda olduğum günlərdə "Ak Jayık" ("Ağ çay") qəzetinin müxbiri Zulfiya İskaliyeva ilə də söhbət etdik. Həm sosial şəbəkələrdə, həm də çalışdığı redaksiyada məhz türk fəallığı göstərən bu xanım həmkarımız böyük bir şirkətin piar meneceri kimi də fəaliyyət göstərirdi. Qısa söhbətdən sonra məlum oldu ki, onun nəinki Qazaxıstanda, hətta bütövlükdə regiondakı problemlərin hamısı haqqında məlumatı var.

Soruşdum ki, "Ak Jayık"da vəziyyət necədir, zamanla ayaqlaşa bilirsinizmi?

Dedi:

– İndi dünyanın hər yerində yazılı mətbuatın həm tirajı aşağı düşür, həm də oxucusu azalır. Ancaq həqiqi mətbuat təəssübkeşləri öz qəzetlərini belə vəziyyətdə də yaşatmağa bacarmalıdırlar. Biz buna çalışırıq və nail oluruq. Yəni qələmə aldığımız xəbərin və ya məqalənin əsaslandırılmasını təmin etməli, qərəzçilikdən uzaq olmalı, obyektivliyi qorumalı, hansısa qütbün mənafeyinin qorunmasına yol verməməliyik. Belə olsa, bizi oxuyacaqlar. Müstəqil qəzetlər üçün isə, bu, daha ciddi vəzifədir.

– Mən internetdə qəzetinizin bəzi səhifələrinə baxdım. Siz, deyəsən, daha çox şəhərin yaşıllaşdırılması məsələlərindən yazırsınız.

– Tam elə deyil. Ancaq həmin məsələlərin işıqlandırılmasında xeyli təcrübəm var. Bildiyiniz kimi, müstəqil Qazaxıstana çox ağır ekoloji problemlər qalmışdır. Ancaq dövlətimiz həmin problemləri ardıcıllıqla, mərhələ-mərhələ aradan qaldırır. Biz mətbuat təmsilçiləri də həmin prosesə ciddi dəstək veririk.

– Siz keçən il maraqlı adı olan bir medalla təltif olunmusunuz. Təbrik edirik!

– Bu, pandemiya dövründəki fəaliyyətimlə bağlı idi. 2020-ci ilin iyun ayında cənab Prezident Kasım-Jomart Tokayev dövlət müstəqilliyimizin 30 illiyi münasibətilə belə bir medal təsis etmişdi. Həkimlərin, könüllülərin, xeyriyyəçilərin, müəllimlərin, polislərin, fövqəladə hallar mütəxəssislərinin və başqalarının təltif olunduğu həmin medal 29 jurnalistə də təqdim edilmişdi. Mən pandemiya dövründəki fəaliyyətimə görə təltif olunmuşdum.

– Qazaxıstanda koronavirusa qarşı çox ciddi mübarizə aparıldığı barədə oxumuşdum.

– Biz həmin mübarizəni Qazaxıstan miqyasında apardıq. Azərbaycan isə sədrlik etdiyi Qoşulmama Hərəkatı çərçivəsində bütün dünyada COVID-19-a qarşı fəallıq göstərdi. Bunu heç kəs dana bilməz.

Bax, belə. "Xalq qəzeti"nin Turan ellərinə səfərindən hazırlanmış dördüncü yazı da qardaş xalq təmsilçisinin təəssübkeşlik dolu fikirləri ilə başa çatdı.

*İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"*
Atırau şəhəri, Qazaxıstan

# Sosial müdafiə: uğurlar, vəzifələr

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə verdiyi tapşırıqlara uyğun olaraq, sosial islahatların davam etdirilməsi, yeni sosial paketin hazırlanması əsas vəzifələrdən biri kimi qarşıya qoyulub. Bunu Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev iyulun 27-də nazirlikdə keçirilən kollegiya iclasında bildirib.**



Nazir "Böyük Qayıdış"a dair Dövlət Proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərə köçürülmüş vətəndaşların aktiv məşğulluq tədbirlərinə cəlb edilməsinin prioritet istiqamətlərdən biri olduğunu vurğulayıb. Məşğulluğun təmin edilməsində isə peşə hazırlığı kursları mühüm rol oynayır.

Digər prioritet istiqamət kimi həmin ərazilərdə sosial infrastruktur layihələrinin həyata keçirilməsi mühüm şərtdir. Bu istiqamətdə Cəbrayılda DOST mərkəzinin və Peşə hazırlığı mərkəzinin, Kəlbəcərdə Reabilitasiya mərkəzinin və digər işğaldan azad edilmiş rayonlarda DOST filiallarının yaradılacağı diqqətə çatdırılıb.

S.Babayev Naxçıvan Muxtar Respublikasında sosial sahədə idarəçilik və xidmətlər sistemində yeniliklərin tətbiqi, sosial infrastrukturun müasir tələblərə uyğun qurulması, sosial xidmətlərin əlçatanlığının artırılması istiqamətində hədəfləri qeyd edib.

İclasda Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, sosial təminat sisteminin gücləndirilməsi, sosial ödənişlərin artırılması, aktiv məşğulluq proqramlarının genişləndirilməsi istiqamətində atılan addımlar barədə məlumat verilib. Bildirilib ki, əmək müqavilələrinin sayı ilin əvvəlinə nisbətən 1 faiz və ya 18 min 500 müqavilə artaraq 1 milyon 765 minə çatıb, əməkhaqqı fondunda 10 faiz artım qeydə alınıb. 171 min 600 şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub, o cümlədən 6 min 800 nəfər özünüməşğulluq proqramına, 2 min 800 nəfər ödənişli ictimai işlər proqramına cəlb olunub.

Dövlət Sosial Müdafiə Fondunun gəlirləri proqnozla müqayisədə 197 milyon manat çox olmaqla, 3 milyard 271 milyon manat, xərcləri 418 milyon manat çox olmaqla, 3 milyard 9 milyon manat təşkil edib. Pensiya, müavinət, təqaüd və ünvanlı dövlət sosial yardımları üzrə əhaliyə ötən ilin müvafiq dövrünə nisbətən 695 milyon manat və ya 21,4 faiz çox olmaqla 3 milyard 900 milyon manat ödənilib.

Pensiyaların orta aylıq məbləğinin 18 faiz artaraq 433 manata, o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləğinin 17 faiz artaraq 466 manata çatdığı bildirilib.

İclasda sosial müdafiə və aktiv məşğulluq, ödənişli ictimai işlər proqramlarının icrası, əmək qanunvericiliyinə və digər sahələrdə görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

***Zərifə HÜSEYNOVA, "Xalq qəzeti"***

Mövlud Süleymanlı – 80

# Ulu sözün uca dəyəri

## "Şöhrət"li yazıçının "Şərəf"li ömür yolu

**Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin dünən imzaladığı sərəncamla Xalq yazıçısı Mövlud Süleyman oğlu Balakişiyevin (Mövlud Süleymanlı) "Şərəf" ordeni ilə təltif edilməsi ədəbi-mədəni aləmdə böyük razılıqla qarşılanıb.**



Sevimli yazıçımızın növbəti dəfə yüksək səviyyədə təltif olunduğunu bilən kimi zəng edərək təbriklərimizi çatdırdıq. Təşəkkür edərək bildirdi ki, dövlətin sənət adamlarına, yaradıcı ziyalılara diqqət və qayğısından olduqca razıdır. Prezident İlham Əliyevin yaradıcılığına verdiyi yüksək qiymətə görə dərin minnətdarlığını ifadə etdi.

Çağdaş ədəbiyyatımızın inkişafında böyük xidmətləri olan 80 yaşlı nasir, dramaturq və ssenarist Mövlud Süleymanlı bu gün də gənclik şövqü il yazıb-yaradan qələm sahiblərindəndir. O, özünəxas yazı üslubu ilə xalqın tarixini, etnoqrafiyasını, əxlaqi dəyərlərini əsərlərində parlaq şəkildə təcəssüm etdirir. Bütün bunlar Mövlud Süleymanlının yaradıcılığını səciyyələndirən başlıca amillərdir.

Yarım əsrdən çox yaradıcılıq yolu keçən sevimli yazıçımız ədəbiyyata bir çox qələmdaşları kimi, şeirlə gəlib. Elə onun nəsr dilinin son dərəcə axıcı və rəvan olması da, şübhəsiz, bununla bağlıdır. 1964-cü ildə "Azərbaycan gəncləri" qəzetində "Əllərim" adlı ilk şeiri çap olunan Mövlud Süleymanlının nəsr əsərlərindəki obrazlı təhkiyələri, qəhrəmanlarının mənəvi aləminə işıq salan poetik yanaşma tərzi hər zaman oxucuları bir ahənrüba kimi özünə çəkib. Yazıçının bir-birindən maraqlı hekayə və povestləri ilk dəfə "Ayın aydınlığında" adlı nəsr kitabında işıq üzü görüb. "Qar", "Yanğın", "Şanapipik", "Şeytan", "Duzsuzluq", "Ot" hekayələri M.Süleymanlını oxuculara cəmiyyət problemlərini zamanında görüb əks etdirən realist bir nasir kimi tanıdıb.

Ədib 1980-ci illərdən başlayaraq daha çox roman janrına müraciət edib. "Köç", "Ceviz qurdu", "Səs" romanları çağdaş Azərbaycan romançılığının inkşafında yeni pillənin parlaq nümunələridir. "Köç" romanında Azərbaycan nəsri üçün yeni olan mifik təfəkkür tərzi, türk ruhunun etnoqrafik təsviri və folklorun ən qədim çalarları əks olunub. "Səs" romanı isə sovet cəmiyyətinin son durumunu əks etdirən sosial roman kimi maraqla qarşılanıb.

Daim qaynar ədəbi mühitdə olan Mövlud Süleymanlı 17 il Azərbaycan Dövlət TeleRadio Şirkətinin sədr müavini vəzifəsində çalışıb. O həmin müddətdə bəbii prosesin, folklorumuzun, etnoqrafiyamızın və digər xalq yaradıcılığı örnəklərinin efirdə ardıcıl işıqlandırılmasını təmin edib.

**Xalq yazıçısının ürək sözlərini təqdim edirik:**

– Bir ədib kimi mənim yaradıcılığım daim yüksək qiymətləndirilib. Əməkdar incəsənət xadimi, Xalq yazıçısı adlarına layiq görülmüşəm, bundan əvvəl "Şöhrət" ordeni ilə təltif edilmişəm. İndi də hörmətli Prezidentimiz "Şərəf" ordeni ilə təltif olunmağım barədə sərəncam imzalayıb. Dövlətimizin başçısına hədsiz dərəcədə minnətdaram.

Əlbəttə, bütün bunlar mənə böyük yaradıcılıq stimulu verir. Onu da deyim ki, həyatımın ən böyük sevincini hər bir soydaşım kimi, mən də 2020-ci ilin payızında – rəşadətli ordumuz 44 günlük "Zəfər yürüşü" ilə əzəli torpaqlarımız olan Qarabağı və Şərqi Zəngəzuru erməni işğalından azad edəndə yaşadım. Bu Böyük Qələbə həm milli birliyin təntənəsi oldu, həm də bizi dünyaya qalib xalq kimi tanıtdı.

Bir daha müzəffər Ali Baş Komandanımıza dərin təşəkkürümü bildirir və əmin edirəm ki, ömrümün Allahın lütf edəcəyi qalan illərində də öz qələmimlə Azərbaycan milli məfkurəsinin geniş yayılmasına, mənəvi dəyərlərimizin yaşadılmasına xidmət edəcəyəm.

Uğurlar olsun, Mövlud müəllim! Redaksiyamızın kollektivi də öz sevimli yazıçısını layiq görüldüyü yüksək dövlət təltifi münasibətilə səmimi təbrik edir, parlaq qələm sahibinə cansağlığı və yeni sənət sevincləri arzulayır.

***Əli NƏCƏFXANLI, "Xalq qəzeti"***

## Sosial xəbərlər

### Qazilərə pensiya təyinatı davam edir



Vətən müharibəsində yaralanmış və müalicə kursları tamamlanmış 4 minədək hərbi qulluqçuya əlillik təyin edilib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İnformasiya və kommunikasiya şöbəsindən aldığımız məlumatda deyilir.

Bildirilir ki, ilk mərhələdə həmin hərbi qulluqçuların əyani müayinəsi keçirilməklə, müvafiq hərbi həkim komissiyalarından şəhadətnamə (xəsarət və ya xəstəliklərin hərbi xidmətlə əlaqəsini müəyyən edən sənəd) və tibb müəssisələrindən göndərişlər (forma 88) elektron sistemə daxil edildikdən sonra Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən əlilliyin qiymətləndirilməsi həyata keçirilir.

Artıq bu kateqoriyadan olan 3967 hərbi qulluqçuya ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyin olunub. Bundan sonra onlara e-sistem tərəfindən, proaktiv qaydada əlilliyə görə aylıq sosial ödənişlər (Prezidentin təqaüdü, pensiya, müavinət) təyin olunub, habelə birdəfəlik sığorta ödənişləri verilib.

### DOST-un dostları üçün konsert



DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində keçirilən "İstedad sərhəd tanımır" adlı tədbirdə dövlət və hökumət rəsmiləri diplomatik nümayəndəliklərin, beynəlxalq təşkilatların vəzifəli şəxsləri iştirak ediblər.

Tədbir iştirakçıları mərkəzin təlimçiləri və benefisiarlarının hazırladığı əl işlərindən ibarət sərgi, habelə burada yaradılmış şəraitlə – peşə-yaradıcılıq otaqları və studiyaları ilə tanış olublar. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin sosial sahəyə xüsusi qayğısı nəticəsində bu sahədə əldə olunan mühüm uğurları diqqətə çatdırıb. Bildirib ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan bu mərkəz Cənubi Qafqazda ilk dəfə olaraq kifayət qədər əhatəli, çoxşaxəli fəaliyyət istiqamətlərini özündə birləşdirən ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanıdır.

Mərkəzin sosial cəhətdən həssas qrupların yaradıcı potensialının, istedadlarının, digər bacarıqlarının ortaya çıxarılması və inkişafı, cəmiyyətə təqdim olunmasında, onların sosial inteqrasiyasında mühüm rola malik olduğu vurğulanıb.

Sonra mərkəzin təlimçiləri və benefisiarlarının iştirakı ilə DOST-un dostları üçün konsert proqramı təqdim olunub. İnklüziv ansamblın müşayiəti ilə keçirilən konsertdə dünya və Azərbaycan musiqisinin sevilən nömrələri qonaqlar tərəfindən maraqla qarşılanıb.

### DSMF 7 beynəlxalq mükafata layiq görülüb

Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyası öz rəsmi səhifəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 2023-cü il ərzində əldə etdiyi beynəlxalq uğurlar barədə yazı yerləşdirib.



DSMF-nin fəaliyyətinin beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilməsi, təkcə bu il 7 nüfuzlu beynəlxalq mükafata layiq görülməsi materialda xüsusi qeyd edilib.

Açıqlamada bu uğurların ölkəmizdə son illərdə sosial sahədə aparılan islahatların nəticəsi olduğu da vurğulanıb.

***Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"***


## "Bakı Çinar Soyuducuları" ASC səhmdarlarının nəzərinə!

15 sentyabr 2023-cü il saat 11.00-da "Bakı Çinar Soyuducuları" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Bakı şəhəri, Bakıxanov qəsəbəsi Əli Kərim küçəsi 27/k nömrəli ünvanda ( "Kristal" Şadlıq sarayında) keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

**1.** ASC-nin icra orqanının (sədrinin) seçilməsi.
**2.** Müşahidə şurasının və təftiş komissiyasının üzvlərinin seçilməsi.
**3.** Cəmiyyətin idarəetmə orqanlarının 2022-ci il üçün illik hesabatı.
**4.** Digər məsələlər.



## B İ L D İ R İ Ş

**"Azəristiliktəchizat" ASC-nin** polad borular və dirsəklərin iri sahibkarlıq subyektlərinin də cəlb olunmaqla satın alınması məqsədilə 2023-cü il iyunun 13-də elektron portal vasitəsi ilə keçirilmiş açıq tenderinin nəticələrinə əsasən "FUM" MMC qalib elan edilmiş və həmin MMC ilə 2023-cü il iyulun 25-də müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***


Yay həyəcanı

# Havada ağcaqanad, yerdə siçovullar...

## Paytaxtın Qaraçuxur qəsəbəsində sakinlər dad edirlər

**İki xanımın əsəbi dialoqu:**

– Ay xala, zibili bura atma!

– Nə edim, ay bala? Zibil yeşiyi yoxdur.

– Görmürsən, 1-ci mərtəbədə yaşayanlar əziyyət çəkirlər? Natəmizlik, üfunət ağcaqanadların bulud kimi artmasına səbəb olur axı.

**Daha bir xanım müdaxilə edir:**

– Hələ bəziləri var, zibili yuxarı mərtəbədən birbaşa aşağı atır. Belə mədəniyyətsizlik olmaz axı…

Şahidi olduğum bu söhbət həmin məhəllədə yaşayan rəfiqəmin mənə gecə saat 3-də yazdığı ağcaqanad şikayətini xatırlatdı. "Qədimdən küləklər diyarı, bu gün də fontan, göydələnlər şəhəri"ndə əsasən yay aylarında qulağımızın dibində qopan ağcaqanad vızıltıları günümüzü qara edir. Hələ bu qanadlı həşəratların neştərlərinin camaatın səhhətinə necə yoluxucu təsir etdiyini demirəm. Bir sözlə, problem yayda xüsusilə dözülməz olur".

Səhər çantamı çiynimə keçirib, ağcaqanadların tüğyan etdiyi bəzi ünvanlara üz tutdum. Uşaqlıq illərimin ən çox keçdiyi Suraxanı rayonu, Qaraçuxur qəsəbəsinə getdim. Etibar Bəkirli küçəsindəki 15-ci binanın üfunət qoxulu dəhlizləri, sakinlərin zibilxanaya çevirdikləri çirkab dolu lift şaxtaları, "şəlalə" axan zirzəmi buradakı əksər sakinlərin hansı antisanitar vəziyyətdə yaşadıqlarını göstərirdi.

…Binanın 1-ci mərtəbəsindəki 64 və 65-ci mənzillərin qapıları hay-küylə açılır. Elvira və Məryəm adlı xanımlar bildirirlər ki, bu binalar çoxdan bəri diqqətdən kənarda qalaraq acınacaqlı vəziyyətə düşüb. Müraciət etdikləri qurumlar da şikayətlərə tam biganə qalırlar.



**Məryəm xanım deyir:**

– Binalar əsl ağcaqanad yuvası, gəmiricilər məskənidir. Gəlib təmizləyən, dərmanlayan yoxdur. Əlaqədar qurumlar heç bir tədbir görmür. Ətrafdakı binalar da eyni vəziyyətdədir.

Elvira xanım isə təəssüflə əlavə edir ki, bu vəziyyətə görə uşaqlar astma-bronxit olublar. Hərdən adam düşünür ki, yəqin, şəhərin mərkəzindən uzaq olduğumuz üçün diqqətdən kənarda qalmışıq. Yəni, gözdən-könüldən iraqıq.

– Mən Türkiyədə də yaşamışam, – deyə o sözünə davam edir. – Bələdiyyəyə bir müraciət kifayət edir ki, gəlib səliqə-sahman, qayda yaratsın. Əslində, heç müraciətə də ehtiyac duyulmur, çünki hər kəs öz işinə məsuliyyətlə yanaşır. Bizim bələdiyyə isə nə bir iş görür, nə də şikayətə baxır.

**Digər sakin – Asiya xanım liftin sökülüb yararsız hala salınmasından, onların yerinin zibilliyə dönməsindən, üstəlik də divarlardan su sızmasından gileylənir:**

– Bütün bunlar ağcaqanadların, siçanların artması üçün münbit şərait yaradır. Bələdiyyədən isə deyirlər ki, binaların altından axan su işıq kabellərini zədələyib. Guya buna görə yaxın dura bilmirlər. Yaqut adlı sakin də onun dediklərini təsdiqləyir. Bir də ki, görünən dağa nə bələdçi? Hər şey göz önündədir.

**Məsələ ilə bağlı biz də Suraxanı Rayon Qaraçuxur Bələdiyyəsinə müraciət etdik. Sədr müavini Arif Şahmuradov bildirdi ki, oradakı sakinlər narahat və çətin insanlardır. Özləri təmizliyə riayət etmirlər:**

– Bu bina yarımçıq tikilmiş olduğundan, liftlər quraşdırılmayıb. Məişət tullantılarını da ki, sakinlər hara gəldi atırlar: lift yarıqlarına, həyətə, binanın yaxın ətrafına. O binanın arxa hissəsində bizim sosial işçilərimiz sakinlərin atdıqları məişət tullantılarını yığışdırmaqla məşğuldurlar. Bir də ki, əgər vətəndaşların şikayəti varsa, qoy bizə yazılı müraciət etsinlər (?!).

**Antisanitar şəraitlə, bu üzdən uşaqların xəstələnə bilməsi ilə bağlı həkim mövqeyini də öyrənmək istədik. Tibb Universitetinin dosenti Aydın Əliyev qəzetimizə bildirdi ki, bu gün ən çox diqqətçəkən məqam müəyyən ərazilərdə ağcaqanadların çoxalmasıdır:** "Natəmizlik, rütubət ağcaqanadların çoxalmasına səbəb olur. İlk növbədə çirkli mənbələri ləğv edilməlidir. Unutmaq olmaz ki, insanı sancan ağcaqanad onunbədəninə hər hansı zəhərli maddə də yeridir. Malyariya paraziti anofelis ağcaqanad növünə yoluxur. Həmin həşərat insanı dişlədikdə o parazit qaraciyərə daxil olur, sonra qana keçir və s. Güclü allergik reaksiya və qızdırmalar da bu səbəbdən yaranır. Onu da vurğulayım ki, əhali özü də birmənalı olaraq təmizliyə riayət etməlidir".

***İmamət İSMAYIL ƏDİLBƏYLİ***

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 157 (30273) 28 iyul 2023-cü il, cümə
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## “Qarabağ”–“Rakuv” azarkeş sayına görə 6-cı oldu

**UEFA Çempionlar Liqasının II təsnifat mərhələsinin ilk oyunlarını (12 qarşılaşma) stadionlardan, ümumilikdə, 73 min 278 tamaşaçı izləyib.**



“Qarabağ”–“Rakuv” qarşılaşması bu göstəriciyə görə 6-cı pillədə qərarlaşıb. Matçı 5 min 451 azarkeş izləyib. Ən çox azarkeş sayı “Servette” (İsveçrə) – “Genk” (Belçika) matçında qeydə alınıb. Oyunu 18 min 26 nəfər izləyib.

Xatırladaq ki, “Qarabağ” həmin oyunda “Rakuv”a 2:3 hesabı ilə uduzub.

## “Sabah” ilk dəfə Azərbaycana xal qazandırıb

**“Sabah” ilk dəfə UEFA reytinqində Azərbaycana xal qazandırıb.**



Bakı klubunun avrokuboklarda debüt matçındakı qalibiyyəti sayəsində ölkə reytinqinə 0,250 xal əlavə olunub. Təmsilçimiz UEFA Konfrans Liqasının II təsnifat mərhələsində Latviya təmsilçisi RFŞ-ni səfərdə 2:0 hesabı ilə məğlub etməklə buna nail olub. Ölkənin cari mövsümdəki xallarının sayı 0,750-yə çatıb.

Son beş mövsümdəki ümumi xallarının sayı 15 minə çatan Azərbaycan reytinqdə 29-cu pillədə qalıb.

Reytinqə 88,928 xalla İngiltərə başçılıq edir. İspaniya (75,927) ikinci, İtaliya (71.569) isə üçüncü yerdə qərarlaşıb.

## Maribor qızılları...

**Sloveniyanın Maribor şəhərində keçirilən XVII Avropa Gənclər Olimpiya Festivalı davam edir.**



Festivalın beşinci günündə cüdo üzrə Azərbaycan komandasının 3 üzvü tatami üzərinə çıxıb.

Təmsilçilərimizdən yalnız cüdoçu Süleyman Şükürovun (73 kq) çıxışı uğurlu olub. Finala qədər bütün rəqiblərini məğlub edən idmançımız yalnız həlledici mərhələdə rumıniyalı David Qaliqaya məğlub olaraq gümüş medalla kifayətlənib.

Qeyd edək ki, festivalda cüdo komandamızın üzvləri bundan əvvəl 6 medal qazanıblar. Komandamızın aktivinə qızıl medalları Vüsalə Hacıyeva (48 kq) və Xədicə Qədəşova (52 kq) yazdırıblar. Məhəmməd Musayev (60 kq), Cəsur İbadlı (66 kq), Nihad Məmişov (50 kq) və Ayxan Mirzəzadə (55 kq) üçüncü yerləri tutublar.

*L.SABİRQIZI, “Xalq qəzeti”*

Texnologiya yenilikləri



## “ChatGPT”nin android versiyası təqdim edilib

**“OpenAI” şirkətinin məşhur süni intellekt tətbiqi “ChatGPT” artıq android telefonlar üçün də əlçatandır. Belə ki, tətbiq “Google Play Store”da yerləşdirilib. Süni intellekt proqramı 100 mindən çox yüklənilib.**

Android üçün “ChatGPT” proqramı ilk dəfə ABŞ, Hindistan, Banqladeş və Braziliyada istifadəyə verilib. “OpenAI”-nin bəyanatına görə, bir neçə həftədən sonra digər ölkələrdə də yükləmək mümkün olacaq. Öncədən qeydiyyatdan keçmək artıq mövcuddur. “Play Store”da proqramın müxtəlif surətləri yerləşdirildiyi üçün rəsmi olmasına diqqət yetirmək lazımdır. Yükləmə tamamlandıqdan sonra daxil olaraq süni intellektlə söhbətə başlanılır.

Qeyd edək ki, “ChatGPT”nin iOS versiyası may ayında ictimaiyyətə təqdim edilib.

*Əfsanə ƏHƏDLİ, “Xalq qəzeti”*

## Robot nəfəs alır, hətta tərləyir

**İnsan bədəninin isti havaya reaksiyasını göstərmək üçün Arizona elm adamları nəfəs almağı, titrəməyi və tərləməni simulyasiya edə bilən robot təqdim ediblər.**



Mexanika mühəndisliyi professoru Konrad Rykaczewski France-Presse (AFP) agentliyinə məlumat verərək bildirib ki, bu, müntəzəm olaraq çölə götürə biləcəyimiz və ətrafdan nə qədər istilik aldığını ölçə biləcəyimiz dünyanın ilk açıq termal manekenidir.

Rykaczewski, həmçinin deyir ki, “ANDI” adlanan bu robot insanların özlərini riskə atmadan ekstremal iqlimə necə reaksiya verdiyini eksperimental olaraq ölçmək üçün çox əlverişlidir.

“ANDI”, həmçinin daxili soyutma sisteminə, nəfəs almaya və tərləməyə imkan verən məsamələrə malikdir. 35 müstəqil istilik zonası olan bu qurğu kürəyindən daha çox tərləyir.

*F. SALMANOVA, “Xalq qəzeti”*

Mədəniyyət xəbərləri

## Müşfiq ispan və alman dillərində

***Görkəmli Azərbaycan şairi Mikayıl Müşfiqin poeziyasını həmişəyaşar adlandıranlar yanılmırlar. Düz 85 il öncə dünyasını dəyişmiş şairin şeirlərinə dünyada maraq səngimir. İspaniyanın populyar “Alquibla”, Almaniyanın “Spruechetante” ədəbiyyat portalları ispan və alman dillərinə tərcümə olunmuş “Həyat sevgisi” və “Yeni gənc” şeirlərinin yayımına başlayıb.***



Dövlət Tərcümə Mərkəzindən bildirilib ki, qurumun “Azərbaycan ədəbiyyatı beynəlxalq virtual aləmdə” layihəsi çərçivəsində reallaşan yayım şairin yaradıcılığı haqqında geniş məlumatla təqdim olunub. Şeirlərin ispan dilinə tərcüməsinin müəllifləri ispan filoloqu Eva Kontreras və mərkəzin ispan dili mütəxəssisi Aysel Əliyeva, alman dilinə tərcümə müəllifləri alman filoloqu Kerstin Kraps və mərkəzin alman dili mütəxəssisi Məryəm Səmədovadır.

Qeyd edək ki, geniş oxucu kütləsi tərəfindən izlənilən “Alquibla” və “Spruechetante” ədəbiyyat portalları dünya şöhrətli yazıçı və şairlərinin yaradıcılığını işıqlandırır.

## “Etüd əsərlər guşəsi”



***Xətai Sənət Mərkəzində “Etüd əsərlər guşəsi” yaradılıb. Bundan məqsəd naturadan işlənmiş əsərlərə ictimai marağı artırmaqdır.***

Guşədə Mərkəzin müxtəlif vaxtlarda burada keçirilən tədbirlərdə rəssamlardan əldə etdiyi etüd əsərlərdən ibarət kolleksiya sərgilənir. Sənət ocağı tərəfindən guşə daim yenilənəcək və daha fərqli ekspozisiya yaradılacaq. Hər bir rəssam özünün etüd əsərlərini guşəyə təklif edə bilər.

## “Brodvey hekayəsi”

***Rəşid Behbudov adına Dövlət Mahnı Teatrının səhnəsində “Brodvey hekayəsi” adlı maraqlı musiqili tamaşa nümayiş olunub.***



Tamaşa Amerika Birləşmiş Ştatlarının (ABŞ) Azərbaycandakı səfirliyinin dəstəyi ilə təşkil edilib. Tamaşanın yaradıcısı və layihənin rəhbəri “Jam Group” şirkətinin baş direktoru Əziz Əzizovdur.

“Brodvey Hekayəsi” tamaşaçıları müxtəlif rəqs nömrələri, rəngarəng kostyumlar, göz oxşayan dekorasiyalar və təbii ki, peşəkar sənətçilər tərəfindən ifa olunan orijinal vokal əsərləri ilə valeh edib.

*Əli NƏCƏFXANLI, “Xalq qəzeti”*

## Cazın bir ulduzu da söndü

**Braziliyanın dünya şöhrətli musiqi, caz ifaçısı Leni Andrade 80 yaşında vəfat edib.**



1943-cü il yanvarın 25-də Rio-de-Janeyroda dünyaya göz açan Andrade ölkəsinin ən uğurlu caz ifaçılarından idi.

O, uşaq ikən klassik fortepiano üzrə təhsil alıb, yeniyetmə olanda isə Rio gecə klublarında “bossa nova” və “samba” tərzində caz ifa etməyə başlayıb. Andradenin səsyazma karyerasının əsası 1961-ci ildə “A Sensaçao” adlı caz musiqisi ilə qoyulub. Zəngin rezonanslı və emosional səslə ifa olunan bu musiqi müğənniyə böyük şöhrət gətirib və o vaxtdan Amerikanın hər yerində uğur qazanıb.

1980-90-cı illərdə sənətinin şöhrəti ABŞ-da artıb və o, 1993-cü ildə Nyu-Yorka köçüb. Şəhərin “Bennett” və “Liza Minnelli” caz klublarında və ölkənin caz festivallarında çıxış edən müğənninin pərəstişkarları çoxalıb. Fanatları onun ifa tərzini mərhum amerikalı caz ifaçısı Sara Vaughana bənzədirdilər.

Qeyd edək ki, iyulun 24-də dünyasını dəyişən braziliyalı caz ulduzu pnevmaniyadan əziyyət çəkirdi.

*F. HÜQUQQIZI, “Xalq qəzeti”*

## “Barbi” “Oppenheimer”i üstələyib



**“Barbi” filmi onunla ilə eyni zamanda təqdim olunan “Oppenheimer”i üstələyib. Belə ki, iki böyük şirkətin filmlərinin bir həftəlik gəlirləri açıqlanıb.**

“Barbi” filmi 155 milyon dollardan çox gəlir əldə edərək, ABŞ-da indiyə qədər qadın rejissorun çəkdiyi ən uğurlu film olub. O hətta, 2019-cu ilin ilk həftəsində 153 milyon dollar qazanan “Captain Marvel”i də geridə qoyub. Kino həmçinin, 2023-cü ilin bugünə kimi olan ən böyük gəlirli yerli film ünvanını da alıb. Eyni vaxtda buraxılan digər böyük istehsal olan “Oppenheimer” isə 80,5 milyon dollar qazandırıb.

Qeyd edək ki, “Barbi” filmini hazırda bütün kinoteatrlarda izləmək mümkündür.

*Aytən NƏCƏFOVA, “Xalq qəzeti”*

Proqnoz

## 37 dərəcə isti olacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən **iyulun 28-də Bakıda və Abşeron yarımadasında** əsasən yağmursuz keçəcək. Mülayim cənub küləyi əsəcək, gündüz arabir güclənəcək. Gecə 20-25°, gündüz 28-33° isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunundan 752 mm civə sütununa enəcək, nisbi rütubət gecə 60-70 , gündüz 45-50 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı gözlənilir. Şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-24°, gündüz 32-37°, dağlarda gecə 11-16°, gündüz 18-23° isti olacaq.

*Q. QASIMOV, “Xalq qəzeti”*

## FHN-nin yanğına qarşı təlimi

**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə və Dövlət Yanğın Nəzarəti xidmətləri Bakı şəhəri, Xətai rayonu, Məhəmməd Hadi küçəsi, 25T ünvanında yerləşən “Elnet” MTK-ya məxsus çoxmərtəbəli yaşayış binasında təlim keçirib.**



Təlim zamanı şəxsi nəqliyyat vasitələrinin nizamsız park edilməsi və süni maneə səbəbindən yanğın avtomobillərinin yaşayış binasına və su hovuzuna sərbəst şəkildə yaxınlaşa bilmədiyi müəyyən olunub. Bundan əlavə, binanın ilkin yanğınsöndürmə vasitələri ilə tam təmin olunmadığı, daxili yanğın su kranlarının tam komplektləşdirilmədiyi, qəza-işıqlandırma sisteminin olmadığı və elektrik təsərrüfatının “Elektrik Qurğularının Quraşdırılması Qaydaları”nın tələblərinə cavab vermədiyi və yanğın xəbərverici siqnalizasiya qurğusunun işlək vəziyyətdə olmadığı da müəyyən edilib.

Qeyd olunan nöqsanların aradan qaldırılması barədə yaşayış binasının yanğın təhlükəsizliyinə məsul şəxslərinə şifahi və yazılı “tapşırıqlar” verilib, eyni zamanda binanın sakinləri ilə yanğın təhlükəsizliyinin təmin olunması barədə maarifləndirici söhbətlər aparılıb.

Nəzərə çatdırılıb ki, yanğın və digər fövqəladə hadisələr zamanı xilasetmə və yanğınsöndürmə avtomobillərinin, digər iriqabaritli xüsusi təyinatlı texnikaların binaların həyətinə maneəsiz daxil olması, çevik şəkildə döyüş vəziyyətinə gətirilməsi və əməliyyatların effektli keçirilməsi, habelə su hovuzları və hidrantlardan rahat istifadə üçün avtomobillər yalnız təyin olunmuş yerlərdə, bir-biri ilə ara məsafəsi gözləməklə, digər avtomobillərin sərbəst keçid imkanı təmin olunmaqla park edilməlidir.

*S.RZAYEVA, “Xalq qəzeti”*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4626
SİFARİŞ 1853
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00